# Azərbaycanda tolerantlıq ənənəsi

Bakı-2015

AZƏRBAYCAN RESPUBLİKASI
DİNİ QURUMLARLA İŞ ÜZRƏ
DÖVLƏT KOMİTƏSİ

Kitabın nəşrinə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin DK-344/Y saylı 28 aprel 2015-ci il tarixli məktubu ilə razılıq verilmişdir.

**Redaktor:** Nahid Məmmədov

**Korrektorlar:** Namiq Zeynəddin, Mahir Qəniyev

**Kitab Dini Araşdırmalar Mərkəzi tərəfindən hazırlanmışdır.**

**Azərbaycanda tolerantlıq ənənəsi**
Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 160 səh.

**ISBN: 978 - 9952 - 508 - 29 - 1**

**© DQİDK, 2015**

# Ön söz

Tolerantlığın, fərqli düşüncə və əqidələrə qarşı dözümlü münasibətin müasir dünyamızda ən çox müzakirə edilən mövzulardan olduğunu desək, yanılmarıq. Paradoksal bir haldır ki, elmi-texniki inkişafın zirvəsinə çatmış bəşəriyyət sülhpərvərlik, birgəyaşayış, dini və ideoloji dözümlülük baxımından o qədər də məsafə qət etməmişdir. Hətta elmi-texniki inkişaf əsri olan XX əsr, eyni zamanda, mədəniyyətlərarası və dövlətlərarası dözümsüzlüyün də "inkişaf" əsri olmuşdur. Çox təəssüf ki, bu proses indi də davam edir, dünyanın müxtəlif bölgələrində dini dözümsüzlük və fanatizm halları tüğyan edir. Məhz bu səbəbdən tolerantlıq ənənəsinin inkişaf etdirilərək dünyanın bütün bölgələrində bərqərar edilməsi hazırda bəşəriyyətin qarşısında duran ən mühüm məsələlərdəndir.

Son dövrlərdə, xüsusilə Qərbdəki bəzi dairələr məqsədyönlü şəkildə dözümsüzlüyü yalnız İslamla və müsəlman dünyası ilə əlaqələndirərək İslamı "dözümsüzlük dini", müsəlmanları isə başqa dinlərin nümayəndələrinə qarşı dözümsüz insanlar kimi təqdim edirlər. Halbuki tarixə nəzər yetirdikdə bunun tam əksinin şahidi oluruq. Orta əsrlərdə İslam dünyası dini və mədəni rəngarənglik baxımından dünyanın ən nümunəvi bölgəsi olmuşdur. Xristianlıq, Yəhudlik, Zərdüştilik, Mandeizm, Hinduizm və s. dinlərə mənsub olan insanlar İslam dünyasında sülh şəraitində yaşamış, dini ayinlərini sərbəst şəkildə icra etmişlər. İslam-irfan mütəfəkkirləri bunun nəzəri əsaslarını hazırlamış, bütün dinlərin əsas məqsədinin insaları ilahi qüvvəyə inama və ona ibadətə çağırmaqdan ibarət olduğunu dilə gətirmişlər. Böyük sufi mütəfəkkiri Mövlana Cəlaləddin Rumi bu həqiqəti *"Mömin də Uca Padşaha (Allaha) yönəlir, xristian da, yəhudi də, məcusi də. Hətta daş, torpaq, dağ və suyun belə Tanrıya gizli bir duası vardır"* kəlamı ilə xülasə etmişdir.

İslam dünyasının bir hissəsi olan Azərbaycanda da tarixən müxtəlif dinlərin və məzhəblərin nümayəndələri sülh şəraitində yaşamış, hər hansı bir diskriminasiya halı ilə qarşılaşmamışlar. Fəxrlə deyə bilərik ki, ölkəmiz tarixən üç səmavi dinin nümayəndələrinin dostluq şəraitində yaşadığı və dini zəmində heç bir qarşıdurmanın yaşanmadığı məkandır. Azərbaycan müsəlman dünyasında da müxtəlif İslam məzhəblərinin nümayəndələri arasındakı qardaşlıq münasibətləri baxımından öz nümunəvi təcrübəsi ilə seçilir. Belə ki, İslamın iki böyük məzhəbinin nümayəndələri tarixən ölkəmizdə məzhəbçilik qəliblərini aşaraq, qardaşlıq şəraitində yaşamış və yaşamaqda davam edirlər. Qarabağlı böyük sufi şair və mütəfəkkir Mir Həmzə Nigarinin *"Allahı, Məhəmmədi, Alı sevən dostanız, Nə sünniyiz, nə şiə, biz xalis müsəlmanız"* sözü Azərbaycandakı məzhəblərarası qardaşlıq mühitini lakonik şəkildə ifadə edir.

Oxuculara təqdim olunan "Azərbaycanda tolerantlıq ənənəsi" adlı tədqiqat əsəri ölkəmizdəki tolerantlıq mədəniyyətinin tarixi köklərinin və praktiki təzahürlərinin üzə çıxarılması baxımından böyük əhəmiyyətə malikdir. Ölkəmizin dinşünaslıq sahəsində fəaliyyət göstərən aparıcı tədqiqatçıların məqalələrindən ibarət olan bu kitabda həm İslam daxilindəki məzhəblərarası qardaşlıq ənənəsinin nəzəri və praktiki nümunələri, həm də ölkəmizdə mövcud olan dinlərin nümayəndələri arasındakı tolerantlıq nümunələri ilə əlaqədar müxtəlif tədqiqat işləri öz əksini tapmışdır. Məqalə müəlliflərinin ölkəmizin müxtəlif bölgələrinə gedərək tolerantlıq mədəniyyətinin praktiki təzahürləri ilə yerində tanış olmaları əsərin əhəmiyyətini xüsusilə artırır.

Ümidvarıq ki, bu tədqiqat əsəri Azərbaycandakı tolerantlıq mədəniyyətinin nəzəri və praktiki əsaslarını üzə çıxaran yeni araşdırmaların yazılmasına stimul verəcəkdir.

**Aqil ŞİRİNOV,**
*İlahiyyat üzrə fəlsəfə doktoru*

# QARABAĞ BÖLGƏSİNDƏ MƏZHƏBLƏRARASI TOLERANT MÜHİTİN FORMALAŞMASINDA SEYİD OCAQLARININ ROLU

## (SEYİD NİGARİ ƏNƏNƏSİ NÜMUNƏSİNDƏ)

**Aqil ŞİRİNOV**[1]

## Seyid məfhumu

Ərəbcə "seyyid" şəklində ifadə olunan *"seyid"* kəlməsi lüğətdə "ağa, lider, fəzilətli şəxs" kimi mənalar bildirir.[2] Bu kəlmə Qurani-Kərimdə iki yerdə keçir: "Ali-İmran" surəsinin 39-cu ayəsində Həzrət Yəhya haqqında, "Yusuf" surəsinin 25-ci ayəsində Züleyxanın əri barəsində. Hədislərdə də "seyid" kəlməsi həm Həzrət Peyğəmbər, həm də Əhli-beyt nümayəndələri haqqında işlədilmişdir. Məsələn, hədislərin birində Peyğəmbərimiz *"Mən Adəm övladlarının seyyidiyəm"* buyurmuşdur.[3] Peyğəmbərimiz, həmçinin Həzrət Həsən və Həzrət Hüseyni[4] *"Cənnət gənclərinin seyidləri - ağaları"* adlandırmışdır. Terminoloji mənada isə seyid məfhumu Həzrət Peyğəmbərin qızı Həzrət Fatimə ilə Həzrət Əlinin nəslinə mənsub olanlar üçün istifadə edilmişdir. İslam dünyasının bəzi bölgələrində Həzrət Həsənin nəslinin nümayəndələrinə şərif, Həzrət Hüseynin soyuna mənsub olanlara isə seyid deyilmişdir. Hər iki tərəfdən bu nəslə mənsub olanlar isə "təbətəba" və yaxud da "seyyidus-sadat" adlandırılmışdır.[5]

Orta əsrlər boyunca Abbasilər, Fatimilər, Əyyubilər, Elxanilər, Məmlukilər və Osmanlılar kimi müsəlman dövlətlərində seyidlərə xüsusi hörmət göstərilmiş, hətta onların işləri ilə məşğul olan "nəqibul-əşraf" adlı xüsusi bir vəzifə də var idi. Nəqibul-əşraflıq Abbasi xəlifəsi Mütəvəkkilin (232-

[1] İlahiyyat üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin müəllimi.

[2] İbn Mənzur, Lisanul-ərəb, "svd" maddəsi.

[3] Əbu Davud, Sünən, "Sünnə" 13.

[4] Tirmizi, Sünən, "Mənaqib" 30.

[5] Mustafa Sabri Küçükaşçı, "Seyyid", Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c. 37, s. 40.

247/847-861) dövründə təsis edilmiş, daha sonra müsəlman dövlətlərinin bir çoxunda mövcud olmuşdur. Bu qurumun başçısı nəqibul-əşrafın əsas vəzifəsi Həzrət Məhəmmədin nəslindən gələn seyid və şəriflərin işləri ilə məşğul olmaq, onların hüquqlarını qorumaq, şəcərələrinə nəzarət etmək, saxta yollarla özlərini Peyğəmbər soyuna aid etmək istəyənlərin qarşısını almaqdan ibarət idi.[1] Şirvanşahlar və Səfəvilər başda olmaqla Azərbaycanda qurulan əksər dövlətlərdə də eyni vəzifə mövcud olmuşdur. Məsələn, məşhur azərbaycanlı sufi və xəlvətiyyə təriqətinin ikinci piri Seyid Yəhya Şirvaninin atası Bəhaəddin Şirvanşahlar dövlətinin nəqibul-əşrafı[2] olmuşdur.

Seyid sülalələrinin özləri tərəfindən də İslam dünyasında bir çox dövlət qurulmuşdur. Məsələn, Şimali Afrikada qurulan və orada İslamın yayılmasında böyük xidmətləri olan İdrisilər (789-985), İmam Zeynəlabidinin oğlu Zeydin nəslindən olanların Təbəristanda (864-1526) və Yəməndə (897-1962) yaratdıqları Zeydi dövlətləri, bugünkü İspaniya ərazisində (Kordova) qurulan Həmmudilər (1016-1058), yenə Şimali Afrikada Sədilər və Filalilər dövlətləri seyid sülalələrini təmsil etmişdir.[3] Bəzi mənbələrdə Səfəvilərin də İmam Museyi-Kazımın soyundan gəldiyi qeyd olunur.[4]

---

1 Bax:Murad Sarıcık, Osmanlı İmparatorluğu'nda nakibü›l-eşraflık müessesesi, Ankara, 2003, s. 23.

2 Mehmet Rıhtım, "Seyid Yəhya Bakuvi və Şifa əl-Əsrar adlı əsəri", Seyid Yəhya Şirvani, Şifa əl-Əsrar, nəşrə haz. M. Rıhtım, Bakı, 2013, s. 71.

3 Mustafa Sabri Küçükaşçı, "Seyyid", Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c. 37, s. 41.

4 Bax: Yusuf Küçükdağ - Bilal Dedeyev, "Safevîlerin Nesebine Farklı Bir Bakış", Uluslararası Sosyal Araştırmalar Dergisi = The Journal of International Social Research, 2009, cilt II, sayı 6, s. 415-424.

## Seyid ocaqlarının Azərbaycandakı tarixi

Tarixdən məlumdur ki, Əməvilərin və Abbasilərin Əhli-beyt mənsublarına qarşı mənfi münasibəti nəticəsində bu sülalənin bir çox nümayəndələri təqiblərdən qaçaraq yaşadıqları Ərəbistan və İraq torpaqlarından İslam dünyasının müxtəlif bölgələrinə köç etmişlər. Seyidlərin köç etdikləri bölgələrdən biri də Azərbaycan olmuşdur. Bu köçün, xüsusilə İmam Zeynəlabidinin (38/659-95/713) və oğlu İmam Məhəmməd Baqirin (57/676-114/733) övladları ilə başlandığı bildirilir. Belə ki, ölkədəki seyidlərin bir qismi öz şəcərələrini birbaşa İmam Zeynəlabidinədək aparıb çıxarırlar. Həmçinin Gəncə imamzadəsi başda olmaqla[1] ölkəmizdəki bəzi türbələrin İmam Məhəmməd Baqirin nəslinin nümayəndələrinə məxsus olduğu söylənilir. Azərbaycana köçən Əhli-beyt nümayəndələri, xüsusən 7-ci imam Museyi-Kazımın (128/745-183/799) övladları olmuşlar. İmam Museyi-Kazımın oğlu 8-ci imam Əli ibn Musanın (İmam Rza) öz ailəsi ilə birlikdə Xorasana gəlməsi, daha sonra Tus (indiki Məşhəd) şəhərində vəfat etməsinin ardından bu ailə nümayəndələrinin kütləvi şəkildə ölkəmizə gəldiyini deyə bilərik. İmam Rzanın bacısının dəfn edildiyi Bibiheybət ziyarətgahı başda olmaqla[2] bir çox türbənin bu ailənin adı ilə bağlı olması, eləcə də ölkədəki seyidlərin əksəriyyətinin öz şəcərələrinin İmam Museyi-Kazımadək aparıb çıxaran Musəvi seyidlərindən ibarət olması bu mülahizəni gücləndirir. Seyidlər içərisində İmam Museyi-Kazımın nəslinin nümayəndələrinin çoxluq təşkil etməsinin səbəblərindən biri də övladlarının çox olmasıdır. Belə ki, mənbələrdə İmam Kazımın ən az 37 övladının olduğu qeyd edilir.[3]

1 Bax: Məşədixanım Nemət, Azərbaycanda pirlər, Bakı, 1992, 92-94.

2 Bax: Məşədixanım Nemət, eyni əsər, 34-37.

3 Şeyx Müfid, əl-İrşad, Beyrut, 1416/1995, c. 2, s. 244-247.

## Qarabağ seyidləri

Peyğəmbər nəslinin nümayəndələri Azərbaycanın digər bölgələrində olduğu kimi, Qarabağ ərazisində də məskunlaşmışlar. Qarabağ seyidləri əsasən bir neçə yaşayış məntəqəsindən bölgəyə yayılmışlar. Ağdamda Seyid Lazım, Ağcabədidə Seyid Bəhram ocaqları[1] və Kəlbəcər seyidlərinin əksəriyyəti başda olmaqla bir çox ocaq əslən Laçın rayonunun Böyük Seyidlər kəndindən gəlmiş seyid nəslinin nümayəndələrindəndir. Bundan başqa Şuşada da çox sayda seyid yaşamış və Qarabağın müxtəlif yerlərində məskunlaşmış bəzi seyid ocaqlarının kökü də məhz bu şəhərdəndir. Məsələn, Füzuli bölgəsində sayılıb-seçilən seyidlərdən olan Seyid Əşrəf əslən Şuşadandır və məşhur ədib Mir Möhsün Nəvvabın əmisi oğludur.[2] Bərdənin Canavarlı (indi Seyid Yusifli) kəndində yaşamış və Qarabağ bölgəsinin ən məşhur seyidlərindən olan Seyid Yusif isə əslən Cənubi Azərbaycandandır. Sünni məzhəbinə mənsub seyidlər isə əsasən Laçının Cicimli, Qubadlının Mirlər və Cəbrayıl rayonunun Çələbilər və Sirik kəndlərində məskunlaşmışlar. Bu ocaqların hamısı nəqşibəndi təriqətinin Mir Həmzə Nigariyə aid edilən nigari qoluna mənsubdurlar.

## Seyid Həmzə Nigarinin fəaliyyətləri

Mir Həmzə Nigari Qarabağın Zəngəzur bölgəsinin Cicimli kəndində Mir Paşa adı ilə tanınan Rüknəddin Əfəndinin ailəsində dünyaya gəlmişdir. Cicimli kəndi hazırda Laçın rayonu ərazisində yerləşir. Nigarinin doğum tarixi ilə bağlı mənbələrdə müxtəlif məlumatlar vardır. Onun hicri 1212 (1797), 1220 (1805) və ya 1230-cu (1815) illərdə anadan oldu-

1 Bax: Seyid Camal Əzimbəyli, "Azərbaycanda Seyid Ocaqları", Azərbaycan və Əhli-beyt irsi, Bakı, 2013. s. 111-112; 114-116.

2 Seyid Camal Əzimbəyli, eyni məqalə, s. 113.

ğuna dair fərqli məlumatlar mövcuddur. Vəfat tarixi isə 1886-cı ildir. Qarabağda "Cicimli seyidləri" adı ilə məşhur olan Nigarinin ailəsi XII əsrdə Xorasandan Qarabağa gəlmişlər. Seyid Nigari Həzrət Həsən nəslinə mənsub seyidlərdəndir.[1]

Azərbaycanın müxtəlif yerlərində bir çox alimdən dərs alan Seyid Nigarinin düşüncə dünyasını formalaşdıran mürşidi Şeyx İsmayıl Şirvani (Kürdəmiri) olmuşdur. Nəqşibəndiliyin xalidiyyə qoluna mənsub olan bu sufi mürşid bütün Qafqazda tolerantlığa əsaslanan ictimai strukturun formalaşmasında mühüm rol oynamışdır. Şirvani xalidiliyin qurucusu Mövlana Xalid Bağdadinin (v. 1242/1827) tələbəsi olmuş və birbaşa ondan təsəvvüf ənənəsi üzrə icazət almışdır.

Şirvaninin məzhəblərarası fərqliliyə münasibəti öz şeyxindən xeyli seçilmişdir. Belə ki, hər halda dövrün siyasi hadisələrinin də təsirində qalmış Xalid Bağdadinin şiə məzhəbinə qarşı münasibəti mənfi olmuşdur. Xüsusilə təsəvvüfdəki rabitə mövzusunu müzakirə etdiyi "Risalə fi təhqiqir-rabita (رسالة في تحقيق الرابطة)"[2] adlı əsərinin sonunda şiələrə qarşı mənfi fikirlər səsləndirmişdir. Lakin Şeyx İsmayıl Şirvanidə bu münasibətin tam əksini görürük. Yetişdirdiyi tələbələr vasitəsilə Qafqazda nəqşibəndiliyi yayan bu şeyx[3]Azərbaycandakı şiə-sünni münasibətlərinin müsbət məcrada davam etməsində xüsusi rol oynamışdır.[4] Həmzə Nigari də Osmanlı torpağına köçmüş, Şeyx İsmayıl Şirvanidən bəhrələnmək üçün Amasyaya getmiş və ondan xilafətnamə aldıqdan sonra Azərbaycana qayıtmışdır. Məzhəblərarası münasibətə baxışında müəllimindən də qabağa gedən Həmzə Nigari, xüsusən Qarabağ və Qazax-

---

[1] A. Azmi Bilgin, "Nigari", Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c. 33, s. 85.

[2] Hamid Algar, "Halid el-Bağdadi",Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c. 15, s. 285; Vahit Göktaş, "Mevlânâ Halid-i Bağdâdî'nin "Risaletü fî Tahkîki'r-Rabıta" Adlı Eseri ve Rabıta ile İlgili Görüşleri", Tasavvuf Yazıları, 2014, s. 345.

[3] Bax: Itzchak Weismann, The Naqshbandiyya: Ortodoxy and activism in a worldwide Sufi tradition, London, 2007, s.106.

[4] Itzchak Weismann, eyni əsər, s. 107.

Borçalı bölgələrində hər iki məzhəbin dəyərlərini birləşdirən bir təsəvvüf ənənəsinin əsasını qoymuşdur.

Həmzə Nigarinin təsəvvüfi fikirlərini nəzmlə ifadə etdiyi divanına diqqət yetirdikdə, burada mövzumuzla bağlı bir neçə məqam diqqətimizi çəkir. Bunlardan biri Nigarinin özünü müəyyən bir məzhəbin çərçivəsinə həbs etməməsidir. Nigariyə görə, İslam məzhəbindən asılı olmayaraq bütün müsəlmanları birləşdirən dəyərdir. Məzhəb mənsubiyyəti dini mənsubiyyətlə müqayisədə böyük əhəmiyyət kəsb etmir. Divanından götürülmüş aşağıdakı beyt Seyid Nigarinin bu görüşlərinin xülasəsidir:

*Allahı, Məhəmmədi, Alı sevən dostanız,*
*Nə sünniyiz, nə şiə, biz xalis müsəlmanız.*
*Çahar yarı istəriz zira ki, Mustafanın*
*Dostuna dost xəsmanına xəsmanız.*[1]

Tələbəsi Hacı Mahmud Əfəndi vasitəsilə Seyid Nigariyə aid edilən Şahnigar Xanım Rəncur (1849-1899) da bu şeirdən ilham alaraq oxşar fikirlər səsləndirmişdir:

*Nə şiə, sünniyəm purlaf,*
*Çahar yara könlüm saf,*
*Nə əhli-zülmə-biinsaf,*
*Nə mərdiyə inanam mən.*[2]

Yuxarıdakı beytdə əslində Seyid Nigari düşüncəsinin bir neçə əsas prinsipi öz əksini tapmışdır. Bunlardan biri də Əhli-beyt sevgisidir. Nigari bu sevgini bütün müsəlmanları birləşdirən dəyər kimi qəbul etmişdir. Divanında dəfələrlə bu mövzuya toxunmuş, Əhli-beyt sevgisini önə çəkərək onla-

---

[1] Həmzə Nigari, Divan-ı Seyyid Nigari, haz. A. Azmi Bilgin, İstanbul, 2003, s. 330.

[2] Məhəmməd Allahmanlı, Azərbaycanin Qərb Bölgəsinin Mənəvi Mədəniyyətindən (tarixi-etnoqrafik tədqiqat) , Bakı, 2011, s. 113; Əlavə olaraq bax: Minəxanım Təkəli, Fəridə Əliyeva, "Nigari Aşiqi Şahnigar Xanım Təkəli", Karabağ`dan Amasyaya Gönül Köprüsü- I. Uluslararası Hamza Nigari Sempozyumu, Amasya, 2012, s. 262.

rın əleyhdarlarına, xüsusən Əməvilərə qarşı mənfi münasibət bəsləmişdir. Hətta özü sünni-hənəfi olsa da, ənənəvi sünni dünyagörüşündən və mənsub olduğu nəqşibəndi-xalidi təriqətindən fərqli olaraq ilk Əməvi xəlifəsi Müaviyə ibn Əbu Süfyana qarşı sərt ifadələr işlətmişdir.

Seyid Nigarinin önə çəkdiyi başqa bir prinsip dini kimliyin məzhəbi kimliyin fövqündə durmasıdır. *"Nə sünniyiz, nə şiə, biz xalis müsəlmanız"* sözləri bu münasibətin düsturlaşmış formasıdır. Yaşadığı dövrdə İslam dünyasındakı dini vəziyyət baxımından bu ifadələr inqilabi xarakter daşıyırdı. Belə ki, XIX əsrdə İslam dünyasındakı məzhəb təəssübkeşliyi heç də orta əsrlərdən fərqlənmirdi. Qafqazda da vəziyyət bir o qədər fərqli deyildi. Bu baxımdan Nigarinin fikirləri etibarilə öz dövrünü qabaqladığını demək mümkündür.

Mir Həmzə Nigarinin üzərində durduğu digər prinsip bir məzhəbin müqəddəs qəbul etdiyi şəxslərə başqa məzhəblərin nümayəndələrinin də hörmət göstərməsidir. Bilindiyi kimi, Peyğəmbərin bəzi səhabələrinə, xüsusilə də ilk üç xəlifəyə qarşı şiə və sünnilərin münasibəti eyni deyildir. Sünnilər ilk üç xəlifəni sevib hörmət etdiyi halda, şiələr onlara daha çox tənqidi baxımından yanaşırlar. Şiə alimləri qarşı çıxsa da, xüsusən orta əsrlərdə və Nigarinin yaşadığı dövrdə bu məzhəbə mənsub olan avam xalq arasında üç xəlifəyə qarşı ifrata varan ifadələrdən istifadə edilirdi. Bu isə öz növbəsində iki məzhəb nümayəndələri arasında ictimai zəmində münasibətlərin korlanmasına səbəb olurdu. Həmzə Nigari "Çahar yarı istəriz " deməklə Raşidi xəlifələrdən olan Əbu Bəkr ibn Quhafə, Ömər ibn əl-Xəttab, Osman ibn əl-Əffan və Əli ibn Əbu Talibə hörmət edilməsini və müxtəlif məzhəblərin müqəddəsatına qarşı ehtiram göstərilməsini istəmişdir.

Seyid Nigarinin fikirləri "nigarilik" adı verilən nəqşibəndilik içərisində yeni bir qolun yaranmasına səbəb olmuş, vəfatından sonra bu təriqət Qarabağ bölgəsi başda olmaqla Azərbaycanın bir çox yerində yayılmışdır. Xüsusilə Qaraba-

ğın Cəbrayıl və Qubadlı bölgələri nigariliyin ən çox yayıldığı ərazilər olmuşdur. Cəbrayıldakı Çələbilər nəslinin təmsil etdiyi Hacı Qaraman və Qubadlıdakı Mir Sədi Ağa ocaqları nigariliyin Qarabağdakı iki fərqli qoludur. Bundan başqa, bu ənənə Nigarinin davamçısı Hacı Mahmud Əfəndi vasitəsilə Qazax və Borçalı mahallarında da yayılmışdır.

## Nigari məktəbi

Seyid Nigarinin tələbələri və davamçıları da məzhəblərarası ixtilaflardan uzaq durmuş, başqa təriqətlərin nümayəndələri ilə qarşılıqlı hörmətə əsaslanan əlaqələr qurmuşlar. Tələbələrdən biri Amasyaya gedərək Nigaridən xilafətnamə almış və geriyə qayıdaraq Qazax-Borçalı bölgəsində bu ənənəni təbliğ etmiş qazaxlı Hacı Mahmud Əfəndidir. Hazırda Qazaxın Aslanbəyli kəndindəki türbəsindəki qəbrinin yanında Seyid Yasin Əfəndi adlı şəxsin də məzarı vardır. Hacı Mahmud Əfəndi sünni, Seyid Yasin isə şiə idi. Seyid Nigariyə bağlı bu iki şəxs arasında möhkəm dostluq münasibətləri olmuşdur. Hacı Mahmud Əfəndi "Əgər Seyid Yasin məndən sonra vəfat edərsə, onu yanımda dəfn edin" demişdir.[1]

## Seyid Nigari məktəbinin ictimai həyatdakı təzahürü: Hacı Qaraman ocağı

Həmzə Nigarinin fikirlərinin Qarabağ bölgəsində ictimai həyata tətbiq edilməsində Cəbrayıl rayonunda yerləşən Hacı Qaraman ocağının və bu ocağın daşıyıcıları olan Çələbilər nəslinin xüsusi yeri vardır. Qarabağ bölgəsində sayılıb-seçilən seyid ocaqlarından olan Hacı Qaraman ocağı, xüsusilə Cəbrayıl

[1] İbrahim Yıldırım, "Ben" deki Seyyid Nigari", Karabağ`dan Amasyaya Gönül Köprüsü- I. Uluslararası Hamza Nigari Sempozyumu, s. 131; Məhəmməd Allahmanlı, Azərbaycanin Qərb Bölgəsinin Mənəvi Mədəniyyətindən (tarixi-etnoqrafik tədqiqat), s. 113.

və Qubadlı rayonlarında ictimai həyatda böyük təsirə malik müqəddəs məkandır. Bu ocağın ən aktiv daşıyıcıları Cəbrayıl rayonunun Sirik kəndinin sakinləridir. Siriklilər hazırda əsasən Yasamal və Biləsuvar rayonlarında məskunlaşmışlar. Bu ocaq haqqında topladığımız məlumatlar daha çox Yasamal və Biləsuvarda məskunlaşmış siriklilərlə söhbətimiz nəticəsində əldə olunmuşdur. Bunların içərisində ocaq haqqında ətraflı məlumata sahib olan Müstəqim Çələbi, Malik Zamanov, Məhəmmədli Camalov və Mübariz Camalovu xüsusilə qeyd etmək lazımdır. Bundan başqa bu ocağın daşıyıcıları tərəfindən yazılmış kitablar və onlar haqqında məlumat verən əsərlərdən də mənbə kimi istifadə etdik.

Sirik kəndinin sakinləri ilə söhbətimizdə Çələbi nəslinin kökünün İmam Zeynəlabidinədək gedib çıxdığını öyrəndik. Ocağın tanınmış nümayəndələrindən olan Əli Çələbinin oğulluğu Müstəqim Çələbi bu ocağın Azərbaycandakı tarixi haqqında müxtəlif əsərlərdə nəşr edilmiş müsahibələrində ətraflı məlumat vermişdir. Bu mənbələrin içərisində Abuzər Abuzərovun "Qaramanlı Əli Çələbi", Əlisahib Əroğulun "Yəhya Çələbi Haqq dünyamızın işığı" və Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun nəşr etdiyi "Qarabağ: folklor da bir tarixdir - VI kitab (Cəbrayıl, Kəlbəcər və Tərtər rayonlarından toplanmış folklor örnəkləri)" əsərlərini xüsusilə qeyd etmək lazımdır.

Çələbi nəslinin nümayəndələrinin verdikləri məlumatlara əsasən, ocağın Cəbrayıldakı tarixi Diyarbəkrdən Qarabağa gəlmiş Hacı Qaraman adı ilə tanınan Əziz Əfəndi oğlu Əhməd Əfəndi ilə bağlıdır. Əhməd Əfəndinin Cəbrayıla gəlişinin dəqiq tarixini söyləmək çətindir. Bəzi müəlliflər bunu Qaraman bəyliyinin Osmanlılar tərəfindən süquta yetirilməsi ilə əlaqələndirsələr də,[1] fikrimizcə, bunu təsdiqləyəcək tarixi məlumatlara malik deyilik. Belə ki, Hacı Qaraman ocağı-

[1] Abuzər Abuzərov, Qaramanlı Əli Çələbi, Bakı, 1998, s. 5.

nın həqiqətən də Qaraman bəyliyinin ərazisindən gəlməsinə dair tarixi faktlar yoxdur. Əgər həqiqətən də bu nəslin nümayəndələri Qaramandan gəlmişsə, onda bu gəliş Qaramandan Diyarbəkrə olmuşdur. Belə olan halda onların Diyarbəkrə köçü iddia olunduğu kimi, XV əsrə təsadüf edilə bilər. Lakin Diyarbəkrdən Cəbrayıla gəlməsi haqqında dəqiq tarix söyləmək çətindir. Hacı Qaramanın oğlu Məhəmməd Çələbi tərəfindən Çələbilər kəndində tikilmiş məscidin 1088 (miladi 1678)-ci ildə inşa edildiyini[1] nəzərə alsaq, onda bu ailənin bölgəyə gəlişinin 1650-ci illərə təsadüf etdiyini deyə bilərik. Onların Cəbrayıla gəlməsinin 1727-ci ildən sonrakı dövrə təsadüf etməsi də mümkündür. Belə ki, tarixi məlumatlara əsasən, Gəncə-Qarabağ zonası da daxil olmaqla Azərbaycanın bir çox bölgəsi 1723/24-cü illərdə Osmanlı ordusu tərəfindən ələ keçirilmişdir. Osmanlılar bölgə əhalisinin gəlirlərini müəyyənləşdirmək və nizamlı şəkildə vergi toplamaq üçün 1727-ci ildə "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ni tərtib etmişdilər.[2] Bu dəftərə diqqət yetirdikdə Çələbilər kəndinin adına rast gəlmirik. Çələbilərlə qonşu Sirik kəndində (dəftərdə Sirikli olaraq keçir) isə heç kimin yaşamadığı qeyd edilir. Böyük ehtimalla Osmanlılar bölgəni ələ keçirəndə bir çox yaşayış məntəqəsi kimi bu kəndin əhalisi də köç edərək başqa yerlərdə məskunlaşmışdır. Kəndin adının dəftərdə qeyd olunması bu fikri dəstəkləyir. Lakin maraqlı bir fakt ondan ibarətdir ki, adı Siriklidən əvvəl keçən Xoşvaxt kəndinin sakinlərindən Çələbi Baba oğlu və qardaşı Bayraməli adlı iki şəxsin adı qeyd olunub. Adı qeyd edilən Çələbinin Hacı Qaraman ocağı ilə bir bağlılığın olub-olmadığını dəqiqləşdirə bilmədik.[3]

---

[1] Məhəmməd Nərimanoğlu, "Bu yurdun maddi-mədəni sərvətləri ermənilər tərəfindən məhv edilib", Azərbaycan qəzeti, 22 Avgust 2014.

[2] Hüsaməddin Məmmədov (Qaramanlı), "Ön söz", Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, red. Vasif Quliyev, Bakı, 2000, s. 3-4.

[3] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, red. Vasif Quliyev, Bakı, 2000, s. 425.

Hacı Qaraman əvvəlcə Cəbrayıl qəzasının Hareylan, Mənsümlü, Piravardı, Quradərə tərəflərində məskunlaşmış, nəhayət Çələbilər kəndinin əsasını qoymuşdur. Rəvayətə görə, bir çox kəramət göstərən Hacı Qaraman bölgə əhalisinin böyük hörmətini qazanmışdır. Hacı Qaramandan bu nəslin bölgə camaatı içərisində ən çox nüfuza sahib olan nümayəndəsi Hacı Qasım Çələbiyə qədərki silsilə belədir:

Hacı Qaraman (Əhməd Əfəndi)
↓
Məhəmməd Çələbi
↓
Maqsud Çələbi
↓
Vəli Çələbi
↓
Hüseyn Çələbi
↓
Böyük Alı Çələbi
↓
Hacı Qasım Çələbi

Hacı Qasım Çələbinin Yasin Çələbi, Alı Çələbi, İdris Çələbi və Osman Çələbi adlı oğlanları, Hafizə Çələbi və Həcər Çələbi adlı qızları olmuşdur.[1]

Bu silsilədə Nigari məktəbi baxımından iki şeyxin xüsusi əhəmiyyəti vardır. Bunlar Böyük Alı Çələbi[2] və Hacı Qasım Çələbidir. Ocağın nümayəndələrinin, xüsusən də Müstəqim Zamanovun verdiyi məlumata görə, Böyük Alı Çələbi Seyid Həmzə Nigari ilə dost olmuş və onun görüşlərini mənim-

[1] Abuzər Abuzərov, Qaramanlı Əli Çələbi, s. 6.

[2] Böyük Alı Çələbiyə "böyük" ləqəbi daha sonra nəvəsi Alı Çələbidən fərqləndirmək üçün verilmişdir. Əlisahib Əroğul, Yəhya Çələbi Haqq dünyamızın işığı, Bakı, 2002, s. 69.

səmişdir. Onlar tez-tez görüşərək fikir mübadiləsi aparmışlar. Məhz Böyük Alı Çələbi vasitəsilə Nigari düşüncəsi bu ocaqda hakim olmuşdur. Hacı Qaraman ocağının mənsubları Seyid Nigarini "Şıx Əfəndi" adı ilə yad edirlər. Seyid Nigarinin Azərbaycanı tərk edərək Türkiyəyə gedərkən bölgədəki təriqət şeyxliyini Böyük Alı Çələbiyə həvalə etdiyi söylənilir.[1]

Qeyd etmək lazımdır ki, həm bir şeyx kimi təsiri baxımından, həm də Qarabağda müxtəlif İslam məzhəbləri arasında müsbət əlaqələrin yaradılması nöqteyi-nəzərindən Çələbi nəsli içərisində ən mühüm şəxsiyyət Hacı Qasım Çələbi olmuşdur. O, atasının yaxın dostu olan Həmzə Nigarinin düşüncələrindən faydalanaraq Əhli-beyt sevgisini bölgədəki iki məzhəb mənsublarını birləşdirən bir dəyər kimi önə çəkmiş və məzhəbçiliklə ciddi mübarizə aparmışdır. Sirik kənd sakini Zamanov Müstəqim Həsən oğlu bu həqiqətləri Qarabağ ləhcəsi ilə belə ifadə etmişdir:

"Bizim babalarımız deyif ki, orda-bırda soruşan olsa, sünnüsən, şiyə? Denən ki:

*Nə sünnüyəm, nə şiyə,*
*Əhli-müsəlmanam mən!*

Yəni, on iki imamı sevən. Deməh, elə bil ki, həm on iki imamımızı sevirih, həm peyğəmbərin əsabaların sevirih, yəni heş birinə qarışacağımız yoxdu. Ən düzgün yoldu də. O vax Çələbi baba məhərrəmlihdə qazan asdırır, imam ehsanı verməyə. O vaxd oranın qazisi olufdu. Çələbi babanın qaynı olufdu. Gəlif belə təpihnən qazana vuruf ki, ay Çələbi, indi biz dönüf şiyə olajıyıx? Bı nədi? Bı da deyif, ay bədbax nə şiyə, nə sünnü? Bəs biz on iki imamın nəsliyih də. Yəni, bütün seyitdər, bütün övliyalar, ojaxlar hamısı imamların nəslidi da. Ayrı nəsil yoxdu ha. Yəni, on iki imamın soyudu".[2]

---

[1] Əlisahib Əroğul, Yəhya Çələbi Haqq dünyamızın işığı, s. 69.

[2] Qarabağ: Folklor da bir tarixdir- VI kitab (Cəbrayıl, Kəlbəcər və Tərtər rayonlarından toplanmış folklor örnəkləri), s. 69.

Qeyd edək ki, Müstəqim Zamanov Hacı Qaraman ocağının məşhur simalarından olan Alı Çələbinin mənəvi irsinin varisidir. Hazırda Müstəqim Zamanov və Çələbi ocağına mənsub Sirik kəndinin sakinləri Yasamal və Biləsuvar rayonlarında kompakt halda məskunlaşıblar. Yasamalda yaşayan siriklilər, xüsusən Müstəqim Çələbinin oğlu Malik Zamanov və Mübariz Məhəmmədəli oğlu Camalovla, eləcə də Biləsuvarda məskunlaşan Camalov Məhəmmədəli Rəhim oğlu ilə söhbətimizdə də Müstəqim Zamanovun fikirlərinə bənzər görüşlər dilə gətirmişlər. Onlar da Hacı Qaraman ocağının Qarabağın həm sünni, həm də şiə bölgələrində yaşayan insanlar tərəfindən ziyarət olunduğunu və bu ocağın nümayəndələrinin hər iki məzhəbin mənsublarına qarşı eyni mövqeni nümayiş etdirdiyini bildirmişlər. Əslində Hacı Qaraman ocağının əsaslandığı əsas prinsipin *"Əhli-beytə və Raşidi xəlifələrə ehtiram"* olduğunu görürük. Bu ocağın nümayəndələrində Əhli-beyt məhəbbəti və Əhli-beytə qarşı çıxanlardan uzaq durma anlayışı çox yüksəkdir. Məhz bunun nəticəsində ənənəvi sünni anlayışdan fərqli olaraq onlarda Əhli-beyt nümayəndələrinə qarşı çıxdığı üçün Müaviyə ibn Əbu Süfyana mənfi münasibət mövcuddur.[1] Sirik kəndinin sakinləri ilə görüşümüzdə ocaq mənsublarında Müaviyəyə nifrətin güclü olduğunu müşahidə etdik. Həmsöhbətlərimizin bir qismi ocaq nümayəndələri arasında indi də mövcud olan "Müaviyəyə lənət oxuma" ənənəsinin əsasını Hacı Qasım Çələbinin qoyduğunu söyləsə də, Çələbi irsinin tədqiqatçısı Əlisahib Əroğul bu adətin Böyük Alı Çələbi ilə başladığını bildirir. Hətta bu səbəbdən bəzi din xadimləri Böyük Alı Çələbiyə qarşı çıxaraq ondan Şuşa şəhərində yerləşən divana şikayət etmişlər. Lakin buna baxmayaraq Böyük Alı Çələbini bu fikrindən daşındıra bilməmişlər.[2]

---

1 Bax: Xasay Şıxlar Mehdizadə, Daş beşiyin laylası, Bakı, 2005, s. 57.

2 Əlisahib Əroğul, Yəhya Çələbi Haqq dünyamızın işığı, s. 70-71.

Ocağın mənsubları bəzi radikal şiələrin Raşidi xəlifələri barəsində xoşagəlməz ifadələrdən istifadə etmələrinə qarşı çıxaraq məzhəblərin bir-birlərinin müqəddəsatına və şüarlarına hörmətlə yanaşmalı olduğunu bildirmişlər. Sirik kənd sakini Mübariz Camalovla söhbətdə ocaq mənsublarının bu fikirlərini belə ifadə etdiklərini söyləmişdir: "Nə Ömərə səbb edən (söyən) şiələrdən, nə də Əlini vəli bilməyən sünnilərdən deyilik. Biz əsl müsəlmanıq". Əslində bu fikir Seyid Nigari düşüncəsinin bir təzahürüdür. Yuxarıda da qeyd olunduğu kimi, Nigarinin şeirlərində Əhli-beytin tərənnümü və onlara müxalif olan Əməvilərə qarşı mənfi münasibət öz əksini tapmışdır. Məzhəb ayrı-seçkiliyinə qarşı nigarilikdəki sərt münasibət hazırda da bu ənənənin daşıyıcıları olan Çələbi ocağının nümayəndələri tərəfindən davam etdirilir. Fiqhdə hənəfi məzhəbində olmasına baxmayaraq onlar şiə-sünni qütbləşməsini qəbul etmirlər və ona qarşı çox mənfi münasibət bəsləyirlər. Xasay Şıxlar Mehdizadə bu münasibəti belə ifadə edir: "Bizim camaatların nümayəndələrindən bu gün də yeri düşəndə soruşurlar:

- Siz hansı məzhəbdənsiniz? Şiə, ya sünnü?

Belə sorğulara cavabımız birdir və dəyişilməzdir?:

- Biz əsl müsəlmanıq! Nə şiəyik, nə sünnü!"[1]

Ocaq mənsublarının verdikləri məlumata görə, Hacı Qasım Çələbi Zəngəzur mahalında tanınmış şiə nümayəndələrindən olan Qubadlının Həmzəli kənd sakini Hacı Həsən Hacı Mehdi oğlu ilə birlikdə həccə gedir. Çələbi Kəbənin qapısının yanından keçərkən Hacı Həsəndən soruşur: "Hacı Həsən Kəbənin neçə qapısı var?" Hacı Həsən: "Əlbəttə, bir", - deyə cavab verir. Bu cavabdan sonra Hacı Qasım Çələbi belə deyir: Onda biz nə üçün sünni-şiəyə bölünməliyik? İslamda təfriqə salmaq, tirələrə ayaq vermək, ziddiyyətlər aramaq-axtarmaq, məzhəb ayrı-seçkilikləri salmaq vallah, ağlımızın darlığındandır. Kəbə birlik evimiz, Quran ürfan tacımızdır. Bunlardan qeyri nə var?! Sünni-şiəlik mal-

[1] Xasay Şıxlar Mehdizadə, Daş beşiyin laylası, Bakı, 2005, s. 56.

pul düşkünlərinin, özünü bir-birindən üstün tutanların, taxt-tac hərislərinin, içi şeytan yuvasına çevrilmişlərin, nəfsinə, tamahına qul olanların quramasıdır. Kəbə qapısı kimi Qurani-Kərim də hər cür fikirayrılıqlarına son qoyan əsasdır. Allah kəlamından, Tanrı birliyindən qaçanlar hidayət yolunu azmışlardı. Zənnə uymuşlardı". Hacı Həsən bu sözlərin müqabilində "Ya Şıx Hacı Qasım Çələbi, sənə iman gətirməyənə lənət" deyir.[1] Bu əhvalat Hacı Qasım Çələbinin məzhəb ədavətini ortadan qaldırmaqdakı əzmini göstərir. O, "Əhli-beyt məhəbbəti" və "Əməvilərə qarşı mənfi münasibət bəsləmək" kimi prinsipləri önə çəkərək nəzəri planda fəaliyyət yürütməklə yanaşı, Qarabağda tanınmış şiə nümayəndələri ilə dostluq əlaqələri quraraq məzhəb problemini həll etmək üçün mühüm işlər görmüşdür. Sirik kənd sakini Müstəqim Zamanovun dedikləri bu işlərin xalq arasındakı təsiri baxımından önəmlidir:

"Bizim babamız – kökümüz Əhməd Çələbi olufdu. Ümmiyətnən, bizə Çələbilər deyillər. Əziz Əfəndi oğlu Əhmət Çələbi. Diyarbəkirdən gəlifdi. Yani, təriqət yaymağ üçün gəlifdi Azərbaycana. Bizimkilər elə bir ortax yol tutuflar ki, məsələn, Cəvrayılda sünni-şiyə söypəti yoxdu. Hamı bir-birinnən qız alıfdı, qız verifdi. Yəni, biz özümüz, elə bil ki, sünnü təriqətinnən ola-ola imama ehsan veririh, onun qırxın saxlıyırıx, toy eləmərih. On gün üzümüzü qırxmırıx. Yəni, bütün necə ki, şiyələr, elə bil ki, o on iki imama olan sevgi bizdə onnan da artıxdı. Heş bizim ixdiyarımız da çatmır ki, min üş yüz il bınnan qabağ olmuş hadisələrə hansısa bir rəy söylüyəh. Ora əl uzatmax, barmağ uzatmax, yanı bizə yaramaz".[2]

Mir Həmzə Nigari ənənəsinin tanınmış nümayəndələrindən olan Qasım Çələbinin təəssüf ki, günümüzədək gəlib çatmış heç bir əsəri yoxdur. Onun fikirləri ocaq təmsilçilərinin, eləcə

---

[1] Əlisahib Əroğul, Yəhya Çələbi Haqq dünyamızın işığı, s. 72.

[2] Qarabağ: Folklor da bir tarixdir - VI kitab (Cəbrayıl, Kəlbəcər və Tərtər rayonlarından toplanmış folklor örnəkləri), s. 74.

də Cəbrayıl və Qubadlıdan olan sadə camaatın, xüsusilə Sirik kənd sakinlərinin anlatdıqları şifahi məlumatlar vasitəsilə günümüzədək gəlib çatmışdır.

Hacı Qasım Çələbinin görüşləri onun tələbələri vasitəsilə yayılmışdır. Tələbələrin içərisində kürəkəni Bəhlul Behcət Əfəndinin xüsusi yeri vardır.

Bəhlul Behcət Əfəndi 1869-cu ildə Zəngəzur qəzasının (indiki Qubadlı rayonunun) Dondarlı kəndində dünyaya gəlmiş, 1938-ci ildə Sovet rejiminin repressiya qurbanı olaraq öldürülmüşdür. O, Hacı Qasım Çələbinin öndə gələn tələbələrindən olmuşdur. Bəhlul Behcət dövrünün böyük din alimi, həmçinin ərəb, fars dillərinin və klassik Şərq ədəbiyyatının mükəmməl bilicisi olmuş, Nizami Gəncəvi və Qafqaz folkloru mövzusunda monoqrafiya yazmış, Sarı Aşığın yaradıcılığını araşdıraraq əlyazma şəklində kitab tərtib etmişdir. Bəhlul Əfəndi, həmçinin Qaçaq Nəbi ilə bağlı bir səhnə əsəri də yazmışdır.[1] Dərin dini biliklərə malik olduğu üçün Bəhlul Behcət 1915-ci ildə Zəngəzur qazisi təyin edilmişdir.

Bəhlul Behcət mürşidi Hacı Qasım Çələbinin görüşlərini davam etdirərək yazdığı əsərlərdə bölgə əhalisi arasında şiə-sünni ayrı-seçkiliyinə qarşı mübarizə aparmışdır. "Ali-Məhəmməd tarixində təşrih və mühakimə" adlı Əhli-beyt imamlarının həyatına həsr etdiyi əsərdə bunu aydın görmək mümkündür.[2] Kitabın müqəddiməsində məzhəb təəssübkeşliyinin fəsadlarından bəhs edən Behcət bu fəsadların İslama vurduğu zərərlərə diqqət çəkmişdir. Kitabın ən xarakterik xüsusiyyəti onun şiə-sünni dünya görüşünün sintezindən ibarət olmasıdır. Əsər Azərbaycan türkcəsində qələmə alınmış, daha sonra farscaya tərcümə edilmiş,[3] o dövrün Azərbaycan

---

[1] Səbahəddin Eloğlu, Zəngəzur Hadisələri, Bakı, 1992, s. 23.

[2] Bax: Bəhlul Behcət, Ali-Məhəmməd tarixində təşrih və mühakimə, Tehran, 1371.

[3] Bax: Qazi Bəhlul Behcət Əfəndi, Təşrih və mohakeme dər tarix-e Ali-Mohəmməd, trc. Mehdi Ədib, Məşhəd, 1362.

və İranın elmi-dini mühitində geniş rəğbət qazanmışdır. Dövrün böyük şiə alimlərindən olan Ayətullahil-üzma Şihabuddin Mərəşi kitaba müqəddimə yazaraq Bəhlul Behcətin əqli və nəqli elmlərdə dərin biliyə sahib olduğunu bildirmişdir.

Bəhlul Behcət nəzəri görüşlərini praktikada tətbiq etməyə çalışmış, ətrafındakı müridlərinə dini kimliyi məzhəb kimliyinin fövqündə tutmağı tövsiyə etmişdir. Hətta o, hər iki məzhəbin nümayəndələrindən ibarət silahlı dəstələr də yaratmış və özü bu dəstələrə başçılıq edərək daşnaklara qarşı mübarizə aparmışdır. Bu hadisə Zəngəzurda "Bəhlul cihadı" kimi məşhur olmuşdur.[1] Onun daşnaklara və onları dəstəkləyən bolşeviklərə qarşı mübarizəsi "Xanlıq üsyanı" kimi də tanınır. İndiki Qubadlı rayonun Xanlıq kəndində başlayan bu üsyanın məqsədini Bəhlul Behcət belə açıqlamışdır: "Tarixi beşiyimiz olan Zəngəzur, Qarabağ və onlara bitişik mahallar 12 yüz ildir ki, Azərbaycanın əsas tərkib hissəsidir. Ancaq bu gün özünün bu torpaqda yaşamaq hüququ olmayan, ancaq bu məsələni silah gücünə həll etməyə cəhd göstərən Andranik və onun daşnak qoşunları bu torpaqları bizim əlimizdən almaq fikrindədirlər. Onlar bu yolda bütün vasitələrdən istifadə edirlər... Cihad bayrağı qaldırmaqda məqsədimiz doğma torpaqlarımızı düşmənlərdən azad etməkdir. Vətən, din, torpaq, İslam yolunda cihad etmək hər müsəlman üçün böyük şərəfdir".[2]

Nigari ənənəsinə mənsub seyid ocaqlarının daşıyıcıları Qarabağda təkcə dini lider olmamış, eyni zamanda bölgənin ermənilərdən qorunmasında mühüm rol oynamış, eləcə də tayfalararası qan davaları və sosial zəmindəki digər münaqişələri həll edərək ağsaqqal funksiyasını yerinə yetirmişlər. Onlar ictimai münaqişələrin və problemlərin həllində barışdırıcı mövqe tutaraq mümkün olduğu qədər heç kimin zərər görməməsini

[1] Səbahəddin Eloğlu, Zəngəzur Hadisələri, s. 23-24.
[2] M. Mükərrəmoğlu, "Bəhlul Əfəndi Behcət: Xanlıq üsyanı" Yeni kitablar", Xalq qəzeti, 24.01.2014.

əsas almışlar. Müsətqim Zamanovun yerli ləhcə ilə anlatdığı aşağıdakı hadisə bu ənənənin daşıyıcılarının cəmiyyət içində, hətta ölümlə nəticələnə biləcək anlaşmazlıqların həll yollarını necə bəsirətlə tapdıqlarına dəlildir: "Qubatdı rayonunda Ballı qaya kəndi deyillər, mənim babam Alı Çələbi bir gün ordan keçəndə görür kü, kəntdə çox pis çaxnaşma var. Hə, kətdə nəysə hamı vırılıf bir-birinə, ofşim, əlində silah, camahat nəysə dava halındadı. Bının da yanında mürütdəri varımış. Soruşuf ku, nədi bı, noolufdu? Deyiflər ki, bəs bir gəlinin tumanı itifdi. Bı da yəni namus məsələsidi da. Bı kənt iki yerə bölünüfdü, yəni bı sahat qırğın ola bilər. O vaxdacan Alı Çələbini tanımırmışdar da Qubatdının Ballı qaya kəndində. Bu yaxınnaşır, ay camahat, nolufdu, bir sakit olun. Deyillər ki, bəs belə, fılankəsin gəlininin tumanı itif. Elə bil ki, qonşudan şüpələnillər və yaxut da başqasınnan. Bir inəh varımış, elə orda yatıp. Orda, deməh, bağlamışımışdar. Deyir, bı inəh kimindi? Deyillər ki, mənimdi. Deyir, qiyməti nə qədər olar bunun? Deyir, a kişi, sən nə deyirsən? Bırda camahat qırır bir-birin. Nə qiymət, nə inəh? Elə bilillər inəh alandı. Deyir ki, inəyin qiymətin deyin. İnəyin qiymətin deyillər. Çıxardır pulun ödüyür inəyin, deyir ki, inəyi kəsin. İnəyi, nəysə kəsillər, deməh qarnınnan gəlinin tumanı çıxır çeynəmmiş vəzyətdə. Onnan sonra o boyda kət – o Ballı qaya camahatı deməh, Alı Çələbini nazəmbillah, Allah qədər, o dərəcədə çox isdiyillər də. Onnan sonra o kəndin hamısı kirvə oldu. Yanı indi də gəl-getdəri var". [1]

---

[1] s. 70-71.

## Nəticə

Mir Həmzə Nigari irsinə dair yazılmış əsərlərin tədqiqi və bu irsin canlı daşıyıcıları olan Çələbi ocağının mənsubları ilə, xüsusilə Cəbrayıl rayonu Sirik kəndinin sakinlərilə söhbətlərimizin nəticəsində Seyid Nigari ənənəsinin Qarabağda müxtəlif məzhəblərin mənsubları arasında sosial zəmində qarşılıqlı ehtirama əsaslanan birgəyaşayış ənənəsinin formalaşmasında xüsusi rola malik olduğu qənaətinə gəldik. İlk toxumları Şeyx İsmayıl Şirvani ilə atılan məzhəblərarası müsbət münasibət ideyası, öz zirvəsinə Seyid Nigari ilə çatmışdır. Nigarinin nəzəri fikirləri isə Qarabağda fəaliyyət göstərən müxtəlif seyid ocaqları, xüsusilə Hacı Qaraman ocağı ilə praktiki zəminə daşınmış və beləcə bölgədə tolerant mühitin formalaşmasında mühüm rol oynamışdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Abuzərov, Abuzər, Qaramanlı Əli Çələbi, Bakı, 1998.
2. Algar, Hamid, "Halid el-Bağdadi",Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, C. 15.
3. Allahmanlı, Məhəmməd, Azərbaycanın Qərb Bölgəsinin Mənəvi Mədəniyyətindən (tarixi-etnoqrafik tədqiqat) , Bakı, 2011.
4. Behcət, Bəhlul, Ali-Məhəmməd tarixində təşrih və mühakimə, Tehran, 1371.
5. Behcət, Bəhlul, Təşrih və mohakeme dər tarix-e Ali-Mohəmməd, trc. Mehdi Ədib, Məşhəd, 1362.
6. Bilgin, A. Azmi, "Nigari", Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c. 33
7. Eloğlu, Səbahəddin, Zəngəzur Hadisələri, Bakı, 1992.
8. Əbu Davud, Süleyman ibn Əşəs, Sünən, "Sünnə" 13, thq. Muhamməd Əvvamə, Ciddə, 1419/1998.
9. Əroğul, Əlisahib, Yəhya Çələbi Haqq dünyamızın işığı, Bakı, 2002.
10. Əzimbəyli, Seyid Camal, "Azərbaycanda Seyid Ocaqları", Azərbaycan və Əhli-beyt irsi, Bakı, 2013.
11. Göktaş, Vahit, "Mevlânâ Halid-i Bağdâdî'nin "Risaletü fî Tahkîki'r-Rabıta" Adlı Eseri ve Rabıta ile İlgili Görüşleri", Tasavvuf Yazıları, 2014.
12. İbn Mənzur, Əbül-Fəzl Muhamməd ibn Mükərrəm, Lisanul-ərəb, "svd" maddəsi, Beyrut, tarixsiz.
13. Küçükaşçı, Mustafa Sabri, "Seyyid", Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c. 37.
14. Küçükdağ, Yusuf - Dedeyev, Bilal, "Safevîlerin Nesebine Farklı Bir Bakış", Uluslararası Sosyal Araştırmalar Dergisi = The Journal of International Social Research, 2009, cilt II, sayı 6.

15. Məmmədov (Qaramanlı), Hüsaməddin, "Ön söz", Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, red. Vasif Quliyev, Bakı, 2000.
16. Mehdizadə, Xasay Şıxlar, Daş beşiyin laylası, Bakı, 2005.
17. Mükərrəmoğlu, M. , "Bəhlul Əfəndi Behcət: Xanlıq üsyanı" Yeni kitablar", Xalq qəzeti, 24.01.2014.
18. Nemət, Məşədixanım, Azərbaycanda pirlər, Bakı, 1992.
19. Nərimanoğlu, Məhəmməd, "Bu yurdun maddi-mədəni sərvətləri ermənilər tərəfindən məhv edilib", Azərbaycan qəzeti, 22 Avgust 2014.
20. Nigari, Həmzə, Divan-ı Seyyid Nigari, haz. A. Azmi Bilgin, İstanbul, 2003.
21. Rıhtım, Mehmet, "Seyid Yəhya Bakuvi və Şifa əl-Əsrar adlı əsəri", Seyid Yəhya Şirvani, Şifa əl-Əsrar, nəşrə haz. M. Rıhtım, Bakı, 2013.
22. Sarıcık, Murad, Osmanlı İmparatorluğu'nda nakibü›l-eşraflık müessesesi, Ankara, 2003.
23. Şeyx Müfid, Əbu Abdullah Muhamməd ibn Muhamməd ibnun-Numan əl-Bağdadi, əl-İrşad, Beyrut, 1416/1995, c. 2.
24. Təkəli, Minəxanım Əliyeva, Fəridə, "Nigari Aşiqi Şahnigar Xanım Təkəli", Karabağ`dan Amasyaya Gönül Köprüsü- I. Uluslararası Hamza Nigari Sempozyumu, Amasya, 2012.
25. Tirmizi, Əbu İsa Muhamməd ibn İsa, Sünən, "Mənaqib" 30, thq. Bəşşar Əvvaz Məruf, Beyrut, 1998.
26. Weismann, Itzchak, The Naqshbandiyya: Ortodoxy and activism in a worldwide Sufi tradition, London, 2007.
27. Yıldırım, İbrahim, "Ben" deki Seyyid Nigari", Karabağ`dan Amasyaya Gönül Köprüsü- I. Uluslararası Hamza Nigari Sempozyumu, Amasya, 2012.

# DİNİ DÖZÜMLÜLÜK, YOXSA FƏRQLİLİKLƏRİN VƏHDƏTİ: AZƏRBAYCANIN TOLERANTLIQ MODELİNİN ƏSAS GÖSTƏRİCİLƏRİ

**Elnurə ƏZİZOVA**[1]

Qloballaşan dünyada çoxmədəniyyətli və demokratik cəmiyyətlərin əsas dəyərlərindən biri kimi dini dözümlülük son illərdə əhəmiyyəti gedikcə artan mövzulardandır. Şübhə yoxdur ki, müxtəlif "kiçik dünyalardan", – fərqli inanc və düşüncə qruplarından – ibarət böyük cəmiyyətlərin varlığı və davamiyyəti yalnız fərqliliklər arasında qarşılıqlı hörmətin təmini ilə mümkündür. İnsanlararası münasibətlərin tənzimlənməsində bir dəyər olaraq dini dözümlülüyün diqqətə alınmaması halında isə cəmiyyətlərin və dövlətlərin daxili münaqişə, müharibə, soyqırım və s. neqativ hallara məruz qalması qaçınılmazdır.

Mövzunun çoxşaxəli olması səbəbi ilə ənənəvi olaraq onu dini, fəlsəfi və əxlaqi zəmində tədqiq edən dinşünas və filosoflar ordusuna demokratiya və plüralist cəmiyyət arasındakı münasibətlər, dövlət və konstitusiya modelləri, milli və qlobal təhlükəsizlik, beynəlxalq münasibətlər və diplomatiya nöqteyinəzərindən tədqiq edən hüquqşünas və politoloqlar da qoşulmuşdur.[2]

Təsadüfi deyil ki, dünyanın qabaqcıl təhsil və tədqiqat mərkəzlərində din, münaqişə və sülhyaratmanın qarşılıqlı əlaqələrini tədqiq edən araşdırma mərkəzlərinin sayı hər keçən

---

[1] İlahiyyat üzrə fəlsəfə doktoru, Xəzər Universitetinin müəllimi.

[2] Tolerantlığın imkanı, əhəmiyyəti və tələblərinin təhlilinə dair son dövrlərdə aparılmış mühüm tədqiqatlardan biri kimi "Mühakimə olunan tolerantlıq" adlı əsərdə tolerantlığın siyasi və sosial stabillik üçün əhəmiyyəti, buna bağlı olaraq siyasət elmləri, fəlsəfə, sosiologiya, teologiya və s. arasında multidistiplinar bir sahə kimi tədqiqinin vacibliyi müzakirə olunarkən tolerantlığın məhdudiyyətləri, institusional tolerantlıq məsələləri təhlil olunur. (bxn. Ingrid Greppell, Toleration on Trial, UK 2008), Glen Neweyin "Fəzilət, səbəb və tolerantlıq: Tolerantlığın əxlaq və siyasət fəlsəfəsindəki yeri" adlı əsərində müasir demokratik və multikultural cəmiyyətin mühüm müzakirə mövzularından biri kimi tolerantlığın əxlaq və siyasət fəlsəfəsi zəminində əsaslandırılması məsələsi gündəmə gətirilir və tolerantlığın detallı təhlili aparılır. (Glen Newey, Virtue, Reason and Toleration: The Place of Toleration in Ethical and Political Philosophy, 1999).

gün artmaqda, din/inanc əsaslı dözümsüzlük beynəlxalq səviyyədə siyasət sahəsinə hər gün daha çox daxil olmaqdadır.

*"Dini dözümlülük"* və yaxud daha qlobal adı ilə *"dini tolerantlıq"* lüğətdə fərqli və zidd inanc və düşüncələrə sahib insanlara qarşı sərt və qatı fikirli olmamaq, hörmət, səbir, asanlıq, mülayimlik, dözümlülük və anlayış göstərmək, bağışlamaq, narahat olmamaq, məhdudiyyət qoymamaq və izn vermək kimi müsbət mənalarla yanaşı, əhəmiyyət verməmək, görməməzliyə vurmaq, etinasız qalmaq və s. mənfi çalarları da ehtiva edir.[1] Bu da dini tolerantlığın çoxmədəniyyətli cəmiyyətlərin dəyərlər sisteminin təsisindəki roluna və əhəmiyyətinə dair bir-birindən fərqli və müəyyən mənada zidd mülahizələrin yaranmasına əsas verir.

Bu mülahizələrin təməlindəki sual dini tolerantlığın hüquqi kimliyə malik təşkilatların müqavilə və tədbirlərinin məhsulu, yoxsa ayrı-ayrı fərdlərin əxlaqi davranışlarının nəticəsi olduğu məsələsinin müəyyənləşdirilməsi istiqamətində qoyulur. Dini tolerantlığın iki əsas sahəsinin, inanc və ibadətlərin gərəyinin yerinə yetirilməsini təmin edən hüquq və bərabərliklər zəmini;[2] fərqli düşünən, inanan və yaşayan başqalarının varlığını anlayışla qarşılayan fərdi yanaşma və ictimai rəyi meydana gətirən əxlaq zəmini[3] olmaqla iki cəhəti diqqətə alınaraq bu məqalədə Azərbaycan tolerantlıq modelində hər iki sahənin üzərinə qurulub inkişaf etdirildiyi əsaslar araşdırılacaqdır.

---

1 The Oxford English Dictionary (ed. John Simpson, Edmund Weiner), Clarendon Press, 1989; Oxford Dictionary of Current English, USA, 2009.

2 Dini tolerantlığın liberal demokratiya çərçivəsində dəyərləndirilməsi üçün bxn. Thomas Badwin, "Toleration and the right to freedom", Aspects of Toleration (ed. John Horton, Susan Mendus), London, 1985, pp. 36-52; A.E. Galeotti, "Citizenship and Equality: The Place for Toleration", Political Theory 21, 1993, pp. 585-605; J. Raz, "Autonomy, Toleration and the Harm Principle", Justifying Toleration, Conceptual and Historical Perspectives, Cambridge, 1988, pp. 155-175.

3 Tolerantlığın əxlaqi zəmində dəyərləndirilməsi üçün bxn. Albert Weale, "Toleration, Individual Differences, and Respect for Person", Aspects of Toleration, pp. 16-35; Peter Jones, "Toleration, harm and moral effect", Aspects of Toleration, pp. 136-157.

## Azərbaycanın tolerantlıq modelinin əhəmiyyəti

Dünyada sülhün təmin olunması perspektivindən dini tolerantlığın gələcəyinə dair proqnozlar verilə bilməsi onun beynəlxalq aləmdəki təşəkkül prosesini müxtəlif cəhətlərdən tədqiq və təhlil etmək və bu istiqamətdə doğru metodologiya təyin etməklə mümkündür. Şübhə yoxdur ki, dinlərarası sülh, dini tolerantlıq ənənələri ilə zəngin olan bölgə və ölkələrin tarixi təcrübəsi din-inanc fərqliliklərinə dayanan təzyiq, qarşıdurma və münaqişələrin həlli üçün böyük əhəmiyyət daşıyır.

Xüsusilə son bir əsrdə tolerantlığı hikmət və əxlaqi dəyər kimi dünyanın itkisi adlandırmaq heç də mübaliğə olmaz. Bir çox nüfuzlu beynəlxalq təşkilatın dini, irqi, etnik fərqliliklərə qarşı anlayış və hörmətin universal dəyər olaraq təşviq edilməsi istiqamətində apardığı fəaliyyətlər bu boşluğun açıq göstəricisidir.

Çoxsaylı millət, din və konfessiyaların sülh şəraitində birlikdə yaşamasına dair uzun tarixi təcrübəsinə əlavə olaraq hazırki siyasi-ictimai istiqaməti ilə özünəməxsus dini tolerantlıq modelini formalaşdırmış Azərbaycanın bu tarixi mirasının araşdırılmasının dünyada din, etnik kimlik və irqi münaqişələrin həllinə öz töhfəsini verəcəyi labüddür.

## Beynəlxalq aləmdə Azərbaycanın tolerantlıq modeli

Azərbaycanın daxili və xarici siyasətində sülhün təmini və bərpası istiqamətində atılan mühüm addımlar, bununla bağlı olaraq millətlərarası və dinlərarası dialoqun inkişafına verilən böyük önəm sayəsində son dövrlərdə beynəlxalq aləmdə ölkəmizin dini tolerantlıq modelinin tədqiqinə, nümunə götürülməsinə və yayılmasına dair artan təkliflər müşahidə olunur.

2006-cı ildə ölkədə səfərdə olmuş BMT-nin İnsan Hüquqları Komissiyasının Din və əqidə azadlığı üzrə xüsusi məruzəçisi Asma Cahangir Azərbaycan cəmiyyətindəki dini tolerantlıq səviyyəsini müsbət qiymətləndirmişdir.[1] 21 iyul 2011-ci ildə ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının nümayəndə heyətindəki Avropa Xalq Partiyasının sədri Luka Volonte Azərbaycanda müxtəlif dinlərə qarşı yüksək səviyyəli münasibətin Avropaya da model ola biləcəyini bu sözlərlə ifadə etmişdir: "Dinlərarası münasibətə görə Azərbaycan bizim öyrənməyimiz üçün çox yaxşı nümunə ola bilər. Azərbaycanda bu mühit instisional təsisat deyil. Bu, siyasi qərar olaraq da verilməyib. Bu, Azərbaycan xalqının daxili təzahürüdür".[2] 13 noyabr 2013-cü ildə Avropa Parlamentində "Sərhəd tanımayan insan hüquqları" (HRWF) dərnəyinin təşkilatçılığı ilə "Azərbaycanda xristianlar, yəhudilər və digər dini azlıqlar: İslam dini azlıq olan qeyri-müsəlmanların hüquqları ilə təzad təşkil edirmi?" adlı iclasda dərnəyin sədri Willy Fautre Azərbaycanda dini camaatlar, eləcə də dini qurumlarla dövlət orqanları arasındakı münasibətlərə dair aparılan tədqiqatların nəticəsində 95%-ə yaxın əhalisi müsəlman olan Azərbaycanın dünyəvi ölkə olduğunu, bütün dinlərin bərabər hüquqlara sahib olduğunu, dini liderlər arasında hər hansı bir rəqabət, həmçinin, antisemitizm olmadığını vurğulayaraq Azərbaycanın İslam dünya üçün bir model olduğunu bildirmişdi.[3] Hesabatın ardından Avropa Parlamentinin macarıstanlı vitse-prezidenti Laszlo Surjan Azərbaycan modelinin "Ərəb baharı"nı yaşayan ölkələri, həmçinin islamafobiya ilə mübarizədə Qərb dövlətləri üçün faydalı nümunə olacağını qeyd etmişdir.[4]

---

1 http://www.mfa.gov.az/?options=content&id=115

2 http://az.trend.az/azerbaijan/society/1908424.html

3 Sözügedən hesabatla bağlı ətraflı məlumat üçün bxn. http://www.academia.edu/5201189/Non-Muslim_Minorities_in_Azerbaijan_a_Secular_State

4 http://fidesz-eu.hu/news_display/azerbaijan_a_model_of_peaceful_co_existence_of_islam_and_minority_religions/

Azərbaycanda dini tolerantlığa dair statistik göstəricilərə nəzər saldıqda, həm əhalinin böyük əksəriyyətini meydana gətirən müsəlman məzhəbləri, həm də müsəlmanlarla digər din mənsubları arasındakı əlaqələrin qarşılıqlı hörmət üzərində qurulduğu bariz şəkildə nəzərə çarpır. Beynəlxalq araşdırma qurumu "Pew Research Center" tərəfindən 2012-ci ildə aparılan "Dünya müsəlmanları: birlik və fərqlilik" adlı sorğu nəticələrinə əsasən, Azərbaycan məzhəblərarası tolerantlığa görə müsəlman ölkələr arasında birinci yerdədir. Sorğunun nəticələrinə görə, Azərbaycan cəmiyyətində şiələri müsəlman hesab edənlərlə etməyənlərin nisbəti 97/2%, sünniləri müsəlman hesab edənlərlə etməyənlərin nisbəti isə 91/7%-dir ki, bu nəticə sorğuda iştirak etmiş digər 22 müsəlman ölkə ilə müqayisədə məzhəblərarası münasibəti göstərən ən yüksək müsbət göstəricidir.[1]

Azərbaycanda müsəlman əhalinin digər din mənsublarına qarşı münasibətininin göstəriciləri də ölkənin dini tolerantlıq modeli kimi qəbul edilməsinə əsas verəcək səviyyədədir. Belə ki, Dini Araşdırmalar Mərkəzinin 2014-cü ildə apardığı "Azərbaycanda İslam" adlı sorğu nəticələrinə əsasən, ölkə əhalisinin ənənəvi olaraq Azərbaycanda yaşayan yəhudi və xristianlara qarşı münasibəti müsbətdir. Bu statistikaya görə, respondentlərin ümumilikdə 89.9%-inin xristianlara, 88.5%-nin isə yəhudilərə qarşı müsbət fikirdədir.

## Dövlət-din münasibətlərinin tənzimlənməsi

Hüquq və bərabərliyin təmini çərçivəsində dini tolerantlıq heç bir etnik, dini, etiqadi, mədəni və sosial fərq qoyulmadan bütün insanların anadangəlmə sahib olduqları xüsusiyyətləri qəbul etmək, onlara bu sahələrin inkişafında mane olmamaq, müdaxilə etməmək və inkişaflarına bərabər səviyyədə imkan vermək hü-

[1] World's Muslims: The Unity and Diversity, s. 132.

ququnu ehtiva edir. İnsanın əsas hüquqları çərçivəsində sayılan mühüm sahələrdən biri kimi inanc/din azadlığının təmin olunması üçün ölkəmizin mükəmməl qanunvericilik bazası vardı. Azərbaycan Respublikasının Konstitusiyasının "Bərabərlik hüququna" həsr olunmuş 25-ci maddəsində irqindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və ictimai görüşlərindən asılı olmayaraq bütün vətəndaşların hüquq və azadlığının dövlət tərəfindən təminat altına alındığı bildirilir. İnsan və vətəndaş hüquq və azadlıqlarının irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidəvi, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırılması qadağan olunur. Konstitusiyanın "Vicdan azadlığına" həsr olunmuş 48-ci maddəsində isə hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, tək və ya toplu şəkildə bir dinə etiqad etmək və yaxud etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ, ictimai qaydanı pozmayan və ictimai əxlaqa zidd olmayan dini mərasimlərini yerinə yetirmək hüququnun təmin olunduğu bildirilir. Konstitusiyanın hər iki bəndi Azərbaycan vətəndaşlarının dinindən və etiqadından asılı olmayaraq inanc, dini düşüncə və ibadətlərinin bərabər şəkildə təmin olunmasına zəmanət verir.

Konstitusiyadan başqa 1992-ci ildə 31 maddəlik "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilərək din azadlığının bərabər təmini istiqamətində növbəti mühüm addım atılmışdır. Prezidentin fərmanı ilə 2001-ci ildə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və 2014-cü ildə Bakı Multikulturalizm Mərkəzinin yaradılması, 2013-cü ildə Milli Tolerantlıq Mərkəzinin təsis olunması, həmçinin fəaliyyət sahələri arasında tolerantlığın da böyük yer tutduğu mədəniyyətin təbliği və qorunması missiyası ilə Heydər Əliyev Fondunun fəaliyyətləri respublikada və xaricdə din azadlığının təmini, dini tolerantlıq və dözümlülük dəyərlərinin inkişafı istiqamətindəki dövlət dəstəyinin mühüm tərkib hissəsidir.

Azərbaycan Respublikası qanunvericiliyində dininin dövlətdən ayrı olduğu, dövlətin dünyəvi xarakter daşıdığı Konstitusiya başda olmaqla (7, 18-ci maddələr) digər hüquqi sənədlərdə də öz əksini tapmışdır. Bu cəhətdən Azərbaycanın dövlət-din münasibətlərini, bu sahəyə dair mühüm detallı təsniflərdən biri qəbul edilən, kanadalı konstitusiya hüquqçusu Ran Hirschlin dövlət-din münasibətlərinin 8 modelinə dair təsnifatında dövlətin dinə neytral yanaşması (3) və yaxud çoxmədəniyyətlilik daxilində dinin dövlətdən ayrı olması (6) kateqoriyalarına qismən daxil etmək mümkündür.[1]

Lakin yuxarıda da qeyd olunduğu kimi, dinin dövlətdən ayrı olmasına baxmayaraq dini tolerantlığın siyasi və sosial müstəvidə inkişaf etdirilməsinə xidmət edən proqramların dövlət tərəfindən dəstəklənməsi istisna olunmur. Digər dini icmalarla yanaşı, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının da dövlət qayğısı əhatəsində olduğunu bildirən icmanın sədri Milix Yevdayev göstərilən dövlət dəstəyinə görə, Azərbaycanın tolerantlıq reallığının səviyyəsini əks etdirməsini bu sözlərlə ifadə edir: “2013-cü ildə Xarici İşlər Nazirliyinin nümayəndə heyətinin tərkibində İsraildə səfərdə olarkən Knessetdə Azərbaycanda icmamıza göstərilən dövlət qayğısı haqqında ətraflı məruzə etdim. Rəsmi hissədən sonra Knessetin spikeri mənə yaxınlaşaraq yarızarafat, yarıciddi şəkildə, bir yəhudi icmasının Azərbaycanda gördüyü dövlət qayğısı haqqında İsraildəki dindaşlarıma məlumat verməməyimi, əks halda yerli icmalarda dövlət dəstəyi ilə əlaqəli yarana biləcək gözləntiləri qarşılamağa səlahiyyətlərinin yetməyəcəyini bildirdi”.[2]

---

1 Dövlət-din münasibətlərinə dair adı keçən təsnif üçün bxn. Ran Hirschl, “Comparative constitutional law and religion”, Comparative Constitutional Law (ed. Tom Ginsburg), Massachusetts, 2011, pp. 422-440.

2 01 noyabr 2014-cü il tarixində Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayevlə Azərbaycanda dini tolerantlıq mövzusunda apardığımız müsahibədən həmsöhbətimizin icazəsi ilə istifadə olunmuşdur.

Prezident İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli "Azərbaycanda dini icmalara maliyyə yardımı göstərilməsi haqqında" Sərəncamına əsasən, Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini təyin edən Konstitusiyanın 109-cu maddəsinin 32-ci bəndinə istinadən Prezidentin Ehtiyat Fondundan 2,5 milyon manat ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini gücləndirmək üçün dini icmalara ayrılması[1] mövcud dini tolerantlığın davamlılığının təmini istiqamətində dövlət tərəfindən atılmış növbəti addımdır.

## Azərbaycanın dini tolerantlıq modelində İslam faktorunun rolu

### a. Bağışlayıcı Allahın əxlaqı ilə əxlaqlanmaq

Uzun əsrlər boyu Azərbaycan xalqının adət-ənənəsinin, ictimai şüurunun formalaşmasında böyük rol oynamış başlıca amillərdən biri kimi İslam insanlara Yaradandan ötrü yaradılmışlara qarşı şəfqət və qayğı göstərmək, mərhəmət, günahları bağışlamaq, eyibləri və qüsurları örtmək kimi yüksək əxlaqi dəyərləri aşılamışdır. Bu düşüncə sisteminin insanlararası münasibətləri tənzimləyən əsas dəyərləri Quran mərkəzli olub "Rəhim" (şəfqət və mərhəmət göstərən), "Qafur" (bağışlayan), "Əfuv" (əfv edən), "Səttar" (eyibləri örtən), "Vədud" (çox sevən), "Həlim" (cəzalandırmaqda tələsməyən, qüdrəti çatsa da cəzalandırmayan) və s. kimi Allahın adları ətrafında şəkillənmiş, inanaraq və sevərək tapındıqları Tanrının timsalında bu vəsfləri mənimsəmiş müsəlmanlar bir mənada "Allahın əxlaqı" ilə əxlaqlanmışdırlar.

---

[1] http://www.president.az/articles/13554

**b. Qüsurları görməmək, gözəllik axtarmaq**

Şübhə yoxdur ki, cəmiyyətdə dini müxtəlifliklər başda olmaqla fərqliliklərə qarşı nifrət, kin və düşmənçiliyin yerinə şəfqət və sevgi hisslərinin hakim olması, insanların fərdi və ictimai həyatlarını tənzimləyən əxlaq sisteminin sevgi və hörmət dəyərləri üzərində qurulmasını şərtləndirir. Bu konteksdə **"Xoş bir söz və bağışlamaq əziyyətlə (minnətlə) verilən sədəqədən daha yaxşıdır. Allah ehtiyacsızdır, həlimdir!"**[1], **"Əgər yaxşı bir əməli aşkara çıxarsanız, yaxud onu gizlətsəniz və ya bir pisliyi əfv etsəniz (Allah onları bilər). Həqiqətən, Allah bağışlayandır, qüdrət sahibidir!"**[2], **"Bağışlayın! Allahın sizi bağışlamasını arzu etməzsiniz? Allah çox bağışlayan və mərhəmətlidir"**,[3] **"Onlar qəzəbli olanda da bağışlayarlar"**[4], **"Yaxşılıqla pislik eyni ola bilməz! Sən pisliyi yaxşılıqla dəf et! Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən!"**[5] və bunun kimi çox sayda ayədə qüsurları bağışlamağın, nöqsanları üzə çıxarmamağın, ifşa etməməyin fəziləti vurğulanmaqdadır ki, bu da cəmiyyətdə sadəcə fərqli olana kin və nifrət deyil, dözümlülük aşılamaqla da mühüm bir əxlaqi keyfiyyət formalaşdırır.

Orta əsrlər Azərbaycan xalqının təfəkkürünün formalaşmasında böyük rolu olmuş dahi şair Nizami Gəncəvinin görünüşü və qoxusu ətrafdakı insanlarda ikrah hissi oyadan ölmüş heyvan cəsədində belə müsbət bir şey görməyi bacaran İsa peyğəmbər timsalında yaratdığı müdrik insan surəti, yaxşı və gözəl zərrə qədər olsa belə, onun ön plana çıxarılmasının, eyiblərin, qüsurların örtülməsinin təbliğçisi idi:

[1] Əl-Bəqərə, 2/263.
[2] Ən-Nisa, 4/149.
[3] Ən-Nur, 24/22.
[4] Əş-Şura, 42/27.
[5] Fussilət, 41/34.

*...Növbə çatdı İsaya, eyibdən vazkeçdi o,*
*İtin üstünlüyünü fikirləşdi, seçdi o.*
*"Naxışları, xalları, - dedi, - aləmdi, məncə,*
*Parlaq, saf dişlərinə nə dürr çatar, nə inci…"*[1]

### c. Allah yolunda xərcləmək və ya Allaha "borc" vermək

Səxavətlilik, əliaçıqlıq, ehtiyacı olanlara maddi yardım göstərmək Azərbaycan xalqının yüksək mənəvi əxlaqi keyfiyyətlərindəndir. Quran **"Bolluqda da, qıtlıqda da mallarını yoxsullara xərcləyən, qəzəbini udan, insanların günahlarından keçənləri"** Allahdan layiqi ilə çəkinənlər - müttəqilər adlandırır.[2] Həm adət-ənənə, həm də dini dəyərlərlə bəslənən Allah yolunda xərcləmək Azərbaycan xalqının dilində *"Əl tutmaq Əlidən qalıb"* ifadəsində də öz əksini tapmışdır.

Səxavətə və xeyriyyəçilik xüsusiyyətinə dayanan, cəmiyyətin üzvləri arasında qarşılıqlı yardımlaşmanı təşviq edən digər Quran termini "qarzı-həsən" məfhumu və yaxud "Allaha borc vermək" anlayışıdır. **"Allah yolunda yaxşı borc verən kimdir ki, (Allah da) onun mükafatını qat-qat artırsın?!"**[3] Allaha borc verməyin müsəlmanların nəzərindəki fəzilət və əhəmiyyəti Uca Yaradanın razılığı üçün öz malını təmənnasız olaraq insanların faydasına ayıran vəqf qurumlarının yaranmasına səbəb olduğu kimi, cəmiyyətin iqtisadi cəhətdən ən aşağı təbəqəsində də öz imkanları çərçivəsində yardım etmək anlayışının yaşadıldığı məlumdur.

Azərbaycanın tolerantlıq tarixində cəmiyyətin müsəlman fərdlərinin digər dinlərə aid məbədlərin inşası və təmir-bərpası üçün maliyyə dəstəyinin göstərdiyinə dair çoxsaylı nümunələr mövcuddur. Avropa Yəhudilərinin Bakı dini icmasının baş ravvini Şneor Seqal mövzu ilə bağlı müsahibəsində maddi imka-

---

[1] Nizami Gəncəvi, Sirlər Xəzinəsi, s. 147-148.
[2] Ali-İmran, 3/134.
[3] Əl-Bəqərə, 2/245; Hədid, 57/11.

nından asılı olmayaraq Azərbaycan xalqında müşahidə olunan qarşılıq gözləmədən, kiçik hesablar aparmadan sadəcə yardım etmək məqsədilə göstərdiyi xeyriyyəçilik ruhunun dini tolerantlıqda da özünü qabarıq şəkildə büruzə verdiyini deyir. O, Azərbaycanın maddi və mənəvi zənginliyi, regiondakı digər dövlətlərlə müqayisə olunmayacaq səviyyədə tərəqqi etməsini xalqın xeyriyyəçilik əməllərinin Allah tərəfindən mükafatlandırılmasının nəticəsi kimi görür. Fikrini hasidizmin qurucusu, Yəhudi mistisizminin məşhur nümayəndələrindən olan Baal Şem Tovun "Tanrı sənin kölgən kimidir" sözləri ilə izah edən ravvin Şneor, insan davranışlarının mükafatını bu dünyada aldığını, Azərbaycan cəmiyyətində rifah səviyyəsindəki ciddi artımın ölkə rəhbərliyi başda olmaqla sıravi vətəndaşların da hesabsız və təmənnasız xeyriyyəçilik fəaliyyətlərinin mükafatı olduğuna inandığını bildirir.[1]

### d. Ünsiyyət vasitəsi və xeyirdə yarışmaq səbəbi kimi fərqliliklər

Tarixən Azərbaycanda mövcud olmuş dini, milli və mədəni fərqliliklərin vəhdəti dini tolerantlığın birlikdə yaşamaq modelində İslamın gücləndirdiyi bir digər dəyər kimi qeyd edilə bilər. Quranın cins, dil, irq və s. kimi fərqliliklərin mənşə, səbəb və funksiyalarına dair yanaşması "əl-Hücurat" surəsinin 13-cü ayəsində belə izah olunur: **"Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox çəkinəninizdir"**. Digər bir ayədə insanlar arasında ünsiyyət, sevgi və mərhəmət qurmaları üçün həyat yoldaşlarının Allahın qüdrətinin əlaməti və düşünən qövmlərə ibrət məqsədilə yaradıldığı, dil və rəng (irq) müxtəlifliyinin də

[1] 05 noyabr 2014-cü il tarixində ravvin Şneorla Azərbaycanda dini tolerantlığın əsasları mövzusunda apardığımız müsahibədən. Ravvin Şneorun icazəsi ilə istifadə olunmuşdur.

Uca Yaradanın qüdrətinin nişanələrindən olduğu vurğulanır.[1] Beləliklə, xarici görünüşə, fiziki fərqliliyə görə olan müxtəlifliklər üstünlük deyil, maraq və düşünmə səbəbi kimi göstərilir.

Etnik, irqi və digər fərqliliklərlə bağlı Quranın bu yanaşmasının ümumilikdə İslam düşüncəsindəki təzahürünü böyük türk-İslam filosofu əl-Fərabini (ö. 950) "ikinci müəllim" adlandırılaraq "birinci müəllim" ünvanına Aristotelin layiq görülməsində müşahidə etmək mümkündürsə, Azərbaycan düşüncəsindəki spesifik nümunəsini dahi mütəfəkkir Nizami Gəncəvinin son möhtəşəm əsəri olan "İskəndərnamə"də bir imperator, sərkərdə, filosof və peyğəmbər surətində təqdim etdiyi Makedoniyalı İsgəndəri əsərinin qəhrəmanı seçməsində görmək mümkündür. Xalqlar dostluğunun və dünya sülhünün atəşli müdafiəçisi olan böyük şair, bu əsərində yunan, ərəb, çin, hind, rus, gürcü, fars və digər xalqların mədəniyyətlərindən hörmətlə danışmaqda, minnətlə yad etdiyi, lakin etnik və irqi ayrı-seçkiliyini xoş qarşılamadığı böyük şair Əbülqasim Firdovsini şahları və qəhrəmanları ilə sırf İran tarixinin mədhinə həsr etdiyi "Şahnamə"dəki yanaşmasını bu misralarla tənqid etməkdədir:

*"...Köhnə söz ustası, o tuslu şair*
*Söz gəlinlərini bəzədi bir-bir...*
*...Yazsaydı tarixdə bütün olanı,*
*Çox uzun sürərdi onun dastanı.*
*Sevmədiklərinə etmədi hörmət,*
*Bəyəndiklərinə göstərdi rəğbət..."*[2]

Quranda inanc-din fərqlilikləri təbii qəbul edilərək insanlar arasında yaxşı işlərdə, xeyirxah əməllərdə yarışma səbəbi sayılır. Fərqli insan təbiətlərinə bağlı olaraq inancların müxtəlifliyini təbii və eyni zamanda imtahan vasitəsi qəbul edən Quran, bütün insanları bir ümmət kimi yaratmağın Alla-

---

1 Ər-Rum, 30/21-22.
2 Nizami Gəncəvi, İskəndərnamə: Şərəfnamə, s. 46.

hın qüdrəti daxilində olduğunu, lakin bunun yerinə insanları sınamaq məqsədilə fərqli şəriətlər üzrə yaratdığını, bunun da məqsədinin onları xeyir əməllərdə yarışmağa təşviq olduğunu, ixtilaf etdikləri məsələlərin axirətdə müəyyənləşdiriləcəyini bildirir.[1] Bəzi dinlərin mənsublarının bir-birinə qarşı üstünlük iddialarının yersiz olduğunu bildirən bir digər ayədə bu kimi mübahisələrin son qərarının əbədi aləmdə veriləcəyi bildirilməklə[2] inanc-din zəminində aparılan münaqişələrin əbəs olduğu vurğulanmışdır.

**e. Başqa dinlərin müqəddəslərinə hörmət**

Quranın digər dinlərin müqəddəslərinə qarşı ümumi prinsipləri müsəlmanların qeyri-müsəlmanlara qarşı münasibətinin əsas çərçivəsini də təyin etmişdir. Bu mənada Quran bütün müsəlmanları qeyri-müsəlmanların etiqadlarına və müqəddəslərinə qarşı tolerantlı olmağa, mənfi münasibət göstərməməyə çağırmışdır. Bununla bağlı **“Onların Allahdan başqa ibadət etdikləri tanrılarına hörmətsizlik etməyin ki, onlar da bilmədiklərinə görə həddi aşaraq Allahı təhqir etməsinlər”**[3] ayəsindəki yanaşma müsəlmanların digər din mənsublarının inanclarına, müqəddəslərinə qarşı münasibətində əsas təyinedicilərdən biri olmuşdur.

Bu reallığın təzahürü olan Azərbaycan tolerantlıq mühitinin əsas sütunlarından biri kimi qarşılıqlı hörmət üzərində qurulmuş dinlərarası münasibəti 12 avqust 2011-ci il tarixli çıxışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqın həyat tərzi adlandırmışdı: “Azərbaycanda bütün dinlərin nümayəndələri özlərini rahat hiss edirlər. Azərbaycanda İslam mədəniyyətinə, İslam dininə olan hörmət, eyni zamanda bütün başqa dinlərə olan hörmətlə tamamlanır. Öz dininə

---

[1] Əl-Maidə, 5/48.
[2] Əl-Bəqərə, 2/113.
[3] Əl-Ənam, 6/108.

hörmət edən şəxs başqa dinə də hörmət etməlidir. Bu, artıq Azərbaycanda oturuşmuş yanaşmadır .... Bu, sadəcə olaraq bir şüar deyil, bizim həyat tərzimizdir”.[1]

### f. Tolerantlığın maddi göstəricisi kimi məbədlər

Azərbaycanın tolerantlıq modelində ön plana çıxan bir digər ünsür xalqın dinindən asılı olmayaraq məbədlərə qarşı münasibətində özünü büruzə verir. İnsan hüquqları zəminində din azadlığının beynəlxalq aləmdə əhəmiyyət qazanmasından əsrlər əvvəl Quranın aşağıdakı ayəsində vurğulanan yalnız İslamın müqəddəs məkanları olan məscidlər deyil, digər din mənsublarının ibadət ocaqlarının qorunmasının vacibliyi idi: **“Əgər Allah insanların bir qismini digər qismi ilə dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan monastırlar, kilsələr, sinaqoqlar və məscidlər dağılıb gedərdi. Allah Ona (öz dininə) yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir!”**[2]

12 avqust 2011-ci il tarixli çıxışında Azərbaycanda din-dövlət münasibətini əks etdirən mühüm bir amilin dini abidələrə qarşı münasibət olduğunu vurğulayan Prezident İlham Əliyev dövlətin yalnız İslam dininə aid abidələrin deyil, digər dinlərə mənsub məbədlərin də inşasına və bərpasına mühüm yer verdiyini bildirmişdi.[3]

Həqiqətən də milli mirasın qorunması kimi dini və mədəni abidələrə göstərilən qayğı Azərbaycanın daxili və xarici siyasətində, xüsusilə son dövrlərdə təqdirəlayiq yer tutur. Ötən əsrin əvvəllərində azərbaycanlı xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Jen Mironosits Rus pravoslav kilsəsinin inşasına maddi yardım göstərməsi ənənəsi 2001-ci ildə həmin məbədin bərpa edilərək yenidən istifadəyə verilməsində mühüm rol oy-

---

[1] http://www.president.az/articles/2971
[2] Əl-Həcc, 22/40.
[3] http://www.president.az/articles/2971

namış iş adamı Aydın Qurbanovun timsalında davam etmişdir.[1]

Dini kimliyinə İslamın rəng verdiyi azərbaycanlı xeyriyyəçilərin ənənəyə çevirdiyi bu dini tolerantlıq nümunəsi Prezidentin Ehtiyat Fondunun və xüsusilə Heydər Əliyev Fondunun böyük dəstəyi ilə ölkə daxilində olduğu kimi, respublikadan kənarda da nümayiş etdirilir. Ölkə daxilindəki fəaliyyətlərə nümunə olaraq "Tolerantlığın ünvanı Azərbaycan" layihəsi çərçivəsində Heydər Əliyev Fondunun həyata keçirdiyi Mərdəkan qəsəbəsində XIX əsrin sonlarında inşa olunmuş Heydər Cümə məscidinin əsaslı təmiri (2012-2013), Yaxın Şərqin ən qədim ibadət ocaqlarından sayılan VIII əsrə aid Şamaxı Cümə məscidinin əsaslı bərpası (2010-2013), Həştərxanda Müqəddəs Knyaz Vladimirin adına abidə ucaldılması, Fransanın müxtəlif bölgələrində kilsələrin, müqəddəs Roma katakombalarının bərpası bu fəaliyyətlər arasında qeyd edilə bilər. Xüsusilə sonuncular İslam dünyasının Xristian aləminin müqəddəs məbədlərinə hörmət və dini tolerantlığın inkişafı istiqamətində Azərbaycanın töhfəsi kimi qiymətləndirilməkdədir.[2]

## Azərbaycanda İslamaqədərki dini müxtəliflik

Tarixən Şərqlə Qərb arasında oynadığı körpü rolu ilə seçilən qədim İpək Yolunun üstündə yerləşən Azərbaycan öz coğrafi şəraiti və strateji mövqeyinə görə daim çoxsaylı etnik qrupların məskunlaşma və köç prosesinə səhnə olmuş, bu da öz növbəsində bölgənin fərqli milli kimlik və inanca sahib insanların qurduğu mədəniyyətlərə ev sahibliyi etməsində və fərqliliklərin birlikdə yaşadığı müstəsna bölgələrdən birinə çevrilməsində böyük rol oynamışdır. İslamın yayılması ərə-

[1] http://www.scwra.gov.az/structure/6/?%E2%80%9CJen%20Mironosits%E2%80%9D%20pravoslav%20kafedral%20kils%C9%99si

[2] http://www.heydar-aliyev-foundation.org/az/content/blog/92/M%C9%99d%C9%99niyy%C9%99t

fəsində burada yaşayan xalqların inkişaf etmiş mədəniyyəti, qədim ənənələrlə bağlı, fəlsəfi mühakimələrlə zəngin dini inancları olmuşdur. Məhz bu xüsusiyyətlər sonralar Qafqaz xalqlarının tarixi həyat yollarının müxtəlifliyini müəyyən etmiş, eləcə də onların dini yaşamalarına öz təsirini göstərmişdir.[1]

Azərbaycanın inanc/din tarixinə nəzər salmaq kifayətdir ki, Bütpərəstlik, Zərdüştilik, Yəhudilik, Xristianlıq və İslamın tarixin müxtəlif dövrlərində ölkənin dini mozaikasına özünəməxsus çalarlar verdiyi və yerli xalqın fərqliliklərə qarşı dözümlülüyünün yaranma prosesinə şahidlik etdiyi anlaşılsın.

## İslamda birlikdə yaşama təcrübəsi

Qurana görə, yəhudilər və xristianlar Əhli-kitabdırlar. Cizyə müqaviləsi qarşılığında İslam dövlətində yaşamaq hüququnu əldə edirdilər. Bu, Azərbaycanın fəthi əsnasında da ümumi qəbul edilmiş prinsip olaraq bölgə əhalisi ilə bağlanılan müahidə mətnlərində əksini tapmışdır.[2] Digər tərəfdən Quranda İslamdan başqa din/inanc mənsubları arasında "Məcusi"[3] şəklində işarət olunan Zərdüştliyin hələ Məhəmməd peyğəmbər həyatda ikən Ərəbistan yarımadasının Yəmən[4], Oman[5] və Bəhreyn[6] bölgələrində yaşayan mənsubları ilə xüsusi şərtlər altında[7] cizyə müqaviləsi bağlanmışdı. Məhəmməd peyğəmbərin bu qərarı dörd xəlifə dövründə də tətbiq edilmişdi. Azərbaycan ərazisində bağlanılan müahidə mətnlərində xristian və yəhudilərlə birlikdə məcusilərə də cizyə müqabilində inanc və ibadət azadlığının vəd olunması[8] bunun açıq göstəricisidir.

---

1 Paşazadə, Qafqazda İslam, s. 42.
2 Bəlazuri, Fütuh, s. 282.
3 Əl-Həcc, 22/17.
4 Bəlazuri, s. 92-93, 97.
5 Bəlazuri, s. 106.
6 Bəlazuri, s. 107-111.
7 Həmidullah, əl-Vəsaiqüs-siyasiyyə, s. 150.
8 Bəlazuri, s. 282.

İslam fəth olunan bölgələrin yerli əhalisini zorla müsəlmanlaşdırılması prosesini qarşıya məqsəd qoymamışdı. Bu, bir tərəfdən nəzəri olaraq dində məcburiyyət olmadığına dair İslamın ümumi prinsipinə[1] və Əhli-kitab statusu altında digər din mənsublarına verdiyi təbəəlik hüququna bağlı idisə, digər tərəfdən süni şəkildə müsəlmanların sayının artırılması nəticəsində cəmiyyətdə qeyri-səmimi mühitinin yaradacağı mənfi nəticələrdən uzaq qalmaqla da əlaqəli idi. Bunun təbii nəticəsi olaraq Suriyadan Şimali Afrikaya, Balkan yarımadasından İspaniyayadək uzun əsrlər müsəlmanların hakimiyyətində olmuş bölgələrdə bu gün də xristian və yəhudi əhali mövcuddur ki, bu da fəth edilən ərazilərdə əhalinin din seçimində sərbəst qaldığı həqiqətinin danılmaz sübutudur.

## Tolerantlığın əsaslarından peyğəmbərlərə və müqəddəs kitablara inanc

Azərbaycanın tolerantlıq ənənəsinə böyük təsiri olan İslami dəyərlərdən bir digəri də dinlərin mənşəcə eyniliyi, İslamın isə Həzrət Adəmdən Həzrət Məhəmmədədək bütün peyğəmbərlərin gətirdiyi dinin müştərək adı olduğuna dair Quran əsaslı yanaşmadır: **"Allah: "Dini doğru-dürüst qoruyub saxlayın, onda ayrılığa düşməyin!" – deyə Nuha tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyini dində sizin üçün də qanuni etdi…"**[2] Buna görə müsəlmanların nəzərində inanc əsaslarından sayılan peyğəmbərlərin heç birisinin digərinə üstünlüyü yoxdur: **"... Biz Allaha, bizə nazil olana (Qurana), İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladına göndərilənlərə, Musaya və İsaya verilənlərə, Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə**

---

1 Dində məcburiyyət olmadığını bildirən Quran ayələri üçün bax. Əl-Bəqərə, 2/256; Yunis, 10/99; əl-Kəhf, 18/29.

2 Əş-Şura, 42/13.

**inanmışıq. Onlardan heç birini digərindən ayırmırıq. Biz ancaq Allaha boyun əyən müsəlmanlarıq!"**[1]

İslamın özündən əvvəlki dinləri müqəddəs kitab və peyğəmbərləri ilə birlikdə qəbul etməsi, Adəm, İbrahim, Yaqub, Yusif, Musa, Harun, İsa və digər peyğəmbərlərin, həmçinin onların təmsil etdiyi müqəddəs kitabların müsəlmanlar tərəfindən inanc əsası kimi tanınıb hörmətlə yanaşılması şəklində təzahür etmişdi. Nizami, Füzuli, Xəqani başda olmaqla Azərbaycanın ədib və mütəfəkkirlərinin əsərlərində tez-tez "İsa nəfəsi", "Musanın əli", "Yusif üzlü" kimi ifadələrə rast gəlinməsi, ləyaqəti mədh edilərək adı Həzrət Fatimə ilə yanaşı çəkilən Həzrət Məryəmdən hörmət və sevgi ilə bəhs edilməsi, Azərbaycanın mənəvi irsində dini tolerantlığın qorunmasına xidmət edən bir digər ünsürdür.

İlahi eşq uğrunda zahiri dəyişikliyi önəmsiz sayan Şeyx Sənanın Quranın yandırılması mövzusunda israr edən keşişə:

*"…Bihudə etdiyin bu israr,*
*Bunda İsa ilə Məryəmin adı var"*[2]

cavabını verərkən Hüseyn Cavid öz müqəddəs kitabından hərəkətlə bir müsəlmanın nəzərində Xristianlığın müqəddəslərinə göstərilən hörmət və verilən dəyəri nümayiş etdirirdi.

Yalnız fərqli inanc və din nümayəndələrinə deyil, habelə zahirən qurumlaşmış hər hansı bir dinə mənsub olmayanların düşüncələrinə anlayış və hörmət göstərmək Azərbaycan ədəbiyyatında və təsəvvüf düşüncəsində öz əksini tapmışdır. XX əsrin əvvəllərində Şeyx Sənan faciəsi ilə təsəvvüf düşüncəsini Azərbaycan dramaturgiyasına tətbiq edən Hüseyn Cavid:

*"...Şəriətdən, təriqətdən kənaram,*
*Həqiqət istərəm, yalnız həqiqət!..."*

---

[1] Əl-Bəqərə, 2/136.
[2] Hüseyn Cavid, Seçilmiş əsərləri, s. 169.

sözləri ilə cəmiyyətin qəlbləşmiş zahiri şəriət anlayışından uzaq olduğunu bildirən dərvişi "dəli və dinsiz" adlandıran müridlərinə:

*"Dəlilik başqa bir fəzilətdir,*
*Dinsiz olmaq da bir təriqətdir"*
*Dəlidir, sözlərində məna var,*
*Sərsəridir, başında sevda var.*
*O deyil, gərçi zahirən Mənsur,*
*Həp "ənəlhəq" diyor da çırpınıyor"*

cavabını verərkən Tanrı eşqinin axtarılacağı ilk yerin insanın daxili dünyası olduğunu önə sürürdü.[1]

## Əvəzolunmaz milli-mənəvi dəyər kimi qonaqpərvərlik

Şərq mədəniyyətinin müsbət əxlaq keyfiyyətləri arasında mühüm yer tutan qonaqpərvərlik qonaqsız evi "uğursuz" sayaraq "qəbiristanlığa", "susuz dəyirmana", qonağı isə "süfrənin yaraşığına" bənzədən xalqımızın ruhuna hopmuş, adət-ənənəsində tolerantlığı simvollaşdıran əsas göstəricilərindən birinə çevrilmişdir. Dahi şair Səməd Vurğunun misralarında ustaca ifadə edildiyi kimi:

*"...Sən bizim ellərin ruhuna bir bax,*
*Bizdən inciməmiş bir əziz qonaq..."*

Qonaqpərvərlik məziyyətinin Azərbaycanın tolerantlıq göstəricisi hesab olunmasını şərtləndirən əsas ünsür kimi din, etnik kimlik, cins, sosial mənsubiyyət fərqi qoymadan qonağa "Allah qonağı" nəzəri ilə baxılması mühüm amildir. *"Qonağa hörmət elərlər, əyərçi kafər ola"* deyən böyüklərimizin, ağsaqqal-ağbirçəklərimizin həyatlarında ilk dəfə qarşılaşdıqları müsa-

[1] Hüseyn Cavid, Əsərləri, s. 151.

firdən "Allah qonağı" kəlməsi eşitmək kifayət etmişdir ki, "Allaha da qurban olum, qonağına da" sözləri ilə qonağın qarşılanmasına sorğu-sualsız və dini əmri yerinə yetirircəsinə məsuliyyət və hörmətlə yanaşsınlar və göstərdikləri diqqət və qayğının əvəzində "Süfrəniz həmişə açıq olsun!" duası ilə alqışlansınlar.

## Qəlblərə yol tapan milli dəyər kimi hədiyyələşmək

Maddi dəyərindən asılı olmayaraq sevib-saymağın, hörmət göstərməyin əlaməti kimi hədiyyələşmək Azərbaycan xalqının qədim milli-mənəvi dəyərləri arasında özünəməxsus yer tutmuş, bayram, doğum, sünnət, nişan, toy və s. xüsusi günlərdə səbəbkara hədiyyələr vermək yazılmamış qanunlardan birinə çevrilmişdir. Məhəmməd peyğəmbərin insanlararası münasibətdə davamlılığı təmin etmək, əlaqələri kəsməmək, mehribanlıq və hörmətə dayanan əlaqələr yaratmaq üçün qarşılıqlı hədiyyələşməyə əhəmiyyət verməsi, müsəlman cəmiyyətdə fərdlər arasında ünsiyyət yaradıcı bir faktor olaraq qəbul edilmişdir. İslamın bu ümumbəşəri dəyəri Azərbaycan xalqının tolerantlıq modelini formalaşdıran milli-mənəvi dəyərləri arasında özünəməxsus yer tutur.

Avropa Yəhudilərinin Bakı dini icmasının baş ravvini Şneor Seqal başqalarının yaxşı hiss etməsinə əhəmiyyət verməyin Azərbaycan xalqının tolerantlıq anlayışının əsasında dayanan mühüm bir xüsusiyyət olduğunu vurğulayır. O, ölkədə keçirdiyi 4 il ərzindəki müşahidələrinə əsasən, Azərbaycan xalqının hissi zəkasının (EQ) yüksək olduğu, bunun da xalqın tarixi tolerantlıq ənənəsində mühüm faktor olduğu qənaətinə gəldiyini bildirir (Ravvin azərbaycanlıların başqalarının yaxşı hiss etməsi üçün bəzən maddi və fiziki güclərinin fövqündə olan işlərlə əlaqəli ricaları da rədd etməyi nəzakətsizlik hesab etdiklərini deyir). Şneor Seqal dini və sosial mənsubiyyətindən,

təhsil səviyyəsində asılı olmayaraq azərbaycanlıların qonaq qəbul edərkən və ya ziyarətə gedərkən hədiyyə verməyə böyük əhəmiyyət verdiklərini, bununla da qarşı tərəfdə rəğbət, hörmət və qarşılıqlı səmimiyyət hissini yaratmağa nail olduqlarını qeyd edir.[1]

## Tolerantlıq tarixinin canlı şahidləri kimi xiyabanlar

Ölkəmizin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayan görkəmli şəxsiyyətlərin dəfn olunduğu Fəxri Xiyabanda rus, gürcü, ukraynalı, polyak və s. millətlərin nümayəndələrinin də adlarına rast gəlinməsi xalqımızın yaxın tolerantlıq tarixinin nümunəsidir. Son olaraq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması uğrunda apardığı ağır sınağın dəlili - şahidi olan Şəhidlər Xiyabanında dinindən, etnik kimliyindən asılı olmayaraq Vətən uğrunda canlarından keçənlərin müqəddəs "şəhid" adına layiq görülməsi, tolerantlığın da fövqündə, fərqliliklərin birlikdə yaşamaq və haqsızlıqlara qarşı mübarizədə birlikdə ölümə getmək təcrübəsinin ən yüksək göstəricisidir.

## Nəticə

Milli-dini mənsubiyyətinin və siyasi təmayüllərinin vəhdəti kimi Azərbaycanın dini tolerantlıq modelinin əsas göstəricilərinin bayrağın üç rəngində kodlandığını irəli sürmək yəqin ki, mübaliğə sayılmaz. Minilliklər boyu xalqın sınağından süzülüb gələn milli-mənəvi dəyərlər, insanların və dinlərin mənşəyinin vəhdətinə dair İslamın əhatəediciliyi və dövlət-cəmiyyət münasibətlərinin tənzimlənməsində insan hüquqla-

[1] 05 noyabr 2014-cü il tarixində ravvin Şneorla Azərbaycanda dini tolerantlığın əsasları mövzusunda apardığımız müsahibədən. Ravvin Şneorun icazəsi ilə istifadə olunmuşdur.

rının ön planda tutulduğu müasirləşmə amalı Azərbaycanın tolerantlıq modelinin əsas göstəriciləri kimi xülasə edilə bilər.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Albert Weale, A."Toleration, Individual Differences, and Respect for Person", Aspects of Toleration, London, 1985, p. 16-35.
2. A.E. Galeotti, "Citizenship and Equality: The Place for Toleration", Political Theory 21, 1993, p. 585-605.
3. Bəlazuri, Əhməd ibn Yəhya, Fütuhul-Buldan (thq. Abdullah Ənis Təbba), Beyrut, 1987.
4. Glen Newey, Virtue, Reason and Toleration: The Place of Toleration in Ethical and Political Philosophy, 1999.
5. Həmidullah, Məhəmməd, əl-Vəsaiqüs-siyasiyyə, Beyrut, 1985.
6. Hüseyn Cavid, Əsərləri, II, Bakı, 2005.
7. Ingrid Greppell, Toleration on Trial, UK 2008.
8. Raz, J. "Autonomy, Toleration and the Harm Principle", Justifying Toleration, Conceptual and Historical Perspectives, Cambridge, 1988, p. 155-175.
9. Nizami Gəncəvi, İskəndərnamə: Şərəfnamə (trc. Abdulla Şaiq), Bakı, 2004.
10. Nizami Gəncəvi, Sirlər Xəzinəsi (trc. Xəlil Rza Ulutürk), Bakı, 2004.
11. The Oxford English Dictionary (ed. John Simpson, Edmund Weiner), UK: Clarendon Press, 1989.
12. Oxford Dictionary of Current English, New York: Oxford University Press, 2009.
13. Paşazadə, Allahşükür, Qafqazda İslam, Bakı, 1991.
14. Peter Jones, "Toleration, harm and moral effect", Aspects of Toleration, p. 136-157.

15. Pew Research Center, The World's Muslims: Unity and Diversity, 2012.
16. Thomas Badwin, "Toleration and the right to freedom", Aspects of Toleration (ed. John Horton, Susan Mendus), London, 1985, pp. 36-52.
17. "İslam Azərbaycanda", Dini Araşdırmalar Mərkəzi, Bakı, 2014.
18. http://www.mfa.gov.az/?options=content&id=115
19. http://www.academia.edu/5201189/Non-Muslim_Minorities_in_Azerbaijan_a_Secular_State
20. http://fideszeu.hu/news_display/azerbaijan_a_model_of_peaceful_co_existence_of_islam_and_minority_religions/
21. http://www.president.az/articles/2971
22. http://www.president.az/articles/2971
23. http://www.scwra.gov.az/structure/6/?%E2%80%9CJen%20Mironosits%E2%80%9D%20pravoslav%20kafedral%20kils%C9%99si
24. http://www.heydar-aliyev-foundation.org/az/content/blog/92/M%C9%99d%C9%99niyy%C9%99t

# AZƏRBAYCANIN CƏNUBUNDA DİNİ TOLERANTLIQ VƏ YA BİRLİKDƏ YAŞAMA MƏDƏNİYYƏTİ

**Aslan HƏBİBOV**[1]

## Giriş

Xoş görmək, bağışlamaq, dözüm göstərmək, qatlanmaq, sıxıntı çəkmək və icazə vermək kimi mənalara gələn *"tolerantlıq"*[2], latınca "tolerare" (tolerantia), fransızca "tolerer" (tolerance), ingiliscə "tolerare" (tolerance) şəklində feil bablarından gələn bir kəlmədir. Bu kəlmə ərəb dilində "təsamuh", "təsahul", "iğda" və "hilm" sözləri ilə ifadə edilir.

6 noyabr 1995-ci ildə Parisdə YUNESKO-nun 185 üzv dövlət tərəfindən imzalanmış "Tolerantlıq prinsiplərinin Bəyannaməsi"ndə tolerantlığa belə tərif verilib: tolerantlıq, dünyamızda mədəniyyətlərin zəngin müxtəlifliyin mövcud özünü istifadə formalarına hörmətlə yanaşmaq, bunları tanımaq və düzgün anlamaq deməkdir.

Maurise Kranston isə qeyd edir ki, tolerantlıq xoşlanılmayan və ya bəyənilməyən hər hansı bir şeyin mövcudluğunda təmkinlik göstərmə siyasətidir.[3]-[4]

Tolerantlıq məfhumu ilk dəfə olaraq XV əsrdə Nicolas Cusanus (1401-1464) tərəfindən "De Pace Fidei" adlı əsərdə ortaya atılmışdır. Daha sonra Bodin (1530-1596), Spinoza (1632-1677), Locke (1632-1704), Voltaire (1694-1778) və xüsusilə XVIII əsrin alim və mütəfəkkirləri tərəfindən elmi və fəlsəfi fikir azadlığı məqsədi ilə müdafiə olunmuşdur.[5]

---

[1] İlahiyyat üzrə fəlsəfə doktoru, AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı.

[2] Tahsin Saraç, Büyük Fransızca-Türkçe Sözlük, "Tolérance"md., İstanbul, 1985, s. 1394.

[3] Maurice Crantston "Toleration" The Encyclopedia of Philosophy, Vol.8 ed. Paul Edwards, New York, Macmillan 1967, p. 143-46.

[4] Hökume Abbasova, Tolerantlıq demokratik cəmiyyətin əsas elementi kimi, http://mim.ucoz.org/publ/16-1-0-28

[5] Ömər Aslan, Hoşgörü ve tolerans kavramlarına etimolojik açıdan analitik bir yaklaşım, s. 12, http://eskidergi.cumhuriyet.edu.tr/makale/325.pdf

Ancaq məfhumun bir problem olaraq geniş şəkildə ələ alındığı dövr isə XVI əsrdə Avropada katolik və protestantlar arasında dini zəmində baş verən Otuzillik müharibədən (1618-1648) sonrakı dövrdür.[1] Bu məfhumu daha da məşhurlaşdıran isə "Utopya" əsərinin müəllifi ingilis mütəfəkkir və dövlət xadimi Thomas More olmuşdur.

Elmi və fəlsəfi fikir azadlığı üçün istifadə olunan tolerantlıq, daha sonra din və vicdan azadlığı ilə bağlı məfhuma çevrilmişdir.

Məlum olduğu kimi, orta əsrlərdə Avropada tək hakim mədəniyyət Xristianlıq idi. Bu dövrdə Avropada dözümsüzlük hökm sürürdü. Xristianlığı yaymaq və digər dinləri ortadan qaldırmaq üçün aparılan Səlib yürüşləri də bu dövrdə baş vermişdir.

Orta əsrlərdə Xristianlıq yalnız digər dinlərə qarşı deyil, öz içindən çıxmış fərqli qrup və sektalara qarşı da dözümsüzlük münasibəti göstərmişdir. İnkvizisiya məhkəmələrinin əsası da bu dövrdə qoyulmuşdur. 1184-cü ildə Papa III Lucius ilə imperator Fridrix Barbarossa inkvizisiya məhkəmələrinin qurulmasına qərar vermiş və Papa IX Gregorius isə onu sistemli qurum halına gətirmişdir.

Bu dövrdə ən böyük dözümsüzlük Xristianlıqdan üz döndərənlərə qarşı göstərilmişdir. Xüsusilə Müqəddəs Tomas Xristianlıqdan üz döndərənlərin sərt cəzaladırılmasının tərəfdarı olmuşdur.

Orta əsrlərdə fikri mənada da tolerantlıq demək olar ki, yox idi. Bu dövrdə oxuyub yazanlar ruhani təbəqə idi. Kilsə Qərbdə təhsil sahəsini öz öhdəsinə götürmüşdür. Kilsə təhsili dəstəkləməklə yanaşı, öz təlimi ilə üst-üstə düşməyən heç bir düşüncənin yayılmasına da fürsət vermirdi. Məsələn, qədim dövr filosofların əsərləri kilsə təlimlərinə uyğunlaşdırılaraq

---

[1] Andre Lalande, Vocabularie Technique et Critique de la Philosopic, Paris, 1980, s. 1133.

senzuradan keçirildikdən sonra nəşr edilirdi. Universitetlərin təhsil proqramları kilsə tərəfindən hazırlanırdı və təhsil sistemi din xadimlərinin nəzarətində idi.[1]

Orta əsrlərdə Avropada Xristianlıqdan başqa inanc mənsublarının mövcudluğuna rəğmən, tolerantlıq fikrini açıq şəkildə müdafiə edən heç kəs olmamışdır. Ancaq dinin siyasətdən uzaq olması və dövlətin işinə qarışmaması gərəkdiyini iddia edən padovalı Marsiglio ilə yoldaşları jandunlu Jean və occhhamlı Villiam dünyəviliyin ilk müdafiəçilərindən olmuşlar. Marsiglio dinin mühakimə və cəzalandırma səlahiyyətini dövlətə verərək yalnız mənəvi gücü əlində tutmasının zəruri olduğunu və başqalarına ziyan vermədiyi müddətdə düşüncələrin azad şəkildə ifadə edilə bilməsi gərəkdiyini bildirmişdir.

Göründüyü kimi, tolerantlıq məfhumunun Avropada ortaya çıxmasının səbəbi protestantlığın yaranması ilə birlikdə baş verən məzhəb müharibələridir. Məzhəblər arasında baş verən müharibədən sonra "Vestfaliya" sülhü (1648) imzalanmış və savaşın səbəb olduğu fəlakətin fərqinə varan Qərb tolerantlıq fikrini mənimsəməyə başlamışdır.

Tolerantlıq məfhumu ilk dəfə Avstriya imperatoru II Josep tərəfindən "Tolerens patent" (tolerant bəratı) adlı fərmanla hüquqi qüvvəyə minmişdir. Beləliklə, yəhudilər geyim, təhsil məhdudiyyətləri ilə gettolarda yaşamaq məcburiyyətindən qurtulmuşlar.

Yuxarıda qeyd etdiyimiz kimi, tolerantlıq məfhumu XV əsrdə ortaya çıxsa da, bu haqda tam dolğun fikirlər yalnız II minilliyin sonunda formalaşmağa başladı. 1948-ci ildə "İnsan Hüquqlarına dair Ümumi Bəyannamə"nin qəbulu bu məfhumu daha geniş müstəviyə yaydı. Bu bəyannamədə göstərilirdi ki, "İnsan ailəsinin bütün üzvlərinə məxsus ləyaqətin etirafı və onların bərabər, ayrılmaz hüquqları azadlıq, ədalət və ümu-

[1] Bu haqda geniş məlumat üçün bax: Ölmez Atalay, Felsefi açıdan tolerans ve hoşgörü, s. 22-27.

mi dünyanın əsasını təşkil edir. İnsan hüquqlarına qarşı etinasızlıq və nifrət insanın vicdanını hiddətləndirən vəhşi aktlara gətirib çıxarır”.[1]

Müasir cəmiyyətlərin problemlərinə bağlı olaraq yaranaraq formalaşan və yeni istifadə edilməyə başlayan dini tolerantlıq məfhumu fərdlərin öz inanc və ibadətləri ilə birlikdə yer üzündə fərqli düşünən, inanan və yaşayan başqa insanların da varlığını qəbul edərək onların bu fərqliliklərinə dözüm göstərməsi lazım gəldiyini bilməsi mənasına gəlir.

Fərdlərin həm öz din qardaşlarına, həm də başqa din mənsublarına qarşı dözüm göstərə biləcək yetişkənliyə çatması önəmlidir. Çünki müasir dövrün sürətlə dəyişən şərtləri nəticəsində cəmiyyətdə hər kəsin tək bir din, ya da dini düşüncə ətrafında birləşməsi imkansızdır. Dözümsüzlük səbəbindən dinin inanc fərqliliyinin qarşıdurmaya yol açdığı bilinir.[2]

## Azərbaycanda İslamın yayılması və digər dinlərə qarşı münasibət

Tarixi Azərbaycan torpaqlarında İslamdan öncə ayrı-ayrı dövrlərdə müxtəlif dinlər və inanc sistemləri mövcud olmuşdur. İslam fütuhatından hələ çox-çox əvvəl bu ərazidə yaşayan bəzi tayfalar ata-babaları kimi bütlərə sitayiş edirdilər. Onlar ağaclara, daşlara, özlərinin yonub hazırladıqları sənəmlərə səcdə edir, hətta Günəşlə Ayı da ilahiləşdirirdilər.

Bu bölgədə o dövrlərdə yayılan bir başqa din isə Zərdüştilik idi. Bu dini təlim təqribən 3500 il bundan əvvəl yaşamış Zərdüştün adı ilə bağlıdır. Mənbələrdə qeyd olunduğuna görə, Zərdüştün atası azərbaycanlı, anası isə Reydən idi. Otuz yaşında insanları

---

1 Hökümə Abbasova, Azərbaycan dövləti, xüsusilə Qərbdə formalaşan dinlərarası dialoq təcrübəsindən istifadə edir, http://www.paritet.az/olke/2766.html

2 Hüseyin Yılmaz, “Hz. Peygamber›in eğitiminde bir ilke olarak hoşgörü”, Cumhuriyet Üniversitesi İlahiyat fakültesi dergisi, Cilt: VIII / 1, HAZİRAN-2004, SİVAS, s. 113.

Allahın dininə çağıran Zərdüştün dini təliminə görə, dünyanın təməli bir-birinə zidd iki başlanğıc üzərinə qurulmuşdur.

Yenə tarixi Azərbaycan torpaqlarında yayılmış dini təlimlərdən biri də Manilik idi. Xristianlıq və Zərdüştiliyə müxalif təlim olan Manilik 216 (və ya 217)-276-cı illərdə yaşamış Mani ilə bağlıdır. Var-dövlət, şan-şöhrət düşkünlüyünü pisləyən manilər xalqı nikaha girməməyə, zahidliyə, tərki-dünyalığa çağırırdılar.[1]

İslamdan əvvəl Azərbaycanda mövcud olmuş dinlərdən biri də Yəhudilikdir. Tədqiqatçılara görə, Azərbaycan yəhudiləri Assuri padşahları tərəfindən əsir edilmiş, əvvəl Assuriyada, daha sonra Midiyada məskunlaşdırılmış qədim yəhudilərin övladlarındandırlar. Assuri hökmranlığının süqutundan sonra Salmanasar şahın zamanında yəhudilər indiki Azərbaycana, Gürcüstana və Dağıstana köçmüşlər. Azərbaycanda yəhudi diasporunun təşəkkülünün Əhəmənilər dövrü ilə əlaqələndirilməsi barədə də fikirlər vardır.[2]

İslamın meydana gəlməsi ərəfəsində Azərbaycan torpaqlarında xristianların mövqeyi çox güclü idilər. Alban kilsəsi Xristian dünyasının ən qədim kilsələrdəndir.[3]

VII əsrin əvvəllərində Ərəbistanda yaranan İslam dini qısa müddətdə sürətlə yarımadanın xaricinə çıxmış, 639-cu ildə ikinci xəlifə Ömər ibn Xəttabın dövründə Xilafət ordusunun Azərbaycana gəlməsi və Azərbaycan hökmdarı İsfəndiyar ibn Fərruxzadın məğlub olub sülh müqaviləsi bağlaması ilə bu bölgədə yayılmağa başlamışdır. Osman ibn Əffanın dövründə başda Ərdəbil olmaqla Azərbaycanın müxtəlif bölgələrinə ordu yerləşdirilmişdir. Əli ibn Əbu Talibin xilafəti dövründə (656-661) isə Azərbaycanın fəthi prosesi tamamlanmışdır.

---

[1] Allahşükür Paşazadə, Qafqazda İslam, Bakı, Azərnəşr, 1991, s. 35-42.

[2] Kərim Şükürov, Yəhudi diasporu: yaranma tarixi və xüsusiyyəti, http://www.publika.az/index.php?action=static_detail&static_id=19678

[3] Paşazadə, Qafqazda İslam, s. 40.

Tədqiqatçılar Azərbaycanda islamlaşmanın mərhələli şəkildə baş verdiyi fikrindədirlər. Onlara görə;

I mərhələ VII əsrin ortalarından VIII əsrin əvvəllərinədək davam edən İslam fütuhatları dövrüdür. Bu mərhələ 705-ci ildə Alban dövlətinin süqutu və Alban kilsəsinin müstəqilliyini itirməsi ilə nəticələnir. Bu prosesin nəticəsində İslam Azərbaycanda hakim dinə çevrilmişdir.

II mərhələ isə VIII əsrin əvvəllərindən Qərbi İranda və İraqda Buveyhilərin hakimiyyətə gəlməsinə qədərki dövrü əhatə edir. Azərbaycan ərazisində Şirvanşahlar, Məzyədilər və Səccadilər dövlətləri qurulmuşdur. Bütpərəstlik, Zərdüştilik əhəmiyyətini itirmiş, Yəhudilik əvvəlki kimi mövcudluğunu qorumuş, Alban kilsəsi isə müstəqilliyini bərpa etsə də, ancaq nüfuzu zəifləmişdir.

III mərhələ Büveyhilərin hakimiyyəti dövrünü (935-1055) əhatə edir. Bu dövrdə mötədil şiəlik Azərbaycanda yayılmağa başlamış və Dərbəndədək uzanmışdır. Hənəfilik və şiəlik önəmli məzhəblər olmuşdur.

IV mərhələ isə Səlcuqlar dövrü (XI əsrin ortaları-XIII əsrin ortaları) ilə əlaqədardır. Bu mərhələdə sünnilik bölgədə güclənmiş, şiəliyin mövqeləri zəifləmişdir. Şafiilik aparıcı məzhəb olmuşdur. Bu dövrdə Azərbaycan Atabəyləri və Şirvanşahlar İslamı xristianların təzyiqindən qoruya bilmişdilər.

V mərhələ monqol istilaları dövrünü (XIII əsrin I yarısı - XV əsrin II yarısı) əhatə edir. Bu dövrdə sufilik geniş yayılmış, hürufilik güclənmişdir.

VI mərhələ Səfəvilərin (1501-1786) və XVI əsrdən etibarən Osmanlıların (1281-1924) hakimiyyəti dövrü ilə bağlıdır. Səfəvilər şiəliyi təbliğ edir və başlarına 12 şiə imamının şərəfinə 12 qırmızı zolaqlı əmmamə bağlayırdılar. Buna görə də onlar "qızılbaşlar" adlanırdılar.

Azərbaycanın Rusiya imperiyasına ilhaq edilməsindən sonrakı dövr də ölkənin islamlaşmasının yeni mərhələsi kimi

nəzərdən keçirilə bilər. Bu mərhələnin ən səciyyəvi xüsusiyyəti hökumətin müsəlman din xadimlərini ələ almaq və özünə tabe etmək məqsədilə Xristianlıqdakı kilsə strukturuna bənzər İslam dini qurumu yaratmaq siyasəti ilə bağlıdır.[1]

## Azərbaycanın cənubunda dini tolerantlıq

Cənub bölgəsində dini tolerantlıq mövzusundan bəhs etməzdən əvvəl ümumilikdə ölkəmizdə tarix boyu olmuş dini tolerantlıq məsələsinə qısaca toxunmaqda fayda olduğunu düşünürük.

Yuxarıda da qeyd etdiyimiz kimi, tarixi Azərbaycan torpaqlarında bir çox din mövcud olmuş və özünə ardıcıl tapmışdır. Xüsusilə İslamın Azərbaycanda yayılmasından sonra əvvəlki dinlərə qarşı münasibəti bölgədə dini tolerantlığın formalaşmasında önəmli rola sahib olmuşdur.

Misal üçün göstərə bilərik ki, bu bölgələr müsəlmanlar tərəfindən fəth edildikdən sonra mövcud Xristian kilsələrinə toxunulmamış, İslamdan əvvəl olduğu kimi qalmışdır. Alban kilsəsinin XIX əsrədək mövcudluğunu qoruması da İslamı qəbul etmiş bölgə əhalisinin tolerantlığının parlaq nümunəsidir.[2]

Sonrakı dövrlərdə də bu ənənə davam etmiş, bu bölgədə yaşayan insanlar fərqli inanc sahiblərinə qarşı dözümlülük nümayiş etdirmiş, eyni cəmiyyətdə birlikdə yaşaya bilmişlər.

Məsələn, xanlıqlar dövründə Osmanlı-Səfəvi rəqabəti bölgədə yaşayan insanları məzhəb ixtilafına düçar edə bilməmişdir. Yenə Çar Rusiyası dövründə məzhəb ixtilafı yaratma istiqamətində bütün cəhdlər boşa çıxmış, məzhəbindən və təriqətindən asılı olmayaraq bütün müsəlmanlar fitnədən uzaq qalmağı bacarmışlar.

---

[1] İsmail Məmmədov, Azərbaycan tarixi, Bakı, Adiloğlu nəşriyyatı, 2005, s. 49; http://www.azerbaijans.com/content_500_az.html

[2] Paşazadə, Qafqazda İslam, s. 57.

Sovet hakimiyyəti illərində həm sünnilər, həm də şiələr zülm və haqsızlıqlara məruz qalmış, inanclarını gələcək nəsillərə ötürə bilməyin yollarını birlikdə axtarmışlar.

Xülasə, Azərbaycan tarixinin bütün mərhələlərində, xüsusilə İslamın bölgədə yayılmasından sonra bu torpaqlarda yeni dinlə birlikdə tolerantlıq düşüncəsi də yayılmış, istər öncəki din mənsublarına, istərsə də İslamdakı fərqli məzhəblərə qarşı dözümlülük yaranmışdır.

Azərbaycanın hər yerində olduğu kimi, cənub bölgəsində də dini tolerantlıq tarix boyu mövcud olmuşdur. Bu tolerantlıq həm dinlər, həm də məzhəblərarasında müşahidə edilmişdir.

## Cənub bölgəsində fərqli dinlərə qarşı tolerantlıq

Məlum olduğu kimi, Rusiya ilə İran arasında imzalanan "Gülüstan" (1813-cü il) və "Türkmənçay" (1828-ci il) müqavilələri ilə Azərbaycan ərazisi Araz çayı sərhəd olmaqla Şimali və Cənubi Azərbaycan şəklində iki hissəyə bölündü və Şimali Azərbaycan Çar Rusiyasının tərkibinə qatıldı.[1]

İran ilə müharibədən sonra Zaqafqaziyada qalan rus əsgərləri Azərbaycanın müxtəlif bölgələrinə yerləşdirildi. Daha sonra çarın fərmanı ilə Azərbaycanda rus kəndlərinin yaradılmasına başlandı. Rusiyadan buralara molokanlar köçürüldü.

Rusların yerləşdirildiyi Şimali Azərbaycan torpaqlarında biri də ölkəmizin cənub bölgəsidir. Cəlilabad rayonunun Pirişib (indiki Göytəpə) şəhəri, Masallının Kalinovka və Lənkəranın Alekseyevka (indiki Bürcəli) kəndləri həmin dönəmdə salınmış və əhalisi qeyri-müsəlmanlardan ibarət yaşayış məntəqələrindəndir. [2]

[1] M.Ə.İsmayılov, S.A. Məmmədov, "Şimali Azərbaycanın Çar Rusiyası tərəfindən işğalı", Azərbaycan tarixi, (Z.M.Bünyadov və Y.B. Yusifovun redaktəsi ilə), s. 577-579.

[2] http://az.wikipedia.org/wiki/Kalinovka;

Rusiya tərəfindən məqsədli şəkildə yerləşdirilən bu insanlara qarşı yerli xalq tərəfindən hər hansı bir zorakılıq hadisəsi baş verməmişdir. Sovet hakimiyyəti illərində də həmin kəndlərdə ruslar yaşamış və onlar müsəlmanlar tərəfindən hər hansı bir təzyiqə məruz qalmamışlar.

Dövlət müstəqilliyimizi yenidən qazandıqdan sonra bölgədə yaşayan çoxlu sayda rus könüllü olaraq öz doğma vətənlərinə köçmüş, az sayda olsa da, həmin yerlərdə rus əsilli Azərbaycan vətəndaşı yaşamağa davam edir.

Bölgə əhalisinin qeyri-müsəlmanlara qarşı tolerantlıq nümunəsi olaraq Göytəpə şəhərindəki kilsəni göstərə bilərik. 1878-ci ildə inşa edilmiş bu kilsə hələ də qalmaqda və bölgə əhalisi tərəfindən mühafizə olunmaqdadır.

Xülasə olaraq deyə bilərik ki, Çar Rusiyasının məqsədli şəkildə bölgəyə yerləşdirdiyi qeyri-müsəlmanlar, müsəlman Azərbaycan xalqının tolerantlığı sayəsində rahat şəkildə yaşamış və hazırda da yaşamaqdadırlar.

## Cənub bölgəsində fərqli məzhəblərə qarşı tolerantlıq

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan xalqı Raşidi xəlifələr dövründə İslamı qəbul etmişdirlər. Qazan xanın şiəliyi qəbul etməsi ilə bölgədə bu məzhəb yayılmağa başlamış, Səfəvilər dövründə isə hakim məzhəbə çevrilmişdir.

Statistik məlumatlara görə, müasir Azərbaycan müsəlmanlarının 65%-i şiə, 35%-i isə sünnidir (bəzi məlumatlara görə isə 60%-i şiə, 40%-i sünnidir).

Azərbaycanda sünni və şiələrin birgə yaşadığı yerlərdən biri də cənub bölgəsinin Astara rayonudur. Rayonun 100 minə yaxın əhalisinin təxminən 55%-i şiə, 45%-i isə sünnidir.

---

http://az.wikipedia.org/wiki/G%C3%B6yt%C9%99p%C9%99

Əsrlərdir eyni bölgəni, eyni kəndi və hətta eyni məhəlləni paylaşan bu insanların formalaşdırdıqları nümunəvi birlikdə yaşama mədəniyyətini nəinki Azərbaycan, bütün İslam dünyasına örnək göstərmək olar.

Bölgə əhalisi bir-birilə ət və dırnaq kimidirlər və vəziyyətin bu cür davam etməsinin tərəfdarıdırlar. Son dövrlər baş verən proseslər dünyanın belə bir qardaşlığa nə qədər möhtac olduğunu göstərir. Xüsusilə müsəlmanlar arasında məzhəb ayrı-seçkiliyi yaratmaq üçün müxtəlif fitnələrə və fəsadlara əla atan şər qüvvələr qarşısında davam gətirə bilmək üçün belə bir tolerant mühitə həqiqətən ehtiyac var.

İllərdir bölgədə mövcud qardaşlıq mühitini əyani şəkildə görmək, bölgə əhalisi ilə üz-üzə görüşərək aralarındakı tolerant münasibəti haqda bir başa özlərindən məlumat almaq və müşahidələr aparmaq məqsədilə Astara rayonunun bəzi kəndlərinə səfər etdik.

Bu məqsədlə Astara rayonunun Siyəkü (sünni), Ərçivan (şiə) və Pensər (50% şiə, 50% sünni) kəndlərinə təşkil etdiyimiz səfər zamanı bölgədəki dini tolerantlığın bir daha şahidi olduq.

İlk olaraq Astara rayonu Siyəkü kəndinə səfər etdik. Əhalinin demək olar ki, tamamı sünnidirlər (şafii). Sakinlər arasında az da olsa, məzhəb təəssübkeşliyi hiss edilsə də, ümumilikdə kənddə qonşu kəndlərdəki şiələrə qarşı tolerant münasibət vardır. Qeyri-sünnilərlə nikah vasitəsilə qohumluq əlaqəsinə müsbət yanaşan kənd əhalisi arasında şiələrlə evlənənlər də mövcuddur. Məhərrəm ayında mərasimlər təşkil olunmasa da, toy edilmədiyi, tasua və aşura günlərində məsciddə ehsan süfrələri açıldığı qeyd edildi.

Burada diqqəti çəkən bir başqa məqam isə adı keçən kəndin yavaş-yavaş bölgənin təsəvvüf mərkəzinə çevrilməyə başlamasıdır. Nəqşibəndiyyə təriqətinin yayıldığı bu kənddə artıq qadiriliyin kasnazaniyyə qolunun mənsublarına da rast gəlinir.

Xülasə olaraq deyə bilərik ki, kənddə çox az sayda radikal düşüncəli dindara rast gəlinsə də, ümumilikdə kənd əhalisi ənənəvi din anlayışına sadiqdir və fərqli düşünən insanlarla eyni cəmiyyəti paylaşmaqda heç bir problem görmürlər.

Tanış olmaq və fikrilərini öyrənmək üçün baş çəkdiyimiz ikinci kənd isə əhalisinin demək olar ki, tamamı şiələrdən ibarət Ərçivan kəndidir. 12000-dən çox əhalisi olan bu kəndin sakinləri də Siyakü kimi qonşu sünnilərə qarşı tolerantdırlar. Sünniləri özlərindən ayrı görmədiklərini qeyd edən kənd sakinləri onlarla nikah vasitəsilə qohumluq əlaqəsini müsbət qarşılayırlar. Ümumiyyətlə, Ərçivanın əhalisinin də qonşu kəndlərdəki sünnilərə qarşı münasibəti son dərəcə istidir.

Ərçivan kəndi Məhəmməd Hənəfiyyə məscidinin axundunun qeyd etdiyinə görə, adı keçən məscidi həm sünnilər, həm də şiələr ziyarət edir, qurbanlar kəsərək nəzir paylayırlar.

Ən son olaraq ziyarət etdiyimiz kənd əhalisinin yarısının şiə, yarısının isə sünni olduğu Pensər kəndidir.

Astara rayonunun Pensər kəndini sadəcə Azərbaycanda deyil, həmçinin dünyada analoqu olmayan bir tolerantlıq nümunəsi olaraq görmək mümkündür. Uzun əsrlərdir eyni kəndi və hətta eyni məhəlləni paylaşan iki məzhəb mənsubları burada sülh və əmin-amanlıq şəraitində yaşamış və yaşamağa davam edirlər. [1]

Hər şeydən əvvəl onu qeyd edək ki, Pensər kəndində iki məscid fəaliyyət göstərir. Hacı Teymur Cümə məscidi sünnilərin, Pensər kənd Cümə məscidi isə şiələrin ibadət yeri kimi tanınır və aralarında məsafə çox azdır. Lakin hər iki məscidin rəhbərliyi "sünni məscidi, şiə məscidi" kimi ifadələrdən narahatlığını bildirir, "Bizim kəndimiz böyük olduğundan əhalinin ehtiyacına görə iki məscidimiz vardır" şəklində açıqlama verirlər. Məhərrəmlikdə mərasimlər hər iki məsciddə - kişilər

[1] Pensər kəndinə qonşu olan Telman kəndində də vəziyyət eyni şəkildədir. Bu kəndin əhalisinin 60%-ni şiə, 40 %-ni isə sünnilər təşkil edir.

Hacı Teymur Cümə məscidində, qadınların isə Pensər kənd Cümə məscidində keçirirlər.

Digər tərəfdən vəfat edən sünninin yas məclisində toplaşan qadınların şiə kimi mərsiyə və rozə oxumaları da bu kəndə məxsus bir fərqlilikdir. Halbuki yuxarıda adını qeyd etdiyimiz və əhalisinin demək olar ki, tamamı sünnilər olan Siyakü kəndində bunu görmək mümkün deyildir. Doğrudur, Siyaküdə tasua və aşura günlərində ehsan süfrələri açılır, lakin Pensərin sünni əhalisi kimi olmadıqları açıqdır.

Pensər kəndində diqqəti çəkən məqamlardan biri də qohumluq əlaqələridir. İstər Ərçivan, istərsə də Siyakü kəndində də qız alıb vermə faktı ilə qarşılaşırıq. Lakin Pensərdə bu vəziyyətin adi hal aldığı açıq şəkildə görünür. "Şiə və sünnilərin bir-birinə qız verib vermədiyi" sualı qarşısında aldığımız cavab bölgənin gələcəyi haqda son dərəcə ümidvericidir. Belə ki, kəndin hər iki məzhəbinə mənsub qabaqcıl və dindar insanları bizə bu məsələdə tərəddüd etmədiklərini bildirdilər.

"Evləndikdən sonra qadınlar məzhəbini dəyişdirməsi üçün məcbur edilirmi?" sualına aldığımız "Bu məsələdə heç bir məcburiyyət ola bilməz, istəyən ərinin məzhəbini qəbul edər, istəməyən öz məzhəbində qalar" şəklindəki cavab din adına sevindirici haldır. Belə ki, iradə sahibi bir insanı hər hansı inancı qəbul etməyə məcbur etmək, yuxarıda qeyd etdiyimiz kimi, İslamdakı tolerantlıq düşüncəsinə ziddir. Bunun fərqində olan və belə bir davranışın xalq arasında var olan qardaşlıq münasibətinə ciddi ziyan vura biləcəyini yaxşı bilən bölgə əhalisi bu məsələdə zorakılığın tərəfdarı deyil. Əslində, bu məsələdə sadəcə Pensər kəndinin əhalisi deyil, yuxarıda adlarını çəkdiyimiz və əhalisi tamamilə sünni və ya şiələrdən ibarət olan kəndlərin əhalisi də eyni düşüncədədir.

Pensər kəndində yaşadılan daha bir ənənə də tolerantlığa gözəl nümunədir. Məlum olduğu kimi, şiələr əksər hallarda gündə üç, sünnilər isə beş dəfə azan verirlər. Bu vəziyyəti

diqqətə alan Hacı Teymur məscidinin rəhbərliyi şiələrin verdiyi üç vaxtın xaricində (əsr və xüftən namazları vaxtında) azan verərək həm azanı beşə tamamlayır, həm də cəmiyyətdəki tolerantlığın daha da möhkəmlənməsinə xidmət edir.

Bir vaxtlar kəndə mövcud olan, lakin son zamanlarda tərk edilən bir başqa ənənə isə cümə namazının növbə ilə qılınmasıdır. Hacı Teymur Cümə məscidinin imamının qeyd etdiyinə görə, uzun müddət kənddə cümə namazı növbə ilə, yəni bir həftə Pensər kənd Cümə məscidində, növbəti həftə isə Hacı Teymur Cümə məscidində qılmışdır və bu ənənə hər iki məzhəb nümayəndələri arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət göstərmişdir.

Burada bir məqamı da qeyd etmək istəyirik ki, bölgə əhalisi əsrlərdən bəri olan dostluq və qardaşlıq münasibətlərindən məmnundurlar və bunun nəinki aradan qalxmasını, əksinə daha da möhkəmlənməsini arzulayırlar. Bu səbəblə son dövrlərdə bütün Azərbaycanda olduğu kimi, bölgədə də bəzi kiçik radikal ünsürlərin ortaya çıxması mövcud tolerant mühit üçün təhlükəli olaraq görülür. İstər sünni, istərsə də şiələr bu cür cərəyanların bölgədə yayılmasından narahatdırlar və əsrlərdir bölgə insanının yaşatdığı qardaşlıq mühitinə zərbə vuracağından qorxurlar.

## Cənub bölgəsində mövcud tolerantlığın əsas səbəbləri

Yuxarıda qeyd etdiyimiz kimi, əhalisi istər sünni, istər şiə, istərsə də qarışıq olsun, Azərbaycanın cənub bölgəsində həqiqi mənada tolerantlıq mövcuddur. İnsanların bir- birləri ilə münasibətdə əsla məzhəb məsələsini gündəmə gətirmədiyi, ortaq dəyərlərə sahib olaraq hərəkət etdiyi açıq şəkildə görülür. Dünyaya nümunə ola biləcək bu davranışın nəinki tolerantlıq, hətta vəhdətə doğru bir addım kimi dəyərləndirsək, yanılmarıq. Dövrümüzdə bu cür münasibətə möhtac olduğumuzu

diqqətə aldığımızda bölgə insanın necə böyük işin öhdəsindən gəldiyini açıq görə bilərik.

Bu halda belə bir sual meydana gəlir. Cənub bölgəsinin insanları bunu necə bacardılar? Bu bölgədə mövcud tolerantlığın əsas səbəblərin nələrdir?

Fikrimzicə, bunun bir neçə səbəbi səbəbi vardır:

**1) İslam dini**

Azərbaycanın cənub zonasındakı tolerantlığın ən önəmli səbəbi İslam dininin özüdür. Tərəfdarlarına mötədil olmağı tövsiyə edən İslam və onun Peyğəmbəri fərqli düşüncə sahiblərinin birlikdə yaşaya bilmə nümunəsini də göstərmişdir.

Qurani-Kərimdə **"Allah yanında (haqq olan) din, əlbəttə, İslamdır"** (Ali-İmran, 19) və **"Kim İslamdan başqa bir din ardınca gedərsə, (o din) heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar!"** (Ali- İmran, 85) ayələrində doğru dinin İslam olduğu bildirilirkən, **"Dində məcburiyyət (zorakılıq) yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edildi. Hər kəs Tağutu inkar edib Allaha iman gətirsə, o, artıq qopmayan ən sağlam bir ipdən yapışmış olur. Allah hər şeyi eşidəndir, biləndir"** (Bəqərə, 256) ayəsi ilə insanları hər hansı bir inancı qəbul etmək məsələsində məcburiyyətin doğru olmadığını deyərək, eyni cəmiyyətdə fərqli düşüncələrin mövcud ola biləcəyini göstərməkdir.

Yenə, **"Əgər Rəbbin istəsəydi yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?!"** (Yunis, 99) ayəsi ilə Həzrət Peyğəmbəri belə bir şeyi etməmə xüsusunda xəbərdar edir.

Bir tərəfdən yuxarıda qeyd etdiyimiz ayələrlə Allah eyni cəmiyyətdə fərqli düşüncələrin olacağını bildirməkdə, digər tərəfdən isə **"(Ya Rəsulum!) Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin! ( O kəlmə budur: ) "Allahdan başqasına ibadət etməyək.**

**Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!" Əgər onlar yenə də üz döndərərlərsə, o zaman (onlara) deyin: "İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq (Allaha təslim olanlarıq)!"** (Ali-İmran, 64) ayəsi ilə Əhli-kitabı haqqa dəvət edərək, eyni zamanda müsəlmanları nəinki fərqli din, məzhəb düşüncə sahiblərilə olanlarla birlikdə yaşaya bilməyin mümkünlüyünü vurğulayır.

İslamda tolerantlığın mövcudluğuna dair başqa bir dəlil Həzrət Peyğəmbərin davranışlarıdır. Həzrət Məhəmmədin Mədinəyə hicrətindən sonra Mədinə Konstitusiyasının (misaq) bağlanması, burada yaşayan yəhudilərə ümmətin üzvləri kimi münasibət göstərilməsi yüksək dözümlülük təzahürüdür. İslamaqədərki peyğəmbərlərə və kitablara iman gətirilməsinin zəruriliyi, əvvəlki dinlərin də qibləsinin tanınması, qeyri-müsəlmanlarla hikmət və gözəl moizə ilə söhbət aparılması barədə Quran hökmlərindən savayı, Peyğəmbərin xəstə yəhudiyə baş çəkməsi, yəhudinin yanında girov qoyub borc götürməsi, yəhudinin cənazəsi qarşısında ayağa qalxması İslamda dözümlülük ənənələrinin ən gözəl nümunələrindəndir.

Yenə Həzrət Peyğəmbərin Nəcrandan gələn xristianlardan ibarət heyəti qəbul edərkən müsəlmanlardan bəzilərinin etirazlarına baxmayaraq, onların məscidə daxil olmasına və orada ibadətlərini yerinə yetirməsinə icazə verməsi gözəl dözümlülük örnəyidir.

Həzrət Peyğəmbər tərəfindən əsası qoyulan tolerantlıq ənənəsi sonrakı dövrlərdə də davam etmişdir. Fəthtlər dövründə müsəlmanlar qeyri-müsəlmanlara qarşı tolerant davranmışdır. Xilafət ərazisində çoxlu sayda qeyri-müsəlmanın yaşaması bu tolerantlığın nəticəsi olaraq görülməlidir.[1]

---

[1] Bu haqda bax: Şünasi Məmmədyarov, 'İslam dövlətçiliyi tarixində dözümlülük ənənələri', İslamda Dözümlülük, Beynəlxalq elmi-nəzəri konfransın materialları, Bakı, 2006, s. 25-26; Məmmədəli Babaşlı, "Müasir dünya və islamın dözümlülük anlayışı", İslamda Dözümlülük, Beynəlxalq elmi-nəzəri konfransın materialları, Bakı, 2006, s. 30-35.

Yuxarıda qeyd etdiyimiz kimi, İslamdakı tolerantlıq ənənəsi fikrimizcə, Azərbaycanın cənub bölgəsindəki dini tolerantlığın ən önəmli səbəbidir. Apardığımız müşahidə və söhbətlərdən də bunu açıq şəkildə görə bildik. Belə ki, hər iki mənsublarının vurğuladığı "Eyni Allaha, eyni Peyğəmbərə və eyni Kitaba inanırıq" ifadəsi bölgədəki tolerantlığın əsasını meydana gətirməkdədir. O halda deyə bilərik ki, bölgədəki qardaşlıq münasibətinin təməlində din, yəni İslam dayanır.

**2) Əhli-beyt sevgisi**

Fikrimizcə, bölgədəki qardaşlıq münasibətlərinin bir başqa səbəbi Əhli-beyt sevgisidir.

Məlum olduğu kimi, Həzrət Peyğəmbər Əhli-beytini Quran ilə birlikdə öz ümmətinə iki ağır əmanət olaraq qoyub getmişdir. Həzrət Peyğəmbəri görmədən ona iman gətirən Azərbaycan xalqı onun əmanətinə sahib çıxmış, istər Əməvilər, istər Abbasilər, istərsə də digər dövrlərdə işgəncə, təqib və təzyiqlərə məruz qalan Əhli-beyt mənsublarına və tərəfdarlarına qucaq açmışdır.

Əhli-beyt sevgisini qəlbində daşıyan xalqımız onların məzarlarını ziyarətgaha çevirmiş, onların xatirinə Allahdan yardım istəmiş və axirətdə şəfaətini Uca Yaradandan diləmişdir.

V İmam Məhəmməd əl-Baqirin oğlu Mövlana İbrahimin Gəncədə, VII İmam Museyi-Kazımın qızı Həkimə xanımın Bibiheybətdə, yenə İmam Kazımın bir başqa qızı Rəhimə xanımın Nardaranda dəfn edilməsi xalqımızın Əhli-beyt sevgisinə olan parlaq təzahürüdür.

Əhli-beyt sevgisi Azərbaycan xalqının həyatının demək olar ki, hər sahəsinə sirayət etmişdir.[1]

Bütün Azərbaycan müsəlmanları kimi, cənub insanının da qəlbində Əhli-beyt sevgisi özünə dərin yer tutmuşdur. Bu

---

[1] Bu haqda bax: Aslan Həbibov, "Əli və Nino romanında Əhli-beyt", Azərbaycan və Əhli-beyt irsi, Bakı, 2013, s. 286-302.

sevgi cənub insanının bir-biri ilə gözəl münasibət qurmasının əsas səbəblərindəndir. Yuxarıda da qeyd etdiyimiz kimi, tasua və aşura günlərində məscidlərdə ehsan süfrələrinin açılması, mərasimlərin təşkili, yas məclislərində mərsiyə və rozələrin oxunması, məhərrəm və səfər aylarında toy şənliklərinin təşkil olunmaması kimi hallar bölgə insanının Əhli-beytə olan sevgisinin göstəricisidir. Yenə bölgə sakinlərinin bir işə başlayarkən və ya səfərə çıxarkən *"Allah, Məhəmməd ya Əli"* deməsi, Əhli-beyt sevgisinin bir başqa təzahürüdür.

**3) İrfani ənənə**

Cənub bölgəsində yaşayan müsəlmanları birləşdirən bir başqa dəyər isə irfani ənənədir.

Nəfsin tərbiyəsi şəklində ortaya çıxan sufilik qısa zamanda bütün İslam dünyasına yayılmış və çoxlu sayda ardıcıl tapmışdır. İnsanları sadə həyat tərzinə, pəhrizkarlığa, səmimiyyətə, xeyirxahlığa və mənəvi yüksəlişə dəvət edən sufilik, IX-XII əsrdə çox sürətlə inkişaf mərhələlərini keçərək Cüneyd əl-Bağdadi (816-909), Əbu Nəsr Sərrac ət-Tusi (vəf. 955), Əbu Talib Məkki (X-XI əsr), Əbu Həmid Qəzali (1058-1111), Muhyəddin ibn Ərəbi (1165-1240) və başqa sufi alimlərinin adları ilə tanınmışdır.

Bu cərəyanın yayıldığı bölgələrdən biri də Azərbaycandır. Əbu Hüseyn Dündari-Şirazi (vəf. 964), Əbu Züra (vəf. 1024), Əxi Fərəc Zəncani (XI əsr), Nizami Gəncəvi (1141-1209), Mahmud Şəbustəri (1287-1320), Əbu Səid Abdal Bakuvi (vəf. 1314), Seyid Yəhya Bakuvi (vəf. 1465), Dədə Ömər Rövşəni (XV əsr), Həmzə Nigari (1795-1866) Əbulqasim Nəbati (1812-1873) kimi çox sayda sufi mütəfəkkir məhz Azərbaycan torpaqlarında yetişmişdir.

Bu cür böyük mütəfəkkirlərdən biri də Azərbaycanın cənub bölgəsindən olan Eynəzzaman Seyid Cəmaləddin Gilidir (Gilanlı). Seyid Cəmaləddin Gilan mahalının Malvan kəndində anadan olmuş, sonralar Astaraya köçmüş, ömrünün sonuna kimi burada yaşayaraq sufiliyi təbliğ etmişdir.

Seyid Cəmaləddin kifayət qədər təqvalı, xeyirxah, zahid, təsirli nəfsə malik bir şəxs idi. O, 1253-cü il noyabrın 28-də vəfat etmiş, rayonun Butəsər (indiki Pensər) kəndində dəfn olunmuşdur. Hazırda məzarı Pensər kənd qəbiristanlığındadır və "Şeyx Cəmaləddin" piri kimi tanınır.

Azərbaycan irfan ənənəsinin bir başqa nümayəndəsi Seyid Cəmaləddinin tələbəsi Şeyx Zahid ləqəbi ilə tanınan İbrahim ibn Rövşən Əmirdir. Adı İbrahim, künyəsi Əbüs- Səfvət, ləqəbi Tacəddindir. Tam adı isə mənbələrdə Şeyx Tacəddin İbrahim Zahid əl-Gilani əl-Kurdi ibn Şeyx Talış Rövşən Əmirdir.

Ata-babaları XI əsrdə Xorasanı Səlcuqların istilası səbəbindən tərk edib Gilana sığınmışlar. Atası Rövşən Əmir Gilanda evlənərək Lənkəranın Siyavurud (indiki Siyavar) kəndinə köçmüş, əkinçiliklə məşğul olmuş və dindar həyatı yaşamışdır.

Şeyx Zahid 1215-ci ilin mart ayının 21-də Siyavurud kəndində anadan olmuşdur. Uşaq yaşlarından atası Rövşən Əmiri itirən İbrahim əmək fəaliyyətinə başlamış, XIV əsr tarixçisi Təvəkkülinin yazdığına görə, "Atasının ölümündən sonra "Aşiqe-hi" (çəltik sahəsi-talış dilindən tərcümədə) adlanan çəltik sahəsində palçıq və su içində son dərəcə çətin şəraitdə işləmişdir".[1]

Həm Pensər kəndindəki "Seyid Cəmaləddin"in məqbərəsi, həm də Lənkəranın Şıxəkəran kəndindəki "Şeyx Zahid" türbəsi bölgədə yaşayan sünni və şiələrin ortaq ziyarət yerləridir. Hər iki sufi şeyxinin sünni məzhəbinə mənsub olmasına baxmayaraq, bölgənin şiə əhalisinin də onları ziyarət etməsi, keçmişdən gələn tolerantlıq ənənəsinin davamı kimi görülməlidir.

### 4) Din xadimlərinin fədakarlığı

Apardığımız araşdırma nəticəsində məlum olmuşdur ki, bölgədəki tolerantlığın bir başqa səbəbi isə axund və imamların fədakarlığıdır. Xalqın bir-biri ilə mehriban və qardaş-

---

[1] Seyid Cəmaləddin və Şeyx Zahid Gilani haqda geniş məlumat üçün bax: Samid Quliyev, Şeyx Zahid, Haqqın Nuru qəzeti, 11-17 və s. 18-24 aprel 2014-cü il s. 6.

lıq şəraitində yaşaması üçün əlindən gələni əsirgəməyən din xadimləri bir növ iki tərəf arasında körpü rolunu oynayırlar. Birlikdə namaz qılmaq, məhərrəmlik mərasimlərini təşkil etmək və s. kimi vəhdətə səsləyən ideyalar məhz həmin din xadimlərinin zəhməti nəticəsində meydana gəlir.

Din xadimləri radikal düşüncəli insanların təzyiq və tənələrinə sinə gəlib xalqın arasında fitnə toxumunun əkilməsinə imkan vermirlər.

### 5) Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin birgə fəaliyyəti

Cənub bölgəsindəki tolerantlıq ənənəsinin qorunub saxlanılmasında ən böyük rollardan biri də Azərbaycanın dini durumu ilə yaxından bağlı olan iki qurumun - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə və Qafqaz Müsəlmanları İdarəsinə aiddir. Hər iki qurumun bölgə üzrə nümayəndəlikləri mövcud tolerantlığın davam etməsi üçün səy göstərirlər. Hazırda hər iki qurum sünni-şiə ayrı-seçkiliyinə yol vermədən bütün icmalarla sıx əlaqələr quraraq ortaya çıxa biləcək ixtilafların qarşısını almaq istiqamətində mühüm işlər görür.

## Bölgədəki tolerantlığı təhdid edən ünsürlər

Həzrət Peyğəmbər bir tərəfdən insanları Allahın dininə səsləyərkən, digər tərəfdən isə dində ifratçılığa qarşı çıxmış və möminləri mötədilliyə dəvət etmişdir. Dini terminolojidə *"dində ifrat və təfritdən uzaq orta yolu seçmək"* mənasına gələn mötədilliklə bağlı çoxlu ayə və hədislər vardır.

Qurani-Kərimin "**Beləliklə, Biz sizi orta bir ümmət etdik ki, siz insanlara şahid olasınız, peyğəmbər də sizə şahid olsun"** (Bəqərə, 143) ayəsi keçmiş ümmətlərdə var olan ifrat və təfritdən uzaq orta yolu, yəni mötədilliyi tövsiyə edir.

Həzrət Peyğəmbərin ibadət həyatını xanımlarından soruşan bəzi səhabələrin ifrat düşüncəsinə mənfi münasibət bildirən Rəsulullahın *"Sizi xəbərdar edirəm! Allaha and olsun ki, mən sizin aranızda Allahdan ən çox qorxan və Ona ən çox hörmət bəsləyənəm. Lakin bəzən oruc tuturam, bəzən tutmuram. Gecələri həm namaz qılır, həm də yatıram. Qadınlarla da evlənirəm. Kim mənim sünnəmdən üz çevirsə, o şəxs məndən deyildir"*[1] şəklindəki xəbərdarlığı möminlər üçün önəmli meyardır.

Bütün bunlara rəğmən müsəlmanlar arasında ifratçılığa yol verənlər tarix boyu olmuş və dövrümüzdə də mövcuddur.

Cənub bölgəsindəki nümunəvi tolerantlıq və qardaşlıq mühiti üçün ən böyük təhlükə ifratçılıqları ilə bilinən radikal ünsürlərdir. Ölkəmizin hər yerində olduğu kimi, cənub bölgəsində də son zamanlar radikal ünsürlər ortaya çıxmağa başlamışdır. Özlərindən başqa heç kəsi doğru yolda görməyən və hətta təkfir edən bu düşüncə mənsubları İslamın tövsiyə etdiyi mötədillikdən uzaq ifratçılıqları ilə bölgə sakinlərini narahat edirlər.

[1] Əbu Abdullah Məhəmməd ibn İsmail əl-Buxari, əs-Səhih, İstanbul, 1992, Nikah 1; Əbul-Hüseyn Müslim ibn Həccac ən-Nişaburi, əs-Səhih, İstanbul, 1992, Nikah 5.

## Nəticə

Azərbaycan tarix boyu müxtəlif dinlərə ev sahibliyi etmişdir. Son olaraq bu torpaqlar İslam ilə tanışmış, xalq heç bir zorakılıq olmadan könüllü şəkildə yeni dini qəbul etmişdir. İslamdan sonra belə, bölgədəki dinlər mövcudluğunu qorumuşdur.

Azərbaycan tarixinə nəzər saldıqda bu torpaqlarda yaşayan insanların başqalarına qarşı son dərəcə tolerant olduğunu görürük. Qeyri-müsəlmanlara, eləcə də onların ibadət ocaqlarına olan münasibət bunun ən gözəl örnəyidir.

Tarixən xalqımız tolerantlığı ilə dünyada məşhurdur. Bu ölkədə hər kəs istədiyi dini seçməkdə və həmin dinə uyğun ibadət etməkdə sərbəstdir. Heç kəs seçiminə görə təzyiqlə qarşılaşmır.

Bütün Azərbaycanda olduğu kimi, cənub bölgəsində də dini tolerantlıq yüksək səviyyədədir. İstər başqa din mənsublarına, istərsə də İslamın fərqli məzhəb nümayəndələrinə qarşı bəslənən tolerant münasibət əslində dünya üçün bir nümunədir.

Eyni rayon, eyni kənd və hətta eyni məhəllədə birlikdə yaşayan cənub əhalisi aralarındakı əqidə fərqliliyini heç vaxt ixtilaf səbəbi olaraq görmür, əksinə ortaq məqamlardan istifadə edərək birlikdə yaşamağın yollarını tapmağa çalışır.

Lakin son zamanlarda ortaya çıxan radikal ünsürlər bölgə əhalisi arasındakı nümunəvi tolerantlıq üçün təhlükə mənbəyi kimi görülə bilər. Ancaq bölgə əhalisinin vəziyyətin fərqində olması mövcud tolerantlığın davam edəcəyinə dair ümidimizi artırmaqdadır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Abbasova, Hökume, Tolerantlıq demokratik cəmiyyətin əsas elementi kimi, http://mim.ucoz.org/publ/16-1-0-28
2. Abbasova, Hökümə, Azərbaycan dövləti, xüsusilə Qərbdə formalaşan dinlərarası dialoq təcrübəsindən istifadə edir, http://www.paritet.az/olke/2766.html
3. Aslan, Ömər, Hoşgörü ve tolerans kavramlarına etimolojik açıdan analitik bir yaklaşım, s. 12, http://eskidergi.cumhuriyet.edu.tr/makale/325.pdf
4. Babaşlı, Məmmədəli, "Müasir dünya və islamın dözümlülük anlayışı", İslamda Dözümlülük, Beynəlxalq elmi-nəzəri konfransın materialları, Bakı, 2006.
5. Buxari, Əbu Abdullah Məhəmməd ibn İsmail, əs-Səhih, İstanbul, 1992.
6. Crantston, Maurice "Toleration" The Encyclopedia of Philosophy, Vol.8 ed. Paul Edwards, New York, Macmillan 1967.
7. Həbibov, Aslan Həbibov, "Əli və Nino romanında Əhli-beyt", Azərbaycan və Əhli-beyt irsi, Bakı, 2013.
8. İsmayılov, M. Ə., S. A. Məmmədov, "Şimali Azərbaycanın Çar Rusiyası tərəfindən işğalı", Azərbaycan Tarixi, (Z.M.Bünyadov və Y.B. Yusifovun redaktəsi ilə), s. 577-579.
9. Quliyev, Samid, Şeyx Zahid, Haqqın Nuru qəzeti, 11-17 və s. 18-24 aprel 2014.
10. Lalande, Andre, Vocabularie Technique et Critique de la Philosopic, Paris, 1980, s. 1133.
11. Məmmədov, İsmail, Azərbaycan tarixi, Bakı, Adiloğlu nəşriyyatı, 2005
12. Məmmədyarov, Şünasi Məmmədyarov, 'İslam dövlətçiliyi tarixində dözümlülük ənənələri', İslamda Dözümlülük, Beynəlxalq elmi-nəzəri konfransın materialları, Bakı, 2006.

13. Müslim, Əbul-Hüseyn ibn Həccac ən-Nişaburi, əs-Səhih, İstanbul, 1992.
14. Paşazadə, Allahşükür, Qafqazda İslam, Bakı, Azərnəşr, 1991, s. 35-42.
15. Saraç, Tahsin, Büyük Fransızca-Türkçe Sözlük, "*Tolérance*" md., İstanbul 1985.
16. Şükürov, Kərim, Yəhudi diasporu: yaranma tarixi və xüsusiyyəti, http://www.publika.az/index.php?action=static_detail&static_id=19678
17. Yılmaz, Hüseyin, "Hz. Peygamber›in eğitiminde bir ilke olarak hoşgörü", Cumhuriyet Üniversitesi İlahiyat Fakültesi Dergisi, Cilt: VIII / 1, Hazəran 2004, Sivas.
18. http://az.wikipedia.org/wiki/Kalinovka
19. http://az.wikipedia.org/wiki/G%C3%B6yt%C9%99p%C9%99
20. http://www.azerbaijans.com/content_500_az.html

# AZƏRBAYCANDA BƏHAİLİYİN TARİXİ VƏ BU GÜNÜ

**Elməddin ABDULLAYEV**[1]

## Giriş

Bəhailik XIX əsirin ikinci yarısında yaranmış dini cərəyandır. Bəzi tədqiqatçılar bəhailiyi müstəqil və dünyəvi din olaraq qəbul etsə də, əksər araşdırmaçılara görə, bu cərəyan müstəqil din deyil, İslam məzhəblərindən biridir. Mənsubları tərəfindən sonuncu din kimi qəbul edilən bəhailik bu gün dünyanın 234 ölkəsində yaşayan 2100-ə qədər millət, xalq və etnik qrupu əhatə edən altı milyondan çox insanı özündə birləşdirir.[2]

Bəhailiyin tarixini öyrənmək üçün şiə məzhəbi içində yaranmış sufi hərəkatı olan şeyxilik və daha sonra bu hərəkatdan ayrılmış babiliyi araşdırmaq lazımdır.

Şeyxiyyə hərəkatı Şeyx Əhməd Əhsai (v.1241/1826) tərəfindən qurulmuşdur. Əhsai Bəhreynin Əhsa şəhərində doğulmuş və boya-başa çatmışdır. O, qırx yaşında ikən Kərbəla və Nəcəfə gələrək burada məşhur şiə alimlərindən olan Ağa Baqir Behbəhani, Seyid Mehdi Bəhrul-Ulum, Şeyx Cəfər Kaşiful-Ğitadan dərs almış, fiqh, üsul və hədis elmləri ilə yanaşı, tibb, astronomiya, riyaziyyat və s. dəqiq elmlərə də yiyələnmişdir. Şeyx Əhməd Əhsai 1221-ci ildə İrana gələrək öz görüşlərini burada yaymağa başlamışdır.[3] Əhsaiyə görə, on ikinci imam Mehdi birinci qeybə çəkilmə dövründə (qeybəti-suğra) xüsusi naiblər vasitəsi ilə xalqla irtibatda olmuşdur. İkinci qeybə çəkilmə dövründə (qeybəti-kubrada) isə onun xüsusi naibləri olmamışdır, lakin hər zaman imamla birbaşa təmasda olan insanlar olmuş

[1] Uludağ Universitetinin doktorantı (Bursa/Türkiyə).

[2] Azər Cəfərov, Bəhai dini Azərbaycanda, Bakı, Təhsil, 2004, s. 4. Qeyd edək ki, müxtəlif mənbələrdə bəhailərin sayı ilə əlaqədar 2-8 milyon arası fərqli rəqəmlər səsləndirilir.

[3] Mehmet Demirci, "əl-Ahsai", TDV (Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi), İstanbul, 1989, c. 2, 177-178.

və xalq ilə imam arasında bağ rolunu oynamışdırlar. O, iddia edirdi ki, Həzrət Məhəmmədin həqiqət nuru özündən öncəki peyğəmbərlərdə qismən, özündə və özündən sonra gələn on iki imamda isə tam şəkildə təcəlli etmişdir. Bu nur min il keçdikdən sonra təkrar bu dəfə Əhsainin özündə, daha sonra isə müridi Seyid Kazım Rəştidə (1843) ortaya çıxmışdır.[1]

Əhsaiyə görə, həqiqət nurunun öncə Məhəmməd peyğəmbərdə, sonra imamlarda, daha sonra isə özündə və müridi Rəştidə təcəlli etməsi eyni varlığın fərqli formalarda təzahürü deməkdir. Bu həqiqət nuru isə Allahın öz varlığıdır. Çünki Allah yalnız peyğəmbər və imamlar vasitəsi ilə dərk edilə bilər. İmamlar Allahın dərk edilməsi ilə bilinməyən gizli sirlərin idrakına açılan qapı (bab) rolunu oynayırlar. Başqa ifadə ilə desək, həqiqətin idrakı Allahın idrakı ilə mümkündür. Həqiqətin idrakı üçün imamlar xalq ilə Allah arasında vasitə rolu oynayırlar. İmamlardan sonra bu vəzifənin icrası "kamil şiə" sifətinə sahib Əhsai və Rəştinin üzərinə düşmüşdür.[2]

Kazım Rəşti isə rəhbərliyi dövründə İmam Mehdinin zühurunun yaxınlaşdığını iddia edərək özündən sonra canişin təyin etməmiş və müridlərinə onu tapanadək boş durmayıb axtarmağı əmr etmişdir. O, tələbəsi Molla Hüseyn Buşruyəyə görüşlərini yaymağa göstəriş vermişdir. Rəşti öldükdən sonra Molla Hüseyn bu məqsədlə Şiraza gələrək burada Kazım Rəştinin tələbələrindən Seyid Əli Məhəmmədlə görüşmüşdür. 1844-cü ilin oktyabr ayında baş vermiş bu görüş zamanı Seyid Əli Məhəmməd İmam Zamanın zühurundan əvvəl onun müjdəçisi və xalqla onun arasında qapı (bab) rolu oynayacaq şəxs olduğunu elan etmiş və Molla Hüseyndən ona beyət etməsini istəmişdir. Beləliklə, Rəştinin ölümündən sonra şeyxlərin bir qismi Seyid Əli Məhəmmədi özlərinə rəhbər

---

[1] Ethem Ruhi Fığlal – Ramazan Şimşek, Bahalik ve el-Kitabul-Akdes, Ankara Univerisitesi Mezhep Araştırmaları, Ankara - 2010, c. III, s. 9.

[2] Azər Cəfərov, Bəhai dini Azərbaycanda, Bakı, 2004, s. 12.

seçərək "babilər", digər qismi isə "kamil şiə" anlayışı əsasında Kermanlı Hacı Kərim Xanı özlərinə rəhbər seçərək "şeyxlər" adlandırılmışdırlar.[1]

Babiliyin qurucusu Seyid Əli Məhəmməd 20 oktyabr 1819-cu ildə Şirazda dünyaya gəlmişdir. Valideynlərini erkən yaşlarında itirən Seyid Əli Məhəmməd dayılarının himayəsində böyümüşdür. O, özünü bab elan etdiyi ilin payızında Məkkəyə gedərək orada (başqa bir görüşə görə Məsqət şəhərində) özünü zühuru gözlənilən Mehdi olduğunu bildirdi. Onun bu iddiası ilk olaraq 18 yaxın dostu tərəfindən qəbul edildi və onlara əbcəd hesabı ilə "hurufatul-həyy" (8+10 = حي) deyildi.[2] Seyid Əli Məhəmmədin bu iddiası daha sonralar onu qəbul edənlərlə etməyənlər arasında silahlı qarşıdurmalara səbəb oldu. Babın dəvətçiləri İranı başdan-başa gəzərək İmam Mehdinin zühur etdiyi müjdəsini verməyə başladılar. Seyid Əli Məhəmməd Məkkədən Şiraza qayıtdıqda isə Məhəmməd Şah Qacarın (1808-1848) ordusu tərəfindən tutularaq həbs edildi. Bu hadisə gərginliyi daha da artırdı. Seyid Əli Məhəmməd 1846-cı ildə Şirazdakı həbsxanadan qaçaraq İsfahana gəldi və şəhər valisi tərəfindən yüksək səviyyədə qarşılandı. O, burada olarkən tərəfdarları ilə görüşlər keçirir və alimlərlə müzakirə və mübahisələr aparır və öz missiyasını çatdırmağa çalışırdı. 1847-ci ildə İsfahan valisi öldükdən sonra onun yerinə keçən yeni vali şaha sədaqət nümayişi olaraq Seyid Əli Məhəmmədi bir dəstə silahlı əsgərin nəzarəti altında Tehrana göndərdi. Keşnəyə çatdıqda Mirzə Cani Kaşani adlı bir tacir əsgərlərə rüşvət verərək Seyid Əli Məhəmmədi iki gün evində qonaq saxladı. Sonralar babiliyin təbliğatçılarından olan Mirzə Cani, eyni zamanda babilik hərəkatının ən dolğun tarixini qələmə aldı. "Noktatul-Kaf" adlanan bu kitab 1910-cu ildə Edvard Braun və Məhəmməd Qəzvini tərəfindən tədqiq olunaraq nəşr edildi.[3]

---

[1] Ethem Fığlalı, "Bahailik", TDV, Ankara, 1991, c, 4, s. 465.

[2] Ethem Fığlalı, "Bahailik", TDV, Ankara, 1991, c, 4, s. 465.

[3] Ethem Ruhi Fığlal – Ramazan Şimşek, Bahalik ve el-Kitabul-Akdes, Ankara Univerisitesi Mezhep Araştırmaları, Ankara, 2010, c. III, s. 13.

Babın tərəfdarları Tehranda onu qarşılamaq üçün səfərbər oldular. Onların arasında daha sonra bəhailiyi quracaq Bəhaullah ləqəbli Mirzə Hüseyn Əli Nuri də var idi. Babın Tehrana gəlməsinin təhlükəli olduğunu anlayan şah onun şəhərə girməsinə izin vermədi. Seyid Əli Məhəmməd İranın ucqar qərb hissəsinə sürgün edildi. Bu sürgün üsyanın yatırılmasına səbəb olmadı, əksinə onu daha da şiddətləndirdi. Xəzər dənizinin sahilində yerləşən Mazandaran şəhərində 300 silahlı Bab tərəfdarı ilə müsəlmanlar arasında şiddətli qarşıdurma yaşandı və çoxlu sayda insan tələf odu. Daha sonra babilər meşəyə sığınaraq burada 2000-dən çox Bab tərəfdarının toplandığı qala tikdilər. Onların məqsədi hökuməti ələ keçirərək babi hakimiyyəti qurmaq və babiliyi bütün dünyaya yaymaq idi.

Şah üsyanı yatırtmaq məqsədi ilə qalaya ordu göndərdi. Babilər bir neçə ay şah ordusuna qarşı böyük cəsarətlə vuruşdular. Nəhayət, qala mühasirəyə alındı və təslim olan 230 nəfərdən başqa hamısı öldürüldü.

Zəncanda da baş vermiş babi üsyanı şahın 30 minlik ordusu tərəfindən yatırıldı. Tehranda isə üsyan baş verməsinin öncədən qarşısını almaq məqsədilə hökumət buradakı məşhur babi dəvətçiləri həbs etdi. Onlardan Babı inkar etmələri tələb olundu, əks-təqdirdə öldürüləcəkdilər. Dəvətçilərdən 31-i Seyid Əli Məhəmmədi inkar etsə də, yeddisi ona olan sədaqətindən geri addım atmadı və liderləri uğrunda canlarını qurban verdilər.[1]

Seyid Əli Məhəmməd tərəfdarlarına savaş əmri verməsə də, ardıcılları ona Mehdi inancı ilə baxdıqları üçün onun uğrunda ölməyi özlərinə borc bilirdilər. Bu isə hökumətin Baba və babiliyə qarşı daha ciddi addımlar atmasına səbəb oldu. Beləliklə, Seyid Əli Məhəmmədin kafir olması haqqında fətva verildikdən sonra 28 iyul 1850-ci ildə güllələnərək edam edildi. Tərəfdarları Seyid Əli Məhəmmədin cəsədini Tehrana apararaq orada torpağa basdırdılar. Daha sonra isə onun məzarı

---

[1] Ethem Ruhi Fığlal, Ramazan Şimşek, eyni əsər, s. 16.

Bəhaullahın əmri ilə İsrailin Hayfa şəhəri yaxınlığındakı Kermil dağına aparılaraq orada dəfn edildi.

Öncə qeyd etdiyimiz kimi, özünü Həzrət Mehdinin müjdəçisi, daha sonra isə Mehdi elan edən Seyid Əli Məhəmməd "əl-Bəyan" adlı əsərində "Allah öncə Məhəmmədi, daha sonra da məni göndərdi" deyərək peyğəmbərlik iddiası etmiş, "əl-Bəyan" adlı əsəri vasitəsi ilə Qurani-Kərimin nəsx olunduğunu və beləliklə, İslam şəriətinin ləğv edilərək yerinə "əl-Bəyan"dakı qanunların icra edilməsinin vacibliyini bildirmişdir.

## Bəhailiyin doğuşu

Seyid Əli Məhəmməd ölümündən əvvəl vəsiyyət yazaraq Mirzə Yəhya Sübhi-Əzəli özündən sonra rəhbər təyin etdi. Mülayim təbiətə sahib Sübhi-Əzəl silahlı üsyanın dərhal dayandırılmasını əmr etdi. Daha sonra ölkədə səyahətə çıxaraq babilik təlimlərini təbliğ etməyə başladı. Onun göstərişlərinə baxmayaraq 1852-ci ildə bir qrup babi Seyid Əli Məhəmmədin intiqamını almaq məqsədilə şahı öldürməyə təşəbbüs etdilər. Bu hadisədən sonra babilər şahın ciddi qəzəbinə tuş gəldilər. Hərəkatın liderləri yaxalanaraq Tehrana gətirildi və onlardan 28-i qorxunc şəkildə öldürüldü. Onların arasında Mirzə Cani də var idi. Liderlərin ölüm əsnasında göstərdikləri cəsarət ölkədə böyük rəğbət qazandı. Hakimiyyət Sübhi-Əzəli də yaxalamağa çalışsa da, o, qaçaraq canını qurtardı və Bağdada yerləşdi. Yaxalananlar arasında Sübhi-Əzəlin ögey qardaşı Mirzə Hüseyn Əli Nuri (Bəhaullah) da var idi. O, dörd ay həbsdə qaldıqdan sonra sərbəst buraxıldı və 1852-ci ilin sonlarında Bağdada gedərək qardaşına qoşuldu.

Sülhsevər, sakit təbiətli və liderlik qabiliyyəti zəif olan Sübhi-Əzəl işlərin idarəsini özündən daha qətiyyətli olan böyük qardaşına həvalə etdi. Babiliyin aparıcı qüvvəsinə çevrilən Bəhaullah Sübhi-Əzəldən 13 yaş böyük idi. O, babilik

təlimində dəyişiklik etməyə başladı, bu isə babilər tərəfindən xoş qarşılanmadı. Bunu görən Bəhaullah Bağdadı tərk edərək Süleymaniyyə dağlarına çəkilərək iki il burada yaşadı. Qardaşının yerini müəyyənləşdirən Sübhi-Əzəl ona məktub yazaraq geri dönməsini əmr etdi. 1863-ci ilədək Bağdadda qalan bəhailər aktiv fəaliyyət göstərir və İraqdakı müqəddəs ocaqları ziyarətə gələn iranlıları öz hərəkatlarına qoşulmağa dəvət edirdilər.



*Sübhi-Əzəl oğulları ilə birlikdə*

Bu müddət ərzində Sübhi-Əzəlin özünə katib təyin etdiyi Dəyyan adlı şəxs zühuru Bab tərəfindən müjdələnmiş "Mən yuzhiruhullah" (Allahın izhar edəcəyi şəxs) olduğunu iddia etdi. İddiasından geri çəkilməyən Dəyyan digər babilər tərəfindən öldürüldü.

Babilərin fəaliyyətindən narahat olan İran hakimiyyəti Osmanlılardan babilərin ekstradisiyasını və ya İran sərhədlərindən daha uzaq bir yerə sürgün edilməsini istədi. Bu tələbi məmnuniyyətlə qarşılayan türklər babiləri 1863-ci ilin yazında İstanbula, burada dörd ay qaldıqdan sonra isə Ədirnəyə sürgün etdilər. Onlar Ədirnədə beş il qaldılar.

Babilik və bəhailik haqqında geniş tədqiqatlar aparan Edvard Braunun da işarə etdiyi kimi, bu dövrdə demək olar ki, bütün babilər sürgün həyatı yaşayırdılar.[1] Belə bir şəraitdə hərəkatı idarə edə bilmək üçün daha güclü, daha qətiyyətli və daha iradəli liderə ehtiyac duyulurdu. Bu imtiyazlara sahib olan Bəhaullah Ədirnəyə gəldikdən üç il sonra özünü Babın vəd etdiyi “Mən yuzhiruhullah” olduğunu bildirdi və bütün bəhailəri itaət etməyə çağırdı. Sübhi-Əzəl onun dəvətini ölənədək qəbul etmədi. Bu səbəblə bəhailər Sübhi-Əzələ nifrət bəsləyirlər. Çünki bəhailərin iddiasına görə, Bab ona vəsiyyətində “Mən yuzhiruhullah əgər sənin sağ olduğun vaxtda zühur edərsə, ona iman et” demişdi. Sübhi-Əzəl isə bunu etmədi və ona verilmiş əmrə xəyanət etdi. Qeyd edək ki, Sübhi-Əzələ qarşı olan nifrəti Bakı bəhailəri ilə apardığımız söhbətlər zamanı açıq şəkildə hiss etdik.

Bəhaullah sadəcə babiləri deyil, İran şahına, Osmanlı sultanı Əbdüləzizə, Rus çarı II Aleksandra, Fransa imperatora III Napoleona, Papa IX Piusa, İngiltərə kraliçası Viktoriyaya və bir çox qonşu dövlətlərin başçılarına məktub yazaraq ona iman gətirməyə çağırdı. Bu çağırışdan qəzəblənən Sultan Əbdüləziz Sübhi-Əzəli və ona sadiq qalan azsaylı tərəfdarını Kiprə, Bəhaullah Mirzə Hüseyn Əlini və tərəfdarlarını isə Akka qalasına heç kimlə görüşməmələri və başqa bir yerə getməmələri şərti ilə sürgün etdi.

---

[1] Abdu`l-Baha, A Traveller›s Narrative Written to Illustrate the Episode of the Bab, Translated by Edward G. Browne, Cambridge, U.K., 1891, s. 14.

Bəhaullah və təxminən 70 nəfərdən ibarət tərəfdarı 30 avqust 1868-ci ildə Akkaya gəldilər və burada iki il ciddi nəzarət altında qaldılar. Daha sonra şəhər kənarında geniş baxçalı bir saraya köçdülər. Onların buradakı məsrəfləri İran bəhailəri tərəfindən göndərilən yardımlar və bəxşişlər vasitəsi ilə ödənilirdi.




*Mirzə Hüseyn Əli Nuri (Bahaullah)*

Zamanın çox hissəsini gələn qonaqları qarşılamaqla və tərəfdarlarına məktublar yazmaqla keçirən Bəhaullah 29 may 1892-ci ildə dünyasını dəyişdi və Akka şəhərində dəfn olundu.

Bəhaullahın "Kitabi-əqdəs"də qeyd etdiyi kimi, ölümündən sonra yerinə əsərlərini şərh və izah edərək açıqlamaq və cərəyanı qorumaq (mühafizə etmək) üçün oğlu Abbas Əfəndi (Əbdülbəha-Bahanın qulu) bəhailərə rəhbərlik etməyə başladı. Əbdülbəha 23 may 1844-cü ildə Tehranda doğulmuşdu. Uşaqlıq illərindən atasının ölümünədək onun yanından ayrılmadı və bəhailiyin təbliğində aktiv iştirak etdi. Öz rəhbərliyi zamanında isə xüsusən 1908-ci ildə Türkiyədə məşrutə dövrünün başlamasından sonra bəhailiyin Misir, Avropa və Amerikada yayılmasına çalışdı və bu məqsədlə səfərlərə çıxdı. Birinci Dünya Müharibəsi illərində dünyada sülhün bərqərar edilməsi üçün göstərdiyi səylərinə görə, 1920-ci ildə İngiltərə hakimiyyəti tərəfindən "cəngavərlik" rütbəsi ilə təltif olundu. Onun rəhbərliyi dövründə bəhai kitabları dünyanın müxtəlif dillərinə tərcümə edildi. Aşqabadda 1902-ci ildə təməli atılan Məriqul-Əzkar məbədinin inşası tamamlanaraq istifadəyə ve-

rildi. Əbdülbəha 28 noyabr 1921-ci ildə dünyasını dəyişdi və Kermil dağında Babın məzarı yanında dəfn olundu.

Əbdülbəha ölümündən əvvəl böyük qızından olan böyük nəvəsini, Şövqi Əfəndini bəhailərin mənəvi lideri, bəhai kitablarının şərhçisi və bəhailiyin qoruyucusu təyin etdi. Şövqi Əfəndi 1 mart 1897-ci ildə Akkada dünyaya gəlmişdi. Uşaqlıq illərində evlərinə gələn italyan bir xanımdan təlim-tərbiyə almışdı. Daha sonra Hayfa şəhərində "Qardaşlar" adlı xristian məktəbində təhsil almağa başladı. Hayfadan Beyruta gedərək katoliklərə aid bir məktəbdə təhsilini davam etdirən Şövqi Əfəndi daha sonra Amerika kollecinə daxil oldu. Kollecdə təhsilini tamamladıqdan sonra məşhur Oksford universitetində təhsil almaq üçün Londona getdi. 1937-ci ildə bəhailiyi qəbul etmiş amerikalı Maksvel ailəsinin qızı Mari Maksvel (daha sonra Ruhiyyə adını aldı) ilə evləndi. Bəhailiyin dünyada yayılması üçün ciddi səylər göstərdi. Kitablar yazdı, bəhailik haqqında dərslər verdi. 4 noyabr 1957-ci ildə Londonda vəfat etdi və burada da dəfn olundu. Şövqi Əfəndinin övladı olmadığı üçün bəhailiyin idarəçiliyini "Allah əmrinin əlləri" (əyadi-əmrullah) adlanan 27 köməkçiyə həvalə etdi. Beləliklə, əsasları Bəhaullah tərəfindən açıqlanan Abbas Əfəndi tərəfindən icra edilməyə başlayan bəhailiyin möhtəşəm idarəçilik sistemi olan Ədalət evi və məhfillər sistemi formalaşdı.

Yerli ruhani məhfillər bəhailərin mövcud olduqları şəhərlərdə, bölgələrdə və ya qəsəbələrdə hər il Rizvan bayramının birinci günündə (21 aprel) doqquz nəfəri seçki vasitəsi ilə məhfilə üzv seçirlər. Seçkilər gizli və namizədlik irəli sürülmədən həyata keçirilir. Səsvermədə və seçkilərdə 21 yaşdan yuxarı yerli kişi və qadın bəhailər iştirak edirlər. Hər on doqquz gündən bir bütün icma üzvləri ibadət etmək, məsləhətləşmək və qarşılıqlı dostluq əlaqələrini möhkəmləndirmək məqsədi ilə toplanırlar. Əgər bir icmanın üzvləri həddindən artıq çox olarsa, şəhərin müxtəlif yerlərində eyni vaxtda, eyni məqsədlərlə müxtəlif yığıncaqlar

keçirilə bilər. "On doqquzuncu gün görüşləri" hər bir bəhaiyə icmanın işlərinə dair öz rəyini söyləmək, onu başqa bəhailərlə müzakirə emək və məhfilə öz tövsiyələrini vermək imkanı yaradır. Bu görüşlər sayəsində yerli bəhainin təklifi milli məhfilə və hətta Ümumdünya Bəhai Ədalət Evinə də göndərilə bilər.

Yerli bəhailər bu görüşlərdən başqa il ərzində keçirilən doqquz bayram günləri və Əbdülbəhanın həyatı ilə əlaqədar iki ildönümü zamanı da eyni formada toplanırlar.

Milli ruhani məhfillər isə bəhailərin mövcud olduğu ölkələrdəki mərkəzdir. Milli məhfil üzvlüyünə ikimərhələli seçkilər vasitəsi ilə doqquz nəfər seçilir. Seçkilər ildə bir dəfə Rizvan bayramının on ikinci günü (mayın ikisi) həyata keçirilir. Yerli məhfillər tərəfindən ölkədəki bütün bəhailər arasından gizli səsvermə yolu ilə seçilən müəyyən sayda namizədin doqquz nəfəri bir il müddətinə milli ruhani məhfilin üzvü seçilir. İkinci seçkini on doqquz nəfərdən ibarət nümayəndə heyəti həyata keçirir. Milli ruhani məhfil bəhai icmalarının işlərinin idarə olunması və milli miqyasda onların bütün fəaliyyətlərinin təşkili üçün məsuliyyət daşıyır.

Dünya bəhailərinin əsas mərkəzi olan və ümumdünya bəhailərini təmsil edən Allahın Uca Ədalət Evi İsrailin Hayfa şəhərində yerləşir. Milli ruhani məhfil üzvləri hər beş ildən bir Allahın Uca Ədalət Evinə doqquz nəfərdən ibarət üzv seçirlər. Bəhai dünyasının ən rütbəli insanları olan bu doqquz nəfərin "Kitabul-əqdəs"də mövcud olmayan yeni hökmlər vermə və qanunlar qoyma haqqları var. "Kitabul-əqdəs"dəki hökmləri dəyişdirməyə isə ixiyarları yoxdur. Verilən qərarlarda məsum (xətasız) hesab edilən Allahın Uca Ədalət Evi ümumdünya bəhailərin mənəvi sığınacaq, dini və ictimai problemlərinin həll edildiyi yeganə yerdir.[1]

Allahın Uca Ədalət Evinin üzvləri dünya bəhailərinin işlərini idarə etmək üçün hər beş ildən bir müşavirlər təyin edirlər.

---

[1] N. Özşüca, Bahai dini, Ankara, 1967, s. 47.

Bəhai icması tərəfindən hazırlanaraq 1998-ci ildə nəşr edilən məlumat kitabçasında qeyd olunur ki, hazırda müşavirlərin sayı 81 nəfərdir. Onlardan 9-u Hayfada, qalan 72-i digər qitələrdə (Afrikada 18, Asiyada 18, Şimali və Cənubi Amerikada 17, Avropada 10, Avstraliya və Okeaniyada 9) fəaliyyət göstərir.

Qitə kollegiyasının hər müşaviri beş il müddətinə yerli ruhani məhfillərə və ayrı-ayrı bəhailərə məsləhət və mükafatlar verilməsində müşavirlərə yardım göstərmək məqsədi ilə köməkçi kollegiya üzvləri təyin edirlər. Hazırda köməkçi kollegiya üzvlərinin sayı 702 nəfərdir.[1]

Qeyd edək ki, bütün seçkilər gizli səsvermə yolu ilə keçirilir. Namizədlər irəli sürülmür. Seçkiqabağı kampaniyalar və fraksiyaların yaradılması qadağandır. Hər bir seçici seçki bülletenində bəhai icmasının danılmaz düzgünlüyü, sədaqəti, sağlam ağlı, qabiliyyəti və təcrübə keyfiyyətlərinə görə, doqquz nəfərin soyadını yazmalıdır. Ən çox səs toplamış doqquz nəfər seçilir.



*1963-cü ildə Allahın Uca Ədalət Evinə seçilən ilk doqquz üzv*

[1] Bəhai icması; təməli, məqsədi və niyyəti, Bakı, 1998, s. 18-19.

Məhfil üzvlüyündən imtina etmək üçün ciddi səbəb olmadıqda yeni seçilmiş üzvlər onlara göstərilmiş etimadı qəbul etməyə və vəzifələrini yerinə yetirməyə borcludurlar.[1]

## Bəhailiyin əsas prinsipləri

Bəhailərin üç əsas prinsipi var: Allah birdir; bəşəriyyət birdir; bütün dinlərin əsası birdir. Bu prinsiplərə əlavə olaraq dini mətnlərdən və liderlərin görüşlərindən çıxarılan başqa prinsiplər də mövcuddur:

Bəhailik Allahın və Onun peyğəmbərlərinin birliyini qəbul edir, azad fikirliliyi dəstəkləyir, həqiqət axtarışını heç bir vəchlə məhdudlaşdırmır və müstəqil axtarışı təşviq edir, təəssübkeşlik, mövhumat və xurafatı pisləyir, bütün ruhani təlimlərin əsas məqsədini sülhə və əmin-amanlığa nail olmaqda görür, elm və dini əməkdaşlığa çağırır, kişi və qadının bərabər hüququnu qəbul edir, icbari təhsil prinsipini tətbiq edir, ifrat yoxsulluğun və varlılığın ləğv edilməsi yollarını göstərir, insanlara xidmət ruhunda görülən işi Allaha sitayiş səviyyəsinədək yüksəldir, dini xadim institutunu (molla, keşiş, ravvin və s.) qəbul etmir, xalqlararasındakı ünsiyyətdə xüsusi köməkçi dildən istifadə edilməsinə çağırır, ümumi sülhün yaradılması və saxlanılması yollarını göstərir.

Bəhailərin təqvimi Günəş ili əsasında - baharda gecə-gündüzün bərabərləşdiyi vaxtdan - Avropa təqviminə görə, bir qayda olaraq martın 21-dən başlayır. Bəhai ili hər biri on doqquz gündən ibarət on doqquz aya bölünür. Bəhai erası öz başlanğıcını 1844-cü ildən, yəni Babın öz missiyasını elan etdiyi ildən götürür. Bəhai ilini Günəş ilinə uyğunlaşdırmaq üçün ona hər ildə dörd gün (uzun ildə isə beş gün) əlavə olunur. Bu əlavə günlər on səkkizinci ayla on doqquzuncu ayın arasına təsadüf edilir. "Əyyami-ha" adlanan bu əlavə günlər bəhailər

[1] Bəhai icması; təməli, məqsədi və niyyəti, Bakı, 1998, s. 19.

tərəfindən qonaqpərvərlik və hədiyyə vermə günləri kimi dəyərləndirilir. On doqquzuncu ay isə orucluq ayıdır.

Azərbaycan bəhailərinin rəsmi saytlarında orucluq haqda verilən məlumata görə, bəhailər hər il mart ayının 2-dən 20-dək on doqquz gün ərzində, gün çıxandan batanadək oruc tuturlar.

On beş yaşınadək olan uşaqlar və yaşı yetmişi keçmiş yaşlılar, xəstələr, hamilə qadınlar və uşaq əmizdirən analar, səfərdə olanlar və ağır fiziki əməklə məşğul şəxslər oruc tutmaqdan azaddırlar.[1]

Bəhailərə görə, bayram günləri işləmək haramdır. Azərbaycan bəhailərinin rəsmi saytlarında deyilir ki, bu günlərdə bəhailərə işlərindən icazə verilmədiyi hallar istisna olmaqla, Rizvanın konkret 3 günü və qalan bütün əsas müqəddəs günlərdə bəhailər işə çıxmamalıdırlar. Mümkün olduqda bu günlərdə uşaqlar da məktəbə getmirlər. Bütün bəhailər bu günləri sevinc hissi ilə qeyd etməlidirlər.[2]

Bəhailərin əsas müqəddəs hesab etdikləri yer İsrailin Hayfa və Akka şəhərləridir. Bəhaullah dünyasını dəyişmədən öncə bu məkanları müqəddəs elan etmişdir. Bu region hazırda bəhailiyin ruhani və inzibati mərkəzidir.

## Bəhailiyin Azərbaycana gəlişi

Azərbaycan babilik və bəhailiyin tarixində xüsusi əhəmiyyətə malikdir. Cənubi Azərbaycan babilik və bəhailiyin vətəni hesab olunur. Şimali Azərbaycanda isə bəhailik xalq tərəfindən xoş qarşılanmasa da, hazırda da çox az sayda mənsubu olsa da, XIX əsrin sonları və XX əsrin əvvəllərində doğma vətənimizdə müəyyən nailiyyətlər əldə etdiklərini söyləyə bilərik. Babilik hərəkatı ilk dövrlərdən Şimali Azərbaycana da öz təsirini

[1] Əlavə məlumat üçün bax: http://www.bahai.az/index.php/az/menyu-6/2013-01-26-08-14-27/2013-01-26-08-14-25

[2] http://www.bahai.az/index.php/az/menyu-6/2013-01-26-08-14-28/2013-01-26-08-14-27

göstərmişdir. Məhəmməd Səid Ordubadi "Həyatım və mühitim" adlı əsərində Ordubaddakı məzhəb qarşıdurmalarından danışarkən şeyxilik təriqətinin qurucusu Əhsainin tələbəsi Ağa Əli və Babın iki tələbəsi Molla Sadıq Vənəndli və Ağa Mir Kərimin adlarını qeyd edir və Ağa Əlinin onlara qarşı mübarizə apardığını bildirir. Ordubadi sözlərinin davamında deyir:

"Bab, İranda öz təriqətini elan etdiyi bir vaxt, Molla Sadıq da Vənənd kəndində eyni təriqəti elan edir və minlərlə əhalini ətrafına toplamağa müvəffəq olur".[1]

Ordubadinin bu sözlərindən məlum olur ki, Bab öz peyğəmbərliyini elan etdikdən sonra tələbələrini Şimali Azərbaycana göndərərək öz ideologiyasını burada yaymağa çalışmış, minlərlə insan ona inanmış və üsyan etmişdir. Rusiya hökuməti Behbudov adlı bir generalı beş min nəfərlik ordu ilə Ordubad babilərinin üzərinə göndərmiş və üsyana liderlik edən Molla Sadıq Vənəndli həbs edilmişdir.[2] Daha sonra Molla Sadığın missiyasını Ağa Mir Kərim davam etdirmişdir.

Hələ Bəhaullahın zamanında bəhailik Şimali Azərbaycanda, xüsusilə Bakıda, Naxçıvanda, Balaxanıda, Gəncədə, Bərdədə, Göyçayda, Salyanda, Xıllıda (indiki Neftçalada), Şəkidə, Şamaxıda və s. yerlərdə öz ardıcıllarını tapmış və bu bölgələrdə yerli bəhai ruhani məhfilləri fəaliyyət göstərməyə başlamışdır.[3]

Bakı şəhəri Bəhai dini icmasının nümayəndəsi Ramazan Əsgərli ilə söhbətimizdə onun da ifadə etdiyi kimi, Azərbaycan (Cənubi və Şimali Azərbaycan birlikdə) bəhailiyin İrandan sonra ikinci vətəni hesab edilə bilər və bu dinin yaranmasından keçən 170 ildə onun inkişafı ölkəmizlə sıx bağlı olmuşdur. Azərbaycan bəhailəri bəhailiyin tarixində xüsusi yerə malikdirlər. Bakı və Balaxanı icmaları bu mənada xüsusi ilə

[1] M. S. Ordubadi, Həyatım və mühitim, tərtib edən: İsa Həbibbəyli, Naxçıvan, 2012, s. 24.

[2] M. S. Ordubadi, eyni əsər, s. 24.

[3] Səlahəddin Eyyubov, Bəhai dini Azərbaycanda və ya bütün dinlərdə vəd edilmiş kəsin zühuru, Bakı, Ekspress Nəşriyyatı, 2013, s. 49.

qeyd olunmalıdır. Bu icmalar ən qədim bəhai icmalarındandır. Azərbaycan bəhai icmaları yaranan gündən insanları elmi tərəqqiyə, təlim-tərbiyəyə çağırmışdır.

Əbdülbəhanın dövründə baş vermiş bir hadisə ölkəmizdə o dövrlər bəhailiyi qəbul edənlərin səmimiyyətini göstərir. Bakıda bəhailiyi yenicə qəbul edənlərdən biri Molla Abu Talıb və onun iki oğlu Əli Əşrəf və Ağabala idilər. Hər iki qardaş bənna olublar. Bakıya Əbdülbəhanın Karmel dağında Babın məqamının tikintisinə başlaması haqqında xəbər çatdıqda Abu Talıb və iki oğlu öz xidmətlərini Əbdülbəhaya təklif ediblər. Onların təklifləri qəbul olunur. Abu Talıb oğlanları ilə birlikdə Hayfaya gedərək Babın məqamının tikintisində iştirak ediblər. Böyük zəhmətlərinə görə, Əbdülbəha Babın məqbərəsinin iki qapısına onların adını veriblər.

Əli Əşrəf və Ağabala Bakıya qayıdırlar, ataları isə ömrünün sonunadək Hayfada qalır. O, burada olduğu zaman Əbdülbahanın adı ilə bağlı olan iki Rizvan və Firdovsi bağlarını birləşdirən torpaq sahəsi alır. Daha sonra isə bu sahəni bəhai icmasına hədiyyə edir. Hazırda bu torpaq sahəsi Əli Əşrəf sahəsi kimi tanınır.[1]

Şövqi Əfəndi Azərbaycan bəhailərinə məktublar yazmış və öz tövsiyələrini vermişdir. M. S. Ordubadi xatirələrində bir gün Əbdülbəhadan məktub gəldiyini və onun xalq qarşısında meydanda oxunduğunu qeyd edir. Məktubda mövcud siyasi vəziyyət haqqında məlumat verildikdən sonra dünya müharibəsi başlayacağı bildirilir və bəhailərin bu savaşda bitərəf qalmaları tələb olunurdu.[2]

1860-70-ci illərdə Bakı icmalarının yaradılmasında Azərbaycanın xalq şairi Mikayıl Müşfiqin babası xızılı Mirzə Əbdülqədir İsmayılzadə böyük rol oynamışdır.

---

1 Səlahəddin Eyyubov, Bəhai dini Azərbaycanda və ya bütün dinlərdə vəd edilmiş kəsin zühuru, Bakı, Ekspress Nəşriyyatı – 2013, s. 51.

2 M. S. Ordubadi, eyni əsər, s. 60.

Azərbaycan xalqının maariflənməsində, mədəniyyətinin inkişafında mesenat kimi xidmətlər göstərmiş Musa Nağıyev (1849-1919) və xalq şairi Əliağa Vahidin müəllimi, Qafqaz türkləri arasında "ustad şair" kimi tanınmış Mirzə Əbdülxaliq Yusif də Bakı Bəhai icmasının üzvləri olmuşdurlar. Musa Nağıyevin uzun illər Bakı Ruhani Məhfilinin üzvü olduğu qeyd edilir. Deyilənə görə, o, ikinci həya yoldaşı Liza Qriqoryevna ilə 28 mart 1907-ci ildə bəhai qaydalarına uyğun kəbin kəsmiş və başlıq olaraq 95 misqal qızıl vermişdir.[1]



*Musa Nağıyev Bakı bəhailəri ilə birlikdə, 1924-cü il*

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, bir sıra tarixi və fəlsəfi mahiyyətli əsərlərin müəllifi Hüseyn Cavid (1184-1941) iddiaya görə, Almaniyada olan zaman bəhailiyi qəbul etmiş, bu təlimin ideyalarını əsərlərində əks etdirmişdir. Tədqiqatçı alim Rafael, Hüseyn Cavidin həyatına həsr etdiyi tədqiqat əsərində bildirir ki, Hüseyn Cavid yoldaşını bəhailərə

[1] Səlahəddin Əyyubov, eyni əsər, s. 58.

məxsus tərzdə, "Allahu Əbha" deyə salamlayırmış. Hüseyn Cavidin oğlu Ərtoğrul bəhai gənclərlə, xüsusən də Ətaullah Qasımovla (1983-ci ildə repressiya qurbanı olmuş Fərəc Qasımovun oğlu) yaxın dostluq əlaqələri saxlamışdır.[1]

Azərbaycan bəhailəri tərəfindən qələmə alınan əsərlərdə ölkəmizin bir çox görkəmli elm, incəsənət adamları və məşhur şəxslərin adları bəhailiklə əlaqələndirilir. Lakin bu iddiaları sübut edən heç bir dəlil yoxdur. Qeyd etmək lazımdır ki, bəhailik Azərbaycanda yayıldığı ilk dövrlərdə müsəlman din xadimlərinə qarşı mübarizə aparmışdır. Bu isə müsəlmanlarda bəhailərə qarşı xoşagəlməz əhval-ruhiyyə yaratmışdır. Daha sonralar din xadimlərinə qarşı çıxan elm və düşüncə adamları xalq tərəfindən bəhai adlandırılmışdır. Lakin bu insanların bəhailiklə din xadimlərinə qarşı təbliğat aparmaqdan başqa heç bir bənzərliyi olmamışdır.



*1927-ci ildə Azərbaycan bəhailərinin keçirdiyi milli qurultay*

[1] Azər Cəfərov, Bəhai dini Azərbaycanda, s. 23.

Oktyabr çevrilişi nəticəsində Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsi bəhai icmaları üçün ağır günlərin başlanğıcı oldu. Xüsusən, dekretlə dini nikahların ləğv edilməsini və icma mülkiyyətində olan torpaq sahələrinin dövlət mülkiyyətinə keçməsini nəzərə almasaq, ilk illər Sovetlər birliyi bəhai icmalarının daxili işlərinə qarışmırdı.[1]

1922-ci ildən başlayaraq isə bəhailərə qarşı kampaniyaların başlanıldığı müşahidə olunur. Bu dövrdə mətbuatda dərc olunmağa başlayan məqalələrdə bəhailik antibolşevik ideologiyada ittiham edilirdi. Daha sonralar isə bu məqalələrin təsiri özünü göstərir və Sovetlər birliyinə daxil olan ölkələrdə bəhailərə qarşı təqiblər başlayır. 1926-cı ildən isə bu bölgələrə İrandan gələn bəhailər təkrar vətənlərinə deportasiya edilməyə başlayırlar. Bu dövrdə bəhai icmalarında yığıncaqlar keçirmək və ianələr toplamaq qadağan edilir. Dini ədəbiyyat və məhfil iclaslarının protokolları müsadirə olunur. Aşqabadda nəşr edilən "Şərqin günəşi" adlı jurnal bağlanır, arxivi məhv edilir, avadanlığı isə müsadirə olunur. Bir müddət sonra kəskin qadağalar götürülsə də, məclislərin keçirilməsi üçün xüsusi dövlət razılığının olması tələbi qoyulur.[2]

1928/29-cu illərdə isə bütün SSRİ ərazisində İslama qarşı aparılan sərt tədbirlər bəhailikdən də yan keçmədi. Azərbaycanda bəhailər həbs olunaraq müxtəlif bölgələrə sürgün edildi. Xüsusi fərmanı ilə dini icmaların mülkiyyətində olan daşınmaz əmlaklar dövlət mülkiyyətinə keçdi. İcma qarşısında ya binanı boşaltmaq, ya da onu yüksək məbləğdə dövlətdən icarəyə götürmək şərti qoyulur. Dövlət orqanları ilə danışıqlardan sonra icarə haqda müəyyən razılaşma əldə edilir.

30-cu illərin əvvəllərində Sovet hakimiyyəti mövcud rejimi bir qədər də kəskinləşdirərək icmalardan məhfillərin buraxılmasını və bütün fəaliyyətlərin dayandırılmasını tələb edir.

---

[1] Azər Cəfərov, eyni əsər, s. 23.

[2] Azər Cəfərov, eyni əsər, s. 22-23.

Bəhailər dövlətin tələbini yerinə yetirərək kollektiv fəaliyyətlərini dayandırırlar.

Bu vəziyyət 1934-ci ilədək davam edir. 1934-cü ilin əvvəllərində dövlətin siyasəti gözlənilmədən dəyişir; müsadirə olunmuş əmlak yenidən icmalara qaytarılır, Bərdə, Balaxanı, Salyanda icmalar öz fəaliyyətlərini tam bərpa edirlər.

Lakin 1937-ci ildə vəziyyət gözlənilmədən yenidən dəyişir. Həmin ilin oktyabrından 1938-ci ilin fevral ayına kimi bütün SSRİ ərazisində bəhai icmalarına qarşı təqib kompaniyası başlayır. Bakı, Balaxanı, Gəncə, Bərdə, Salyan, Xıllı (indiki Neftçala), Naxçıvan icmalarının çoxlu sayda üzvü həbs edilir. Yüzlərlə ailə İrana deportasiya və Qazağıstana sürgün olunur. Qaytarılmış mülkiyyət yenidən müsadirə olunur və bu təqiblər 1949-cu ilədək davam edir.

1956-cı ildən sonra ölkədə siyasi abı-havanın yumşalmasına baxmayaraq, bəhai icmalarının açıq fəaliyyəti qeyri-mümkün şəraitdə idi. İcma üzvləri müxtəlif mənzillərdə on, on iki nəfərlik qruplar şəklində görüşmək məcburiyyətində idilər. Yerli ruhani məhfilləri seçki yolu ilə deyil, yerli bəhailərin təklifləri ilə formalaşırdı. Xaricdəki bəhailərlə yalnız 60-cı illərin əvvəllərində əlaqələr qurmaq mümkün oldu. Bu əlaqələr şəxsi səviyyədə olub təsadüfi xarakter daşıyırdı. Bayramlar müqəddəs günlər, ad günləri və yubileylər adı altında keçirilirdi.

Andropovun qısa hakimiyyəti dövründə - 1982-ci ilin noyabrında Dövlət Təhlükəsizlik Komitəsinin xüsusi qrupu Bakıda əməliyyat keçirərək icmanın 3 üzvünü həbs edir və dindirildikdən sonra onlar sərbəst buraxılır. Bu hadisədən sonra icma üzvlərinə bir yerə toplanmaq, hansısa tədbirləri həyata keçirmək qadağan olunur. Bu qadağalar 1987-ci ilədək davam edir. 1988-ci ildən etibarən bəhai icmasının açıq fəaliyyətə başlaması üçün əlverişli şərait yaranır. 1989-cu ildə icmanın dövlətlə münasibətləri bərpa olunur. 1990-cı ildə Bakı Ruhani Məhfilinə, 1992-ci ildə isə Milli Ruhani Məhfilinə açıq seçkilər keçirilir.

1990-cı ildə Gəncə, Balaxanı, sonrakı illər Sumqayıt, Naxçıvan, Salyan icmaları bərpa olunur. Onların bəzilərində yerli məhfillərə seçkilər keçirilir. 1993-ci ildə Bakı icması, 2001-ci ildə sə Sumqayıt icması dövlət qeydiyyatına alınır. Bununla da Azərbaycan bəhai dini icması dövlətlə münasibətlərində yeni mərhələyə qədəm qoyur.[1]

Hazırda Azərbaycanda Bakı, Sumqayıt və Gəncə icmaları fəaliyyət göstərir və ilk ikisi dövlət tərəfindən qeydiyyatdan keçiblər. Mömin bəhailər icmalarla əlaqə qurmalı və icmaların fəaliyyətlərində iştirak etməlidirlər. Çünki bəhailiyin bir çox ayin və ehkamları məhfillər və icmalarla bağlıdır. Mömin bəhai isə əməli ilə imanını nümayiş etdirməli və bu ehkamların icrasında məhfil və icmalarla əməkdaşlıq etməlidir. Azərbaycanda təxminən iki min bəhainin olduğu ehtimal edilir. Dünyada isə bəhailərin sayı ilə əlaqədar 2-8 milyon arası fərqli rəqəmlər səsləndirilir. Yalnız qeyd edək ki, dünyanın hər bölgəsində, hətta uzaq Afrika qitəsində belə bəhai icmaları mövcuddur. Bu icmalar sivil dövlətlərdə qanunlar çərçivəsində qeydiyyatdan keçir, qəbilə qanunları ilə yaşayan bəzi Afrika dövlətlərində isə yerli qanunlara əsasən fəaliyyət göstərirlər.

Bəhai icmaları bayramların qeyd olunması, təlim-tərbiyə, dua məclisləri və s. istiqamətlərdə üzərinə götürdüyü öhdəlikləri icra edirlər. Bunun üçün isə müəyyən məbləğdə büdcəyə ehtiyac vardır. Bu büdcə isə dindar bəhailərin ianələri ilə formalaşır. Bəhai icmasının digər nümayəndəsi Abin Əfəndiyevə bu barədə ünvanladığımız sualın cavabında belə deyir:

"Bəhai icmaları çoxistiqamətli fəaliyyət göstərirlər. Hətta icma üzvlərindən birinin əgər övladını oxutmağa imkanı yoxdursa, icma ona yardım etməli və onun övladını oxutdurmalıdır. Bütün bu fəaliyyətlər üçün müəyyən maliyyə vəsaiti lazımdır. Bəhai icmalarının büdcəsi yalnız və yalnız mömin

[1] Bax: Səlahəddin Eyyubov, Bəhai dini Azərbaycanda və ya vəd olunmuş kəsin zühuru, s. 75-81; Əzər Cəfərov, Bəhai dini Azərbaycanda, s. 22-26.

bəhailərin ianələri ilə formalaşır. Bəhai olmayan bir şəxs icmaya yardım etmək istəsə belə, onun ianəsi qəbul edilmir. Bəzən bəhailiyi İsrail tərəfindən maliyyələşdirilməkdə günahlandırırlar. Lakin belələri bilməlidirlər ki, bu, bəhailiyin prinsip və qaydalarına ziddir və qeyri-mümkündür. Bəhailik nə İsrail, nə də başqa bir dövlət və ya təşkilat tərəfindən maliyyələşdirilmir. Yalnız və yalnız mömin bəhailərin ianələri ilə formalaşır.

Bir neçə il öncə Prezident İlham Əliyevin təşəbbüsü ilə Nazirlər Kabineti dini icmalara maliyyə yardımı ayırmışdı. Dini prinsipimizə uyğun olmadığı üçün biz hökumətimizə təşəkkür edərək bu yardımı almaqdan imtina etdik".

Bəhailiyin siyasi-ictimai zəmində formalaşmasına baxmayaraq, daha sonra bu cərəyanın liderləri siyasətdən uzaq, mövcud olduqları ölkələrdə dövlət siyasətinə qarışmamağı tövsiyə etmişlər. Bəhai icmasının nümayəndəsi Ramazan Əsgərli ilə görüşümüz zamanı o, da bu fikri təsdiqləyərək qeyd etdi ki, "Bəhailər fəaliyyət göstərdiyi ölkələrdə, o cümlədən Azərbaycanda dövlətin qayda-qanunlarına əməl edir və bu, icmanın öz mənsublarının üzərinə qoyduğu vəzifələrdən biridir". Onun sözlərinə görə, bəhailiyin vəlisi Şövqi Əfəndi icma nümayəndələrini yaşadıqları dövlətlərin hakimiyyətlərinə həmişə loyal münasibət göstərməyə çağırmışdır. Ramazan Əsgərli, həmçinin qeyd etdi ki, "Bəhailik tərəfdarların üzərinə yaşadıqları ölkələrinin hökumətləri ilə münasibətdə sədaqətli, vicdanlı və səmimi olmaq vəzifəsini qoyur. Bəhailiyə görə, dövlətin qanunlarına əməl etmək hər bir bəhainin vəzifəsidir".

Bəhai icmaları hər cür dini fanatizmi, mövhumat və cəhaləti pisləyir, maarifçiliyi, uşaqlara, xüsusən də qızlara dünyəvi təhsilin verilməsini, qadınların cəmiyyətdə və ailədə hüquqlarının qorunmasını təbliğ edir, dinlərarası dialoq və əməkdaşlığa can atırlar.

Ramazan Əsgərli, eyni zamanda bildirdi ki, bəhailik planetimizdə sülhü, qlobal ekologiyanı və insan haqlarını qorumağa,

xalqların iqtisadi, sosial və mədəni inkişafına nail olmağa çağırır. Sülhsevərlik, insansevərlik, tolerantlıq... bəhailiyin əsasını təşkil edir. Hər zaman tərəqqipərvərliyi təbliğ edən dinimizə görə, radikalizm və ekstremizm yolverilməzdir. Bəhailikdə parçalanmalar, məzhəb və təriqətlər mövcud deyil. Dünya bəhailəri, hətta ən ucqar bölgələrdə olanlar belə yerli icmalar vasitəsi ilə vahid mərkəzə - Ümumdünya Ədalət Evinə bağlıdırlar. Bu isə möminlərin hər hansı bir şəkildə parçalanmasını qeyri-mümkün edir.

Bəhailik digər dinlərə və mənsublarına qarşı tolerantlıqdan da yüksək münasibət nümayiş etdirir. Dinimizə görə, bütün səmavi dinlər vahid Allah tərəfindən göndərilmiş və bir-birinin davamıdırlar. Yer üzərində Allahın bir dini mövcuddur, bütün dinlər onun tarixi mərhələləridir. Dinlər arasında fərq insanların İlahi təlimlərə əlavələr etmələri və təhriflərə yol vermələri nəticəsində yaranmışdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Abdu`l-Baha, A Traveller's Narrative Written to Illustrate the Episode of the Bab, Translated by Edward G. Browne, Cambridge, U.K., 1891; reprint, Amsterdam, 1975.
2. Azər Cəfərov, Bəhai dini Azərbaycanda, Bak, Təhsil NPM, 2004.
3. Bəhai icması; təməli, məqsədi və niyyəti, Bakı,1998.
4. Ethem Fığlalı, "Bahailik", TDV, Ankara, 1991.
5. Ethem Ruhi Fığlal – Ramazan Şimşek, Bahalik ve el-Kitabul-Akdes, Ankara Univerisitesi Mezhep Araştırmaları, Ankara, 2010.
6. http://www.bahai.az/index.php/az/men-yu-6/2013-01-26-08-14-28/2013-01-26-08-14-27.
7. M.S.Ordubadi, Həyatım və mühitim, tərtib edən: İsa Həbib-bəyli, Naxçıvan, 2012.
8. Mehmet Demirci, "əl-Ahsai", TDV (Türkiyə Diyanet Vakfı İslam Ansiklopedisi), İstanbul, 1989.
9. N. Özşüca, Bahai dini, Ankara, 1967.
10. Səlahəddin Eyyubov, Bəhai dini Azərbaycanda və ya bütün dinlərdə vəd edilmiş kəsin zühuru, Bakı, Ekspress Nəşriyyatı, 2013.

# QAFQAZ ALBANİYASININ MİRASI: TATCA DANIŞAN DAĞ YƏHUDİLƏRİ

**Saleh KAZIMOV**[1]

## Giriş

Yəhudilik Azərbaycanda tarixən dağ yəhudiləri ilə təmsil olunmuşdur. Moisey Kalankatuklu dağ yəhudilərinin Qafqaza gəlişini e. ə. I əsrə aid edir. Tədqiqatçıların bu barədə fikirləri fərqlidir.

Bir fikrə görə, ən qədim yəhudi icmalarından olan dağ yəhudiləri mənşəcə bir vaxtlar Assuriya və Babil şahları tərəfindən Fələstindən çıxarılmış və Midiyada məskunlaşdırılmış İsrail oğulları nəslindəndirlər. Onların əcdadları Yəhudiliyə ilk iman gətirənlərdəndir. Elə Midiyada ikən onlar tatlarla qaynayıb qarışmışlar. Bunun təsiri altında dağ yəhudiləri fars dilinin qədim arami və yəhudi sözləri ilə qatışıq bir ləhcəsi olan tat dilində danışırlar.

Başqa tədqiqatçıların fikrincə, dağ yəhudiləri Şərqi Qafqaza Sasani hökmdarı Xosrov I Ənuşirəvan (531-579) tərəfindən köçürülmüşlər. Hökmdar Qafqazda qalalar tikdirir, şəhərlər saldırır, bu şəhərlərdə Mesopatamiyadan köçürtdüyü farsları və yəhudiləri yerləşdirirdi. Dağ yəhudilərinin danışdıqları tat dili də həmin dövrdən miras qalmışdır. Hər halda deyə bilərik ki, dağ yəhudiləri Azərbaycana Sasanilərin siyasəti ilə bağlı olaraq 15 əsr bundan qabaq gəlmiş, imperiyanın təhlükəsizliyini təmin etmək məqsədilə sərhəd məntəqələrində yerləşdirilmiş, yerli əhali ilə sıx təmasda olsalar da, dinlərini, adət-ənənələrini, həyat və düşüncə tərzlərini qoruyub saxlamışlar[2].

Aralarında bəzi inanc və yaşam fərqləri baxımından sayı 16 min olan Azərbaycandakı yəhudilər üç qrupa bölünür:

---

1 Bakı Dövlət Universitetinin müəllimi.

2 Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi internet saytı, www.scwra.gov.az

1. Dağ yəhudiləri (11000 nəfər);
2. Avropa yəhudiləri (əşkinazi 4300 nəfər);
3. Gürcü yəhudiləri (700 nəfər).

Azərbaycanda say etibarı ilə dağ yəhudiləri çoxluq təşkil edir. Ölkəmizdə 11000 dağ yəhudisi yaşayır. Bunlardan 1000-i Azərbaycanın müxtəlif rayonlarında, 6000-i Bakıda, 4000-ə yaxını isə Quba rayonunun Qırmızı qəsəbəsində kompakt halda məskunlaşıblar. Burada yaşayan yəhudliərin dili isə arami ibrani dillərindəki bir çox sözdən formalaşan, rus, türk, farscadan da bəzi kəlmələrin əlavə olunduğu tat dilidir. Hind Avropa dilləri qrupuna daxil olan farscanın bir ləhcəsi sayılan tat dili ivritcədən tamamilə fərqlidir. Qubadan İsarilə köçən yəhudilər əvvəllər bu dildə bir-birini başa düşmədiklərini deyirlər.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra yəhudilər də təşkilatlanmağa başlamışlar. Beynəlxalq yəhudi təşkilatları ilə əlaqələr yaradılmış, mədəniyyət mərkəzləri və mətbuat orqanları açılmışdır. Azərbaycanda hazırda fəaliyyət göstərən 6 yəhudi sinaqoqu vardır. Bunlardan ikisi Bakıda, ikisi Qubada, ikisi də Oğuzdadır. Avropa və gürcü yəhudilərinin sinaqoqu 2003-cü il martın 9-da açılmışdır. Tikintisi 2003-cü ildə başa çatan yəhudi sinaqoqu Avropada ən böyük sinaqoqlardandır. Bu tikili köhnə məbədin yerində ucaldılmışdır, hansı ki, ibadət ocağı son 60-80 ildə Yaxın Şərqdə tikilmiş birinci sinaqoq sayılır.

280 ildən çoxdur ki, dağ yəhudiləri Quba şəhərindəki Qırmızı qəsəbədə yaşayırlar. Burada yaşayan yəhudilər evlərinin damına qırmızı örtük vurduqlarına görə, qəsəbə "Qırmızı qəsəbə" adlandırılmışdır. Qəsəbədə məskunlaşan yəhudilərə dağ yəhudisi deyilməsinin səbəbi onların əvvəllər dağ kəndlərində yaşamalarıdır. Dağdan gəldiklərinə görə onlara dağ yəhudisi deyilmişdir. Digər bir ehtimal isə Çar Rusiyası tərəfindən Qafqazın işğal olunması ilə bağlıdır. Belə ki, ruslar bütün Qafqaz xalqlarını dağlılar, Dağıstan xalqları deyə adlandırmışdır.




*Quba rayonunda dağ yəhudilərinin kompakt yaşadığı Qırmızı qəsəbədən bir görünüş*

Burada yaşayan yəhudilər digər dağlılardan fəqləndirilmək üçün dağ yəhudisi adlandırılmışdır. Qırmızı qəsəbə bələdiyyəsinin sədri Nisim Nisimovun dediyinə görə, yəhudilər Qrız və Şuduq kimi dağ kəndlərindəki çətin şəraitdən Qubaya üz tutmuşlar. Herodotun eramızdan əvvəl IV əsrdə yazdığına görə, qırızlar Alban tayfalarındandır. Dağlıq ərazidə yerləşən Qrız kəndindəki yəhudilərin eramızdan əvvəl burada məskunlaşdığı ehtimal olunur. Nisim Nisimovun qeyd etdiyi digər kənd isə Şuduqdur. Şuduq kəndinin hazırda yerli əhalisi müsəlman tatlardır. Qubada yaşayan dağ yəhudilərinin dini Yəhudilik olsa da, dili tatcadır. Şuduq əhalisinin və Qırmızı qəsəbənin dağ yəhudilərinin dili və ləhcələri demək olar ki, eynidir. Bunların uzun müddət bir yerdə yaşamış olması buna səbəb ola bilər. Həm Qırızda, həm də Şuduqda əvvəllər yəhudilərin yaşadığını isbatlayan məzarlıq, başdaşları kimi maddi mədəniyyət abidələrini görmək mümkündür.

Quba xanı Fətəli xanın atası və özünün hakimiyyətdə olduğu illərdə bu ərazidə yerləşən yəhudilər 280 ilə yaxın bir dövr keçməsinə baxmayaraq ləhcə oxşarlığı yenə də qalmaqdadır. Bura gələn yəhudilərin köçdüyü digər bir kənd də Qaladüzdür. Azərbaycan xalqı ilə uzun illər bir yerdə yaşayan yəhudilər öz milli mənəvi dəyərlərini qoruyub saxlamaqla bir növ Azərbaycan mədəniyyətinin də təmsilçiləri olublar.

Qırmızı qəsəbə bələdiyyəsinin sədri Nisim Nisimov uzun illər Quba şəhər musiqi məktəbinin direktoru işləmiş və Azərbaycanın milli musiqi aləti olan tarın gözəl ifaçısıdır. O, dünyanın bir çox ölkəsində - Amerika Birləşmiş Ştatları, Kanada, Böyük Britaniya, Fransa, İsrail, Türkiyə, Rusiya və başqa dövlətlərdə qastrollarda olduğunu, festivallarda mükafatlara layiq görüldüyünü və Azərbaycan musiqisini və mədəniyyətini bu ölkələrdə yüksək səviyyədə təmsil etdiyini bildirir.[1] Xəyyam Nisanov da Azərbaycan mədəniyyətinin təmsilçisi olaraq çıxış edən yəhudi müğənnilərindəndir.

Dağ yəhudilərinin kompakt məskunlaşdığı yer olan Quba rayonu, eyni zamanda 20-dən çox etnik qrupun da yaşadığı məkandır. Qrızlar, ceklər, buduqlular, xınalıqlılar və başqalarını buna misal göstərə bilərik.

Azərbaycanda 2003-cü ildə iki özəl yəhudi məktəbi də açılmışdır.[2] Qırmızı qəsəbədə fəaliyyət göstərən İsaak Xanukov adına orta məktəb isə yəhudilərin də təhsil aldığı dövlət məktəbidir. Burada tək yəhudilər yox, eyni zamanda bir çox xalqın nümayəndələri də təhsil alır. Bu məktəbdə təhsil rus və azərbaycanca aparılmaqla yanaşı, yəhudi dili olan ivritcə də tədris edilir.

---

1 Quba rayon Qırmızı qəsəbə bələdiyyəsinin sədri Nisim Nisimovun müsahibəsindən.

2 Kövsər Tağıyev, Siyası tarihi bağlamında Azerbaycan'da din eyitiminin gelişimi, Uluslararası Sosyal Araştırmalar Dergisi. The Journal of International Social Research Cilt: 6 Sayı: 28, s. 381.




*Qırmızı qəsəbə İsaak Xanukov adına orta məktəbin direktoru Yavuşva Simanduyev 15 sentyabr 2014-cü ildə Bilik bayramında çıxış edərkən.*

Qırmızı qəsəbə İsaak Xanukov adına orta məktəbin direktoru Yavuşva Simanduyev məktəbdə yəhudilərlə yanaşı azərbaycanlıların, rusların, ləzgilərin, tatların, buduqluların, xınaqlıqlıların və başqalarının oxuduğunu bildirir. Məktəbdə yəhudilər Roş-Ha-Şana, ruslar Milad, azərbaycanlılar Novruz bayramını qeyd etməklə əsl həmrəylik nümayiş etdirirlər.

Yavuşva Simanduyev Azərbaycanda yaşayan insanların etnik və milli mənsubiyyətindən, harada, hansı ölkədə olmasından asılı olmayaraq onlara haralı olduqları soruşulduqda Ulu Öndər Heydər Əliyevin bir ifadəsi ilə cavab verdiklərini - "azərbaycanlıyam" dediklərini fəxrlə dilə gətirdi.

Yaşı 80-ə yaxın olan Quba rayonu Qırmızı qəsəbə Dağ Yəhudiləri dini icmasının sədr müavini Şimtu Yusifov 60-cı illərdə vəfat edən atasının da qəsəbənin tanınmış din xadimi olduğunu bildirir. Şimtu Yusifov hazırda qəsəbədə dini təhsil verən kolleclə yanaşı, iki sinaqoqun da olduğunu qeyd etdi. Şimtu Yusifov qeyd edir ki, hazırda Qubada yalnız iki sinaqoqun fəaliyyət göstərməsinə baxmayaraq, əvvəllər burda on üç sinaqoq fəaliyyət göstərmişdir. O, Qırmızı qəsəbədə son illərdə tikilən mikvanın əhəmiyyətini də toxundu.

Yəhudi dininin əsaslarında olmasa da, müəyyən tarixi dövrlərdə mikva qadınlar tərəfindən təmizlənmə, pak olma məqsədi ilə istifadə edilən hovuzdur.[1]

[1] http://tr.wikipedia.org/wiki/Mikve




*Qırmızı qəsəbədə inşa olunmuş mikva*

Həm mənəvi, həm də maddi təmizlik İslamda olduğu kimi, Yəhudilikdə də mühüm yer tutur. Şimtu Yusifovun qeyd etdiyinə görə, mikva Qırmızı qəsəbədə bir növ bəy hamamı funksiyasını yerinə yetirir. Toy günü bəy mikvaya gələrək orada yuyunduqdan sonra gəlin evinə gedir. Beləliklə, maddi təmizliklə yanaşı, evlənən gənclər həm də mənəvi cəhətdən saflığa doğru addımlayaraq yeni bir ailənin əsasını qoyurlar.

Şimtu Yusifovun toxunduğu ən maraqlı məqamlardan biri də evlilik və toylarla bağlıdır. Əsrlər boyu yerli sakinlər dostcasına birlikdə yaşayan yəhudilərin toy məclislərində Qubanın müsəlman əhalisi də yaxından iştirak edir. Həmçinin Quba camaatının toy məclislərində yəhudilər də dəvət olunurlar. Şəxsən özünün belə toy məclislərində yaxından iştirakını və yerli əhali tərəfindən bu mərasimlərdə yüksək səviyyədə qarşılandığını deyən Şimtu Yusifov bu iki fərqli dinə mənsub gənclər arasında nikahların olduğunu da qeyd etdi. O, həm yəhudi qızların azərbaycanlı oğlanlara ərə getdiyini, həm də

azərbaycanlı qızların yəhudi oğlanlara evləndiyini və qurulan bu ailələrin xoşbəxt yaşadıqlarını bildirdi.



*Qırmızı qəsəbədə fəaliyyət göstərən şadlıq sarayı*

Qəsəbənin mərkəzində fəaliyyət göstərən şadlıq evində keçirilən toy məclisləri bir çox hallarda Azərbaycanın və hətta qonşu Türkiyənin və başqa ölkələrin tanınmış müğənnilərinin iştirakı ilə keçirilir.

Şimtu Yusifov Mikvanın yaxınlığında Yəhudi dini inancına uyğun heyvanların kəsilərək ehtiyacı olanlara paylanıldığını bildirdi.

Qəsəbədə ən çox diqqəti çəkən yeni tikilən binalardır. Burada birmərtəbəli, ikimərtəbəli üç və hətta beşmərtəbəli xüsusi evlər vardır. Bələdiyyə başçısının verdiyi statistik məlumata əsasən, əvvəllər əhalisinin sayı 20-30 minə çatan qəsəbədə hazırda 3500 adam yaşayır. Əhalinin sayının kəskin azalmasının bir çox səbəbi vardır. Nisim Nisimovun dediyinə görə, əhali iş məqsədilə paytaxt Bakıya və çox vaxt da Rusiya, İsrail və başqa

ölkələrə gediblər. Həm Azərbaycan müstəqillik qazanmasından sonra həm, də SSRİ tərkibində olduğu vaxt qəsəbədə yaşayan yəhudilər müxtəlif yerlərə gedərək oralarda məskunlaşmışlar. Rusiya Federasiyasının ərazisində 7 may 1934-cü ildə yaradılmış Uzaq Şərq Federal dairəsinə daxil olan paytaxtı Birobijan şəhəri olan Yəhudi Muxtar Vilayətində yaşayan 178000 nəfər əhalidən yalnız 1%-i yəhudilərdir .[1] Rusiyaya üz tutan yəhudilər əsasən, Moskva və başqa mərkəzi şəhərlərdə yaşayır və fəaliyyət göstərirlər. Əsasən bizneslə məşğul olan yəhudilər Qırmızı qəsəbə ilə əlaqələrini kəsmirlər. Daimi qəsəbədə yaşamasalar da, toy və yas məclislərində gəlib iştirak edir, burada yaşayan qohum-əqrəbalara köməklik göstərirlər.

Son 15-20 ildə Azərbaycanın hər bölgəsi kimi, Qırmızı qəsəbə də sürətlə inkişaf edir. Qəsəbədə salınan xüsusi gözəlliyə malik Heydər parkı sakinlərin istirahət məkanıdır. Xüsusən yaşlı nəslin nümayəndələri bura tez-tez gələrək bir-biri ilə söhbət edir, asudə vaxtlarını səmərəli keçirirlər. Qəsəbədə yaşayan əhalinin böyük əksəriyyəti yaşlı nəslin nümayəndələri olduğuna görə, burada qocalar evi də vardır ki, yaşlılar bura toplaşaraq çay içir, nərd, domino kimi oyunlar oynayır, söhbət edirlər.

Qəsəbədən yəhudilərin kütləvi halda köçməsi isə XX əsrin 70-ci illərinə təsadüf edir. Bu zaman yəhudilərin bir çoxu İsrailə köçmüşdür. SSRİ dövründə köç edənlərə qarşı bir sıra qadağalar qoyulmuşdur. Onlar geri qayıda bilmirdilər. Bir çox hallarda köç edənlər buradakı yaxınları ilə vidalaşaraq getməli olurdular. Sovetlər İttifaqı dağıldıqdan və Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra təbii ki, bu qadağa ortadan qaldırıldı. Qırmızı qəsəbə postsovet məkanında yəhudilərin kompakt yaşadığı yeganə yer olduğuna görə, bir çox xarici vətəndaşların da marağına səbəb olmuşdur. Qəsəbə sakinlərinin verdiyi məlumata görə, demək olar ki, hər gün bura dünyanın fərqli yerlərindən turistlər və müxtəlif qonaqlar gəlirlər. Nisim Nisimov İsveçrədən

---

[1] https://ru.wikipedia.org/wiki/Еврейская_автономная_область

gələn bir qonağın təəssüratını belə qeyd edir: “Siz əsl İsveçrədə yaşayırsınız”. Qonaqlar buradakı tolerant mühiti gördüklərində heyrətlərini gizlətmirlər.

Nisim Nisimova “Əhalisinin böyük əksəriyyətinin müsəlman olan bir mühitdə rahat və mehribancasına yaşamalarına necə nail ola bilmisiniz?”, – deyə sual verdikdə maraqlı cavab verdi:

“Bunun birinci səbəbi ölkə rəhbərliyinin burada yaşayan bütün xalqlara, o cümlədən də yəhudilərə olan qayğısıdır. Bünövrəsi Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan bu qayğı Prezident İlham Əliyevin hakimiyyəti dövründə də davam etməkdədir. Cənab İlham Əliyevin Quba rayonuna elə bir səfəri olmayıb ki, o, bura gələndə Qırmızı qəsəbəni ziyarət etməsin. Prezident hər səfərində qəsəbəyə gəlir və buradakı insanların problemləri ilə yaxından tanış olur və lazımi köməklik göstərir. Bunun bariz nümunəsi Qəsəbə ilə Quba şəhərini bir-birindən ayıran Qudyalçayın üzərindəki körpüdür. Prezident İlham Əliyev qəsəbəyə gələrkən sakinlər ona 150 il bundan əvvəl salınmış körpünün qəzalı vəziyyətə düşdüyünü və təmirə ehtiyacı olduğunu dedikdə, ölkə başçısı dərhal mütəxəssislər göndərir, onlar vəziyyəti yerində araşdırdıqdan sonra körpünün təmirinə start verilir. Qısa müddətdə körpü restavrasiya edilərək əhalinin istifadəsinə verilir”.

## Sinaqoqlar, dini rituallar və bayramlar.

Son illərdə inşa edilmiş mikva ilə üzbəüz yerləşən bina əvvəllər vəfat edən yəhudilərin son mənzilə götürüldüyü vida evi olmuşdur. Qəsəbədə üç yəhudi qəbiristanlığı vardır. Bunlardan biri digər qəbiristanlıqlara nisbətən daha öncələr insanların dəfn edildiyi yer olaraq qəsəbənin yuxarı tərəfində – Quba-Qusar şosesinin aşağı hissəsindəki məzarlıqdır. Digər iki qəbiristanlıq isə şosenin yuxarı hissəsindədir. Son dövrlər qəbiristanlıqlarda bahalı qiymətə mərmərdən hazırlanmış baş-

daşlara rast gəlinməkdədir. Yəhudilərin başdaşları üzərində Davud peyğəmbərin iki üçbucaqdan formalaşmış olan möhürünün simvolu sayılan altıgüşəli ulduz və menora şəkillərini (yeddigözlü şamdan) görürük.



*Qırmızı qəsəbə yəhudi qəbiristanlığı*

Dağ yəhudilərinin həyatında dini rituallar və bayramlar xüsusi yer tutur.[1] Azərbaycanda dini motiv daşımasa da, müsəlmanlar vəfat edən şəxs üçün yas tutarkən saqqal saxladıqları kimi, yəhudilər də dünyasını dəyişənə yas saxlayırlar. Hüzrü düşənlər baş örtüsü və geyim formaları ilə başqalarından fərqlənməyə çalışırlar.

Yeni ilin gəlişini bildirən Roş-Ha-Şana bayramı yəhudilərin xüsusi olaraq qeyd etdiyi bayramlardandır. Yəhudilərin digər bir önəmli bayramı bağışlanma (Tövbə) bayramı - Yom Kippurdur. Yəhudilər insanların günah işləyə biləcəyinə inanırlar. Yom Kippur Allahdan bağışlanma diləmək, tövbə etmək üçün qeyd olunan bayramdır. Bayram ərəfəsində 25-26 saat oruc

[1] Критика иудейской религии, Праздники синагогальном и домашнем культе Н. М. Никольский, s. 336, Moskva, 1964, Издательство «Наука».

tutulur. Axşamüstü başlayan oruc növbəti axşam ilk ulduzun görünməsinədək davam edir.

Yəhudilərin tarixinə nəzər salsaq görərik ki, onlar e.ə. 586-cı ildə Babilistan əsarətinə düşdükdən sonra yarım əsrlik bir müddət ərzində ən məşəqqətli dövrlərini yaşamışlar. Onların Misir əsarətindən Tanrının lütfü olaraq azad olmaları da bayram kimi qeyd edilmişdir. Tövratda iki yerdə qeyd olunan və Həzrət Musaya Turi-Sinada iki daş lövhə üzərində verilən on əmrin birincisi məhz belədir: **"Səni Misir zülmündən xilas edən Rəbb mənəm"**.[1] Lakin onlar Misirdən çıxdıqdan sonra həmin dövrdə Fələstinə gələ bilməmiş və qırx il boyu çöl və səhra mühitində yaşamaq məcburiyyətində qalmışlar. Məhz bu sıxıntılı günləri xatırlamaq üçün Qırmızı qəsəbədə yaşayan dağ yəhudiləri də digər yəhudilər kimi sinaqoqların yaxınlığında çadırlar qururlar. Həmin çadırların üstü ağac budaqları ilə örtülür. Özləri də on günə yaxın bir müddət ərzində həmin çadırlarda vaxtlarını keçirir və orada qalaraq gecələyirlər. Beləliklə, yağış yağdıqda ağac budaqları qoyulmuş çadırın tavanından daman su çadıra tökülür. Soyuq və yağışlı havalarda çadırda qalanlar əcdadlarının Misir zülmündən xilas olduqdan sonra səhrada keçirdiyi o ağır günləri praktiki olaraq yaşamaqla o dövrdəki insanlarının nələr çəkdiyini xatırlayırlar. Sonda isə bunu bayram ab-havası içərisində qeyd edirlər. Bu bayram məhz Sukot[2] (Gül bayramı, Çadır bayramı) adlanır. Sukot bayramında dörd ünsür diqqəti cəlb edir.

Bunlar: adas, palma budağı, etrak və aravadır.

1. Adas gözəl qoxusu olub, dadı olmayan bir meyvədir;

2. Palmanın, finik ağacının budağından hasil olan meyvənin isə gözəl dadı olsa da, qoxusu yoxdur;

[1] Müqəddəs Kitab, Müqəddəs kitab şirkəti, Bakı, 2009. Xüruc XX/1-17; Təsniyə (Qanunun təkrarı) V/6-21.

[2] Paul Johnson, Yahudi Tarihi, s. 678. Pozitiv yayınları, 2000, çeviri Filiz Orman.

3. Limona bənzər meyvə olan etrakı həm gözəl qoxusu, həm meyvə kimi ləzzətli dadı vardır;

4. Aravaya gəldikdə isə bu, üzərində yarpaqları olan söyüd ağacının budaqlarıdır. Bunun nə meyvəsi, nə də qoxusu vardır.



*Qırmızı qəsəbə dağ yəhudilərinin ravvini Elezar Nisimov*
*Sukot bayramında Tevada müqəddəs Tövrat qarşısında dua edərkən*

Sukot bayramında bir yerdə bağlanaraq dua edilən bu iki bitki və iki meyvə cəmiyyətdəki dörd cür xarakterə mənsub insanları simvollaşdırır. Quba rayonu Qırmızı qəsəbə Dağ Yəhudiləri dini icmasının ravvini Elezar Nisimov bunu bu formada şərh edir:

"İnsan var fikirləri müsbətdir, danışarkən gözəl danışır, amma əməlləri isə yaxşı deyil. Adas cəmiyyətdəki bu cür insanların simvoludur.

İnsan var ki, xeyirli əməllər görsə də, yaxşı fikirləri və gözəl danışıq qabiliyyəti yoxdur. Palma bu insanları simvoludur.

İnsan var ki, həm niyyəti, həm fikirləri, həm də əməlləri yaxşıdır. Etrok bitkisi isə bu insanların simvoludur.

İnsan da var ki, nə niyyəti yaxşıdır, nə də əməli. Həm meyvəsi, həm də qoxusu olmayan arava da bunun simvoludur. Bu iki meyvə və bitkinin bir yerdə bağlanması və onlarla birlikdə ibadətin yerinə yetirilməsi, duaların edilməsi cəmiyyətdəki müxtəlif xarakterli insanları bir yerə toplayıb bir istiqamətə - Allahın yolu ilə getmək mənasını daşıyır. Cəmiyyətdə istər yaxşı olsun, istərsə də pis bütün insanlar birlikdə yaşamaq məcburiyyətindədirlər. Onların bəzisinin yaxşı əməl sahibi olmaması cəmiyyətdən təcrid olunması demək deyildir. Onun üçün də həmin adamları Rəbbin yoluna istiqamətləndirmək, onların yaxşı ola bilməsi üçün Allahın yəhudilərə göndərdiyi müqəddəs Tövrat qarşısında dualar etmək lazımdır. Bu bayramda Tövrat Aron-Hakodeşdən götürülüb Tevaya gətirilir və onun önündə dualar edilir. Tövrat qoyulmuş Tevanın ətrafında fasilələrlə yeddi dəfə dövrə vurulur".

Qəsəbədə ardıcıllıqla keçirilən digər yəhudi bayramlarından biri də Tövratın xətm oluması - Simha Tora bayramıdır. Bu bayram Sukotun ertəsi günü qeyd edilir.

Yəhudilərin dini və milli bayramlarından biri də e.ə. 148-ci ildə onların düşmənlə mübarizə apardıqları vaxt Süleyman məbədindəki menoranın (yeddigözlü şamdamın) birgünlük yanacaqla səkkiz gün yanmasının xatirəsinə keçirilən bayramdır.

Yəhudilərin digər iki bayramı da onların Misir əsarətindən xilas olmasının xatirəsinə keçirilən Fısıh (Pasxa) və Tövratın Tanrı tərəfindən yəhudilərə bəxş edilməsinin şərəfinə qeyd edilən Şavuot bayramlarıdır.[1]

Tövratda buyurulduğuna görə, ibadət yalnız Tanrıya olunur. İbadətin əsasını məbəd təşkil edir. Bu məbəd isə ilk dəfə Həzrət Süleyman (e.ə. 973-933) tərəfindən Qüdsdə inşa olunan (Süleyman məbədi/Beyt-Hamikdaş) məbəddir. Bizim eranın 70-ci ilində Titusun başçılığı ilə Roma legionerləri

---

[1] Şinasi Gündüz, Yaşayan Dünya Dinleri, Diyanet İşleri Başkanlığı Yayınları, Ankara 2007, s. 241.

yəhudilərin əsrlikdən sonra Qüdsdə inşa etdikləri məbədi dağıtdılar və Yəhudi dövləti Romanın bir əyalətinə çevrildi.[1] Qüdsdəki məbəd tamamilə dağıdıldığı üçün Tövratda əmr olunan ibadətlərin bəziləri təxirə salınmışdır ki, qurban ibadəti bunlardan ən öndə gələnidir. Gündəlik ibadətlər sinaqoqlarda (havra) və yaxud da hər hansı bir başqa yerdə həyata keçirilir.[2]

Sinaqoq yəhudilərin birlikdə ibadət etdikləri yerdir. "Kneaset" ivrit dilində toplantı deməkdir. "Bet Knesset" (Toplantı evi) termini isə hazırda sinaqoqdakı bütün fəaliyyəti əks etdirir. Yəhudilər burada toplanır, ibadət edir, Tövrat oxuyur, dərs keçir və bayramlarını qeyd edirlər.[3] Kollektiv ibadət həddi-buluğa çatmış (on üş yaş) ən azı on nəfər kişi ilə həyata keçirilir. İbadətə xaxam (ravvin) və yaxud da camaatdan biri rəhbərlik edir.



*Altı günbəz (Qilqat) sinaqoqunda keçirilən Sukot bayramı*

[1] İsmayıl Vəliyev, Dünya dinləri Azərbaycan Milli Ensklopediyası Nəşriyyat-Poliqrafiya birliyi, , s. 223, Bakı, 2003.

[2] Şinasi Gündüz, eyni əsər, s. 237.

[3] B. A. Baranovskiy, Y. N. İvanov Религии мира, s. 335, "Иудаизм," Minsk, 2006, книжний домь nəşriyyatı.

Dağ yəhudilərinin ibadətlərini həyata keçirdikləri sinaqoqlardan biri Qırmızı qəsəbə İsaak Xanukov küçəsi 9 ünvanında yerləşən 1888-ci ildə memar Gilel ben Xaim tərəfindən inşa olunmuş Qilqat sinaqoqudur. 14 əsas pəncərəsi olan altıgüşəli bu ibadət ocağının başqa bir adı da Altı günbəz sinaqoqudur. Quba xanı Hüseynəli xanın icazəsi ilə Qilqat məhəlləsi sakinlərinin Qaladüz kəndi ətrafından altı gün ərzində bura köçüb gəlmələrinin rəmzi olaraq sinaqoq belə adlandırılmışdır. Digər bir ehtimal isə Tövratda dünyanın altı gündə yaradılması ilə bağlıdır. Pəncərələri altıguşəli ulduz şəklində palıd ağacından hazırlanmışdır. Sinaqoqun bərpasına 1995-ci ildə başlanılmış və 2000-ci ilin oktyabr ayında başa çatdırılmışdır. Hazırda dindarların istifadəsində olan məbədin zirzəmisində dini mərasimlərin keçirilməsi üçün 60 nəfərlik ibadət zalı və mətbəx də vardır.[1]

Böyük ibadət zalı olan sinaqoq Şərq üslubunda tikilmiş qədim memarlıq abidəsidir. İçərisindəki ibadət divarına baxan hissə aron-kaduş adlanır. O, hündürlüyünə görə Avropada təkrarı olmayan və Yerusəlimə baxan qibləgahdır. Hündürlüyü 7 metrdir. Müqəddəs Kitab həmin divarda yerləşən dolabda saxlanılır.

Ümumiyyətlə, bütün sinaqoqlarda üç şey mütləq olur. Bunlar içərisində əlyazma Tövrat saxlanan müqəddəs şkaf Aron-Hakodeş (Aron-Kaduş), daima yanan işıq Ner-Natamid və ibadət əsnasında Aron-Hakodeşdən çıxarılan Tövrat nüsxələri oxunan şkafla üzbəüz yerləşən kürsü Teva.

Dağ yəhudilərinin soyuq mövsümlərdə ibadətlərini yerinə yetirdikləri digər məbəd isə Cənubi Azərbaycanın Gilan vilayətindən gəlmiş mühacirlər tərəfindən inşa edilmiş İsaak Xanukov küçəsi 26 ünvanında yerləşən Giləki sinaqoqudur. Məbədin memarı Gilel ben Xaimdir. Onun adı sinaqoqun kərpic fasadında həkk olunmuşdur. Özül daşının üzərindəki yazıdan

1 http://www.scwra.gov.az

məlum olur ki, məbəd 1896-cı ildə ucaldılmışdır. Lakin giriş qapısının üzərində başqa bir lövhə də vardır. Burada isə başqa bir tarix, yəni 1857-ci il yazılıb. Ola bilər ki, bu lövhə gilanlı yəhudi mühacirlərin daha əski məbədindən gətirilib və sinaqoqun giriş qapısı üzərinə vurulmuşdur. Dördsütunlu dam üzərində ucalan ensiz, altıguşəli günbəz Giləki məbədinə xüsusi gözəllik verir. Sinaqoqun binasında İsrail qolunun sayına uyğun olaraq 12 pəncərə vardır. Tarixi qaynaqlardan məlumdur ki, əvvəllər sinaqoqun yanında bulaq olmuşdur. Ehtimala görə, Qubada XIX əsrin birinci yarısında tikilmiş məscid Gilan məbədi üçün prototip olmuşdur, çünki altıguşəli günbəz bir vaxtlar şüşədən idi və dua otağını işıqlandırırdı. Anoloji damörtüyü isə Quba məscidində də mövcuddur. Keçmişdə Giləki sinaqoqunda dağ yəhudilərinin digər məbədlərindəki kimi, qadınlar üçün ayrıca otaqlar yox idi. Qadınlar yalnız bayram vaxtı buraya gəlirdilər və sinaqoqun həyətində otururdular. Hazırda isə qadınlar bayram vaxtı məbədə buraxılırlar.[1]

Ümumiyyətlə, Yəhudilikdə sinaqoqların İslamda olduğu kimi bir müqəddəsliyi vardır. Sinaqoqlarda şəkil və heykəl əsla olmaz. Çünki bunların olduğu yerdə ibadət qadağandır. Sinaqoqa ədəbə uyğun paltar və baş örtüsü ilə girmək olar. Başı açıq sinaqoqa girmək Tanrıya hörmətsizlik əlaməti kimi qəbul edilir. Bunun üçün də yəhudi kişilər başlarına kipa qoyurlar. Qadınlar da başlarını örtürlər.

Yəhudilər ibadət əsansında bir sıra əşyalardan da istifadə edirlər. Bunlar dua kitabı Siddur, Tefilin, Tallit və Kipadır. Tefilin içində "Şema Yesrael" duasının yazılmış olduğu iki balaca qutudan və bir dəri qayışdan ibarətdir. Şənbə günü xaric digər günlərdə səhər ibadətində kişilər bu iki balaca qutunu qara dəri qayışla üsuluna uyğun olaraq alınlarına və sol qollarına bağlayırlar. Tallit qıraqları saçaqlı, üzərində Tövratdan parçalar yazılan bir dua şalıdır. Yalnız kişilər tərəfindən istifadə

[1] http://www.scwra.gov.az

olunan bu şal ibadət əsnasında çiyinlərə atılır. Kipa kişilərin istifadə etdiyi təkkəyə oxşar baş örtüsüdür. Bunlardan başqa, Roş-Ha-Şana bayramında istifadə olunan Şofar buynuzdan düzəldilmiş nəfəsli bir çalğı alətdir.[1]

## Dağ yəhudiləri bu gün

Hazırda dağ yəhudiləri öz dini ibadətlərini yüksək səviyyədə həyata keçirirlər. SSRİ dövründə onların dini ibadətlərinə rəhbərlik edəcək şəxslərin olmamasından çox narahat olduqları halda indi bu problem ortadan qalxmışdır. Şimtu Yusifov artıq çox rahat olduqlarını deyir. Burada dini ayinləri icra edən din xadimlərinin yetişməsi üçün heç bir problemin olmadığını insanların kifayət qədər dini təhsil ala bilmə imkanlarının yarandığını bildirir.

Qırmızı qəsəbə dağ yəhudilərinin dini ibadətlərinə ravvin Elezar Nisimov rəhbərlik edir. O, uşaqlıq illərindən ibadətlə məşğul olduğunu, özündən əvvəlki ravvinlərin yanında yetişdiyini deyir.

İcma sədri Boris Simanduyev hər şənbə günü müqəddəs Tövrat qarşısında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev üçün ravvinin dua etdiyini bildirir. Burada əmin-amanlıq içərisində müxtəlif millətlərin, din mənsublarının və etnik qrupların birgə yaşamasını icma rəhbəri Azərbaycanda hökm sürən stabilliklə əlaqələndirdi. Bu işdə istər Ümummilli Lider Heydər Əliyevin, istərsə də cənab İlham Əliyevin çox həssas mövqe nümayiş etdirdiyini bildirən Boris Simanduyev Azərbaycanın onların da vətəni olduğunu qeyd etdi. Prezident İlham Əliyevin "Azərbaycan bütün xalqlar üçün Vətəndir" kəlamını xatırladan Simanduyev icma olaraq Vətənin rifahı naminə əllərindən gələni etməyə hazır olduqlarını bildirdi. Boris Yusifoviç Simanduyev xalqlar arasında

[1] Şinasi Gündüz, eyni əsər, s. 239.

dostluq münasibətlərinin inkişafındakı səmərəli fəaliyyətinə görə 2013-cü ilin aprel ayında Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Bütün fəaliyyətinin Uca Yaradan qarşısında dostluq və qardaşlıq münasibətlərinin davam etdirilməsindən ibarət olduğunu bildirən Simanduyev digər dini icmalarla da əməkdaşlıq şəraitində olduqlarını və milli-mənəvi dəyərlərin qorunmasında yaxından iştirak etdiklərini deyir. Dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, dini maarifləndirmə işinin təşkili və aparılması, həmçinin dini icmaların cəmiyyətdə radikalizm meyllərinin qarşısının alınması və sosial problemlərin həlli prosesinə cəlb olunması məqsədilə keçirilən regional konfransların işində də Quba rayonu Qırmızı qəsəbə Dağ Yəhudiləri dini icması yaxından iştirak edir. Mütəmadi hal alan bu konfranslardan biri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və İslam Konfransı Gənclər Forumu Avrasiya Regional Mərkəzinin birgə təşkilatçılığı və Quba Rayon İcra Hakimiyyətinin dəstəyi ilə respublikanın şimal bölgəsində fəaliyyət göstərən dini icma sədrləri, imam və axundlar, eləcə də fəal dindar və ilahiyyatçılar üçün "Dövlət-din münasibətləri və maarifləndirmə işi" mövzusunda Quba rayonunda 2013-cü ilin iyun ayında keçirilmişdir.

2014-cü il sentyabr ayının 16-17-də Qubada Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə respublikanın şimal bölgəsində fəaliyyət göstərən dini icma sədrləri, imam və axundlar, eləcə də fəal dindar və ilahiyyatçılar üçün "Milli adət-ənənələrimiz və müasirlik" mövzusunda ikigünlük növbəti regional konfrans keçirilmişdir. Bu konfransda da Boris Simanduyev geniş və dolğun məzmunlu məruzəsi ilə Azərbaycanda mövcud tolerantlığın yüksək səviyyədə olduğunu xüsusi vurğulamış, yaradılan şəraitə görə Prezidenti İlham Əliyevə öz dərin təşəkkürünü bildirmişdir.




*2014-cü il sentyabr ayının 16-da Qubada "Milli adət-ənənələrimiz və müasirlik" mövzusunda konfransda Boris Simanduyev çıxış edərkən*

Qırmızı qəsəbədə yaşayan dağ yəhudilərinin yerli müsəlman əhali ilə münasibətlərinin yüksək səviyyədə olduğunu deyən Quba rayonu Xanəgah kənd sakini 94 yaşlı Yunus Kazımov bizə bir çox maraqlı faktlar söylədi: "Mənim uşaqlıqdan bəri görüb müşahidə etdiyim ayrı-ayrı səmavi dinlərin təmsilçiləri olan bu iki xalqın həmişə birgə dost və qardaşcasına yaşamış olmasıdır. Bizim kənd ilə dağ yəhudilərinin yaşadığı Qırmızı qəsəbə arasındakı məsafə 30 km-dən çoxdur. Biz ticarət məqsədi ilə Qırmızı qəsəbəyə gedərək istehsal etdiyimiz kənd təsərrüfatı mallarını sataraq oradan lazım olan şeyləri alıb gətirirdik. İndi müasir dövrdə nəqliyyat olsa da, yarım əsr bundan əvvəl keçmiş SSRİ və ondan əvvəlki dövrlərdə bu yolu atla və ya piyada gedib gəlməli olurduq. Elə hallar da olurdu ki, bu məsafəni bir gündə gedib qayıda bilmirdik. Məcbur qalaraq Qubanın özündə və ya Qırmızı qəsəbədə gecələməli olurduq. Bu cür hallarda çox vaxt biz yəhudilərin evində qonaq qalır, onlar da bizə yüksək səviyyədə qonaqpərvərlik nümayiş etdirirdilər.

Bir sözlə, biz onlara öz malımızı, canımız etibar edirdik. Həmişə onlarla qardaşcasına yaşamışıq. Əsas məşğuliyyətləri ticarət olan qəsəbənin yerli əhalisi bir çox hallarda malları səyyar şəkildə kəndləri dolaşaraq satırdılar. Onlar da bu kəndlərin müsəlman sakinləri ilə dostluq, qardaşlıq münasibətində olurdular. Burada yerli kənd sakinlərinin evində qonaq qalırdılar. Tarixən mövcud olan bu dostluq münasibətləri çox gözəl bir haldır ki, bu gün də yüksək səviyyədə davam edir".

Beləliklə, Qubanın yaşlı sakini fərqliliyin bir zənginlik olduğunu, müxtəlif dinlərə, etnik qruplara və xalqlara mənsub olmanın birgəyaşayışa heç bir maneə olmadığını bildirir.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin Quba rayonu üzrə səlahiyyətli nümayəndəsi Elnur Əfəndi sözünə Allahın adı ilə başlayaraq Qurani-Kərimin "Hücurat" surəsinin 13-cü ayəsini misal gətirdi: **"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır".**

Babası Sabir müəllimin uzun illər Qırmızı qəsəbə orta məktəbində direktor müavini işlədiyini, həmişə müsəlman və yəhudilərin birgə çalışdığına özünün bilavasitə şahid olduğunu deyən Elnur Əfəndi Uca Yaradandan bu birlik və mehribançılığın əbədi olması üçün dua dilədi.

Azərbaycanda yaşayan yəhudilərlə yerli xalq həmişə dostcasına yaşamış və tam əminliklə deyə bilərik ki, bu dostluq gələcəkdə də mehribancasına davam edəcəkdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi internet saytı, www.scwra.gov.az
2. B. A. Baranovskiy, Y. N. İvanov Религии мира, s. 335, "Иудаизм", Minsk, 2006, Книжний домь.
3. http://tr.wikipedia.org/wiki/Mikve
4. https://ru.wikipedia.org/wiki/Еврейская_автономная_область
5. İsmayıl Vəliyev, Dünya dinləri Azərbaycan Milli Ensklopediyası Nəşriyyat-Poliqrafiya birliyi, s. 223, Bakı, 2003.
6. Kövsər Tağıyev, Siyası tarihi bağlamında Azerbaycan'da din eyitiminin gelişimi, Uluslararası Sosyal Araştırmalar Dergisi. The Journal of International Social Research Cilt: 6 Sayı: 28, s. 381.
7. Müqəddəs Kitab, Müqəddəs kitab şirkəti, Bakı 2009. Xüruc XX/1-17; Təsniyə (Qanunun təkrarı) V/6-21.
8. Paul Johnson, Yahudi Tarihi, s. 678. Pozitiv yayınları, 2000, çeviri Filiz Orman
9. Şinasi Gündüz, Yaşayan Dünya Dinleri, Diyanet İşleri Başkanlığı Yayınları, Ankara 2007, s. 239.
10. Критика иудейской религии, Праздники синагогальном и домашнем культе Н. М. Никольский, s. 336, Moskva, Издательство «Наука», 1964.

# TARİX VƏ MÜASİRLİYİN QOVŞAĞINDA TOLERANTLIQ NÜMUNƏSİ OLARAQ AZƏRBAYCAN MOLOKANLARI

**Rəşad İLYASOV**[1]

## Giriş

Müasir dünyada dini tolerantlıq ciddi siyasi və humanitar məsələlərdən hesab olunur. Bu baxımdan hazırda Azərbaycan dini tolerantlıq mövzusunda model olma prespektivini göstərir. Məhz ölkəmizdə mövcud olan dinlər, təriqətlər və məzhəblərin müxtəlifliyi bunu təsdiq edir. Bütün bu dini icmalar arasında kordinasiyanı isə əlbəttə ki, uğurlu siyasətə əsaslanan siyasi iradə həyata keçirir. Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi olduqca aktualdır. Məhz möhtərəm Prezident İlham Əliyev də müxtəlif çıxışlarında bu mövzuya toxunaraq məsələni belə qiymətləndirir: "Biz belə yaşayırıq və belə yaşamağımızla özümüzə, bölgəyə və dünyaya sübut edirik ki, multikulturalizm yaşayır. Multikulturalizm nisbətən yeni bir anlayışdır. Əslində bu, müxtəlif mədəniyyətlərə, müxtəlif dinlərə mənsub olan insanların birgə yaşaması deməkdir. Yəni, əsrlər boyu Azərbaycanda bu anlayış yaşayıb, bu gün də yaşayır və möhkəmlənir. Azərbaycan xalqı müxtəlif dövrlərdə müxtəlif ictimai-siyasi quruluşlar çərçivəsində yaşayıb. Buna baxmayaraq, bütün dövrlərdə və xüsusilə ən sevindirici hal ondan ibarətdir ki, müstəqillik dövründə bu müsbət meyllər daha da güclənir. Bizim uğurlu inkişafımızı gücləndirən amillər məhz bunlardır. Azərbaycan burada yaşayan bütün xalqların doğma vətənidir. Hər bir xalqın nümayəndəsi bizim dəyərli vətəndaşımızdır. Biz bütün dinlərin nümayəndələrinə böyük hörmət və rəğbətlə yanaşırıq. Bu gün Azərbaycanda məscidlərlə bərabər xristian kilsələri, katolik kilsəsi, yəhudi sinaqoqları yanbayan dayanır. Budur Azərbaycanın reallıqları və bizim dünya xəzinəsinə verdiyimiz töhfələr".

---

[1] Fəlsəfə üzrə fəlsəfə doktoru, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun Etika şöbəsinin elmi işçisi.

Həqiqətən də Azərbaycan burada yaşayan, öz maddi və mənəvi mədəniyyətini, dilini, dinini, adət-ənənələrini bir çox əsrlər boyu qoruyub saxlayan onlarca xalq və etnik qrup üçün əlverişli ölkə olma imicini mühafizə edir. Bu baxımdan dinlərarası dialoq və tolerantlıq məfhumlarını bir çox aspektdən başa düşmək lazımdır. Birincisi, bütün dinlər mütləqlik ideyasından və iddiasından yola çıxaraq özlərini haqq olduğunu hesab edirlər. Hər hansı bir dinin başqa dindən üstün olma fikri qəbuledilməzdir. Məhz bu rakursdan dinlərarasında dialoq məfhumu aktuallıq kəsb edir. Dinlərarası dialoq dinlər arasında deyil, hər hansı bir dinə inanan şəxslər və dindarlar arasında etik və sosial münasibətlərin yaranması deməkdir.

XVIII əsrin ikinci yarısında rus kəndlilərinin və onlara liderlik edən din adamlarının pravoslav kilsəsi və çarlıq üsul-idarəsi ilə dini və iqtisadi konfliktləri nəticəsində “molokan” adı altında yeni etnik-dini icma meydana gəldi. Pravoslav rus kimliyi qarşısında molokan etnik kimliyinin meydana gəlməsində din və məzhəb fərqliliyi əsas rol oynamışdır.

Azərbaycanda molokanlar əsasən kəndlərdə ayrıca icmalar şəkilində məskunlaşmışlar. Onlar öz adət-ənənələrini, dillərini və dini baxışlarını qoruyub saxlamaqla yanaşı, həmin ərazidə yaşayan yerli sakinlərlə qarşılıqlı ünsiyyət də qurmuşlar.

## Molokanların tarixi

Molokanlar Xristian təriqətlərindən biri kimi xüsusi tarixə malikdir. Dini hərəkatın əsası XVIII əsrin 80-ci illərində Tambov quberniyasının kəndlisi Semyon Uklein (Семен Уклеин) tərəfindən qoyulmuşdur. Öncə pravoslav olan Uklein duxobor (pravoslav kilsəsi mərasimlərini rədd edən dini təriqət) təriqətini qəbul edir, sonra onlardan ayrılaraq özünün xüsusi dərnəyini yaradır. O, yeni təlimi açıq şəkildə təbliğ etmək üçün öz ardıcıllarından 70 “apostol” (həvari) seçərək onlarla birgə Zəburdan surələri uca-

dan oxuyaraq Tambova daxil olur. Lakin polis onları həbs edir. Yalançı "apostollar" pravoslavlığa qayıdaraq azad olunurlar, Ukleinin özü isə tənbeh edilməsi üçün ruhanilərin ixtiyarına verilir. O da özünü pravoslavlığa qayıtmış kimi göstərərək azad olunur. Ancaq bundan sonra Uklein öz təlimini əvvəlkinə nisbətən ehtiyatla təbliğ edir. O, Tambov, Voronej, Saratov, Yekaterinoslav, Həştərxan quberniyalarına, Don Ordusu torpaqlarına və Qafqaza səyahətlər edir. İmperator I Aleksandr taxta çıxdıqdan sonra təriqətçilərə qarşı müəyyən dözümlülük göstərdiyindən, yeni təlim təbliğatçılarının nailiyyətləri daha da artır. Yavaş-yavaş molokan icması üzvlərinin sayının çoxalması və öz etiqadlarına sadiq olmaları nəticəsində Çar hökuməti 22 iyun 1805-ci ildə molokanların öz etiqadlarına görə yaşama və ibadət etmə hüququnu tanıyır.[1]

İmperator I Nikolayın hakimiyyətinin ilk dövrlərindən etibarən duxoborluların aqibəti molokanların da başına gəldi. Hökumət onların Qafqazda yerləşdirilməsi haqqında qərar çıxardı.

1820-ci ildən başlayaraq molokanlar Cənubi Qafqaza, Krıma, 1870-ci illərdə isə Sibirə, Zakaspi və Qars vilayətlərinə köçürülmüşlər.

Molokanlar meydana gəldikləri gündən etibarən təqib edilmişlər. Bu da onların etiqadları və ibadətləri haqqında gizli hərəkət etmələrinə səbəb olmuşdur. Xüsusilə Çar I Nikolayın dövründə (1825-55) molokanlar və digər məzhəblər üzərində təzyiq daha da artmışdı.[2]

Çar Rusiyası molokanlara qarşı sərt tədbirlərə əl atırdı. Onların saqqal və bığlarını kəsərək hərbi xidmətə getməyə məcbur edirdilər. Etiqadlarına zidd olan bu işgəncəyə boyun əyməyərək onlar müxtəlif yerlərə, o cümlədən Azərbaycana köçürdülər.

Çarlıq dövründə təzyiqlərə məruz qalan molokanlar 1880/81-ci illərdə Qarsa yerləşdirilərək burada 35 kənddə məskunlaşdılar. Bu dövrdə Qars Zaqafqaziya İdarəsinə bağlı bir

---

1 И .Морозов, Молокане, М.-Л., 1931, s.10-13.

2 Andreas Buss, The Russian Orthodox Tradition and Modernity, Boston, Brill, 2003, s. 85.

vilayət olaraq Çar Rusiyasına tabe idi.[1] 1920-ci ildə imzalanan "Gümrü" müqaviləsi ilə Qarsın Türkiyəyə verilməsi nəticəsində ruslar ilə birlikdə molokanların da çoxu geri qayıtdılar.[2]

Oktyabr inqilabı ilə iqtidarı ələ keçirən bolşeviklər dinə qarşı məsafəli idilər və hətta dini qadağan edirdilər. Ancaq Çar Rusiyasının əksinə Sovet İttifaqı molokanlara daha çox imkan yaratdı. Məhz inqilabdan sonra Türkiyə ərazisində Qars şəhərində olan 35 kəndin 32-si Sovet İttifaqına köçürüldü.[3] 1920-ci ildə Rusiya molokanlar konfransı təşkil olunmuş və Rusiya Ruhani Xristian Dini İcmaları Birliyi adı altında bir təşkilat da yaradılmışdı. İlk illərdə molokanlar hərbi xidmətə getməyi rədd etsələr də, 1929-cu ildə baş tutan 4-cü konfransda dini icma olaraq orduda xidmətetmə qərarını qəbul etmişlər.[4]

XIX əsrin axırlarında on beş min molokan ABŞ-a köçmüşdür. Hazırda San-Fransisko şəhərində onların mərkəzləri vardır.[5]

Hazırda molokanların mərkəzi təşkilatı Rusiyanın Stavrapol vilayətində fəaliyyət göstərir. 28 iyul - 4 avqust 1998-ci il tarixlərində burada molokan presviterlerinin beşinci, uşaq və gənclərin isə ilk qurultayı keçirilmişdir. Bu qurultayda Azərbaycandakı molokanların Bakı presviteri N.V.Kotov və Sumqayıt icmasının presviteri N.V.Boldırev iştirak etmişlər.

Sovetlər birliyi süqut etdikdən sonra molokanlar dini həyatlarını sərbəst yaşama imkanı əldə etdilər. Ancaq müasir dövrdə missionerlik fəaliyyətləri molokanlar üçün ciddi təhlükələr yaradır. Molokan gəncləri getdikcə baptist və evangelistlərin təsirlərinə məruz qalırlar.

---

[1] Orhan Türkdoğan, Malakanları`ın Toplumsal Yapısı, Erzurum, Atatürk Üniversitetsi nəşr, 1971, s. 26.

[2] Z.F. Fındıkoğlu, Türkiye`de İslav Muhacirleri, İstanbul, Fakülteler nəşr, 1996. s. 35.

[3] Erkan Karagöz, Kars ve Çevresinde Aydınlanma Hareketleri ve Sol Geleneğin Tarihsel Kökenleri 1878-1922, İstanbul, Asya Şafak nəşr, 2005, s. 53-54; 160.

[4] Therese Adams Muaranaka, The Russian Molokan Colony at Guadalupe, Baja California: Continuity and Change in a Sectrarian Community, s. 40.

[5] И.А. Малахова, О современных молоканах. М., 1968. s. 13.

## Molokan etiqadının məzmun və mahiyyəti

Molokanların etiqad sistemi əsasən Rus pravoslav kilsəsinə qarşı qurulmuşdur. Tədqiqatçı Nikolas Breyfoql molokanizmi rusların yerli məzhəbi, dini olaraq ifadə edir.[1]

Molokan adının mənşəyinə dair dörd müxtəlif görüş mövcuddur. Birinci görüşə görə, bu dini icma orucluq zamanı süd (moloko) içdiklərindən dolayı onlara bu ad verilmişdir. İkinci görüşə görə, icma adı Zəburda yəhudilərə olan məktubda *"Və güclü qidaya deyil südə möhtaç olmusunuz" c*ümləsindən götürmüşdür. Üçüncü görüşə görə, molokanlar bu adı Çar hökuməti tərəfindən sürgün edildikləri Tavriya əyalətindəki "Moloçnoy"` çayının adından almışlar. Ancaq bu, elmi-tarixi faktlara əsaslanmır. Çünki hələ molokanlar sürgün edilmədən əvvəl Tambovdakı pravoslav kilsəsinin 1765-ci ildəki arxivdəki yazılarında bu icmanın adı molokan olaraq keçir.[2] Dördüncü görüşə görə isə II Yekaterina icma üzvlərini sürgün edərkən onların əksəriyyəti qarşılarına çıxan çayda boğulmuşlar. Boğulanların sayı II Yekaterinaya bildirildiyində o, "malo kanuli" (az boğulmuşlar) demişdir. Beləliklə, molokan adı da buradan meydana gəlmişdir.

Molokanların iqtidarı ələ keçirmək kimi radikal tələbləri olmamışdır. Çünki onlar Həzrət İsanın şiddətə qarşı olmasını özləri üçün dini əsas kimi qəbul etmişlər. Eyni zamanda silah gəzdirmək və ondan istifadə etmək, hətta hərbi forma geyinmək molokanların dini təliminə görə qadağandır. Molokanlar icma halında bir yerdə yaşamaq və müəyyən öhdəliklərdən azad olmaq üçün sürgünə belə razı olmuşlar. Bu mənada "bratstvo"

---

[1] Nicholas B. Breyfogle, ``Prayer and the Politics of Place: Molokan Church Bulding, Tsarist Law and the Quest for a Public Sphere in Late Imperial Russia``, Religion and Spirituality in Modern Russia, ed. M.D.Steinberg və H.J. Coleman, Indiana, Indiana Uni.Press, 2007, s. 224.

[2] И. Морозов., Молокане, s. 6.

(qardaşlıq) və "obşestvo" (icma) kimi dəyərlər molokan inancının mərkəzində durur.[1]

Molokan dini hərəkatının davamçıları orucluq vaxtı süd (rus dilində moloko) içdiklərinə görə belə adlanır. Onlar özləri isə bu adı "mənəvi südlə qidalanmaları" ilə izah edirlər.[2] Bu adlandırma, eyni zamanda molokanların etiqadlarını "süd kimi təmiz və saf olduqlarını" ifadə etmələrindən də qaynaqlanır. Burada diqqət edildiyində görülür ki, bu adlandırmalar birbaşa dini məzmun və mahiyyət daşıyır. Pravoslavlar molokanları günahkar və dindən çıxan zındıq qrup kimi təsvir edirlər.

Molokanlar arasında ictimai bərabərliyin əhəmiyyətini ortaya qoyan ən əsas faktor burada ruhani sinfin olmamasıdır. Onların "presviteri" olaraq adlandırdıqları camaat liderləri vardır.[3] Ancaq bunlar klassik ruhani sinfində olduğu kimi nə imtiyazlara malikdirlər, nə də dini sahədə çalışan professional mütəxəssisdirlər. Çünki molokan etiqadı rəsmi pravoslav kilsəsindəki dini iyerarxiyanı da rədd edir.[4]

Molokanlar dini təlimlərinin yeganə mənbəyi kimi İncili tanıyırlar, həm də Bibliya kəlamlarını sərbəst şəkildə izah edirlər. Molokanlar hazırda yalnız özlərinin əsl dindarlar olduğunu söyləyir, heç bir dini hekayəti, kilsə qərarını qəbul etmir, yalnız İncilin göstərişlərini yerinə yetirirlər. Onlar kilsədə xüsusi səlahiyyətlərə malik şəxslərin iyerarxiyasını da tanımırlar. Molokanların kilsələri yoxdur, onların ehkamçılıq təlimi "Dini qaydalar" adlı kitablarda təsvir olunur. Onların təliminə görə, ölülər

---

1 Therese Adams Muaranaka, The Russian Molokan Colony at Guadalupe, Baja California: Continuity and Change in a Sectrarian Community, A Dissertation Submitted of the Faculty of the Department of Anthropology, The University of Arizona, 1992, s. 39.

2 Orhan Türkdoğan, Kars`ta Bir Etnik Grup-Malakanlar`ın Toplumsal Yapısı, İstanbul, İQ nəşr, 2005.

3 Roman Lunkin & Anton Prokofyev, "Molokans and Dukhobors: Living Sources of Russian Protestantism", Religion, State and Society, Vol.28, No: 1, 2000: s. 85.

4 Nicholas B. Breyfogle, "Prayer and the Politics of Place: Molokan Church Bulding, Tsarist Law and the Quest for a Public Sphere in Late Imperial Russia", s. 228.

ruhən deyil, cismən diriləcəklər. Dini ayinlər haqqında pravoslav təlimini rədd edirlər. Orucluğa gəldikdə isə molokanların fikrincə, oruc müəyyən vaxt müddətində deyil, insanın özünü günahkar olduğunu və nəfsinin ağlına üstün gəldiyini hiss etdikdə tutulmalıdır. Onlar qidalanmada donuz əti və pulcuqsuz balıqdan başqa hər şeydən istifadə edirlər. Molokanların ibadəti Bibliyanın, əsasən də Zəburun məşhur hissələrinin qiraətindən və nəğmə kimi oxunmasından ibarətdir. Keşiş adətən ön cərgədə əyləşib Bibliyadan kəlamlar oxuyur, dinləyicilər isə onu uzada-uzada təkrarlayaraq nəğmə şəklində ifa edirlər.

Molokanlara görə, həqiqi xaç suyuna salınma Həzrət İsanın təlimini səmimi şəkildə qəbul etməkdir. Onlar bəzi təriqətlər kimi elmi inkar etmir, əksinə çox əhəmiyyət verirlər. Ancaq onlara görə, elm insanı təkbaşına xoşbəxt etməz. Bunun üçün Tanrı ilə əlaqənin olması lazımdır. Dini icma arasında həyat yoldaşı yaşayarkən ailə quran qadın və kişiyə pis baxılır.[1]

Molokanlarda insanlardan və təbiətdən müstəqil mütləq Tanrı məfhumu vardır. İcmada dözümlülük və ağıl etiqadın əsasında yer almaqla bərabər şəxsi nöqsanı həll etməyin və qabiliyyətin ortaya çıxarılmasının yolu olaraq çalışmaq ən üstün əxlaqi kateqoriya olaraq mənimsənir.[2]

Molokanlarda toplu şəkildə həyata keçirilən ibadətlər və camaat liderləri tərəfindən İncildən oxunan parçalar dini icmanın həyatında mühüm əhəmiyyət daşıyır.[3]

Molokanlara tətbiq olunan təzyiq və sürgünlər bu dini icmanın etiqadını mühafizə etmə məsələsində daha da mübariz etmişdir. Belə ki, molokanların kəndli sinfinə aid hərəkatlarından yeni bir etnik kimlik yaranmışdır. Yəni, sinfi olaraq meydana gələn bir hərəkat konfliktlər, uzaqlaşdırmalar və ta-

---

1 И.А. Малахова, О современных молоканах, s. 13-28.

2 Therese Adams Muaranaka, The Russian Molokan Colony at Guadalupe, Baja California: Continuity and Change in a Sectrarian Community, s. 39.

3 Roman Lunkin & Anton Prokofyev, "Molokans and Dukhobors: Living Sources of Russian Protestantism", s. 86.

mamilə fərqliləşən dini etiqadın yaratdığı ideoloji əsaslar ilə etnik kimliyə çevrilmişdir.

Molokanizm qapalı kimlik modelini yaratmışdır. Hər nə qədər Xristianlıq içərisində meydana gəlsə də, molokanizm bir etnik-dini, yəni Xristianlığın etnik dinə çevrilmiş şəklini təmsil edir. Bu baxımdan istəyən hər kəs xristian ola bilər, ancaq xristian olmasına rəğmən molokan ola bilməz. Molokanlar özlərini ortaq bir soydan meydana gələn icma kimi qəbul edirlər.

Nəticədə molokanların pravoslav kilsəsindən ayrılmalarında həm dini, həm də iqtisadi səbəblər rol oynamışdır. Əslində molokanlarda dini və iqtisadi sahələr çox əlaqəli şəkildədir. Ağır vergilər, kollektiv kəndlərin dağıdılması və s. hadisələr iqtisadi ayrılmanın, Rus pravoslav kilsəsindəki rituallar və Xristian qardaşlığı prinsipinə uyğun yaşadılan camaat sisteminin dağıdılması dini səbəbləri təşkil edir. Məhz molokanlarda aqrar sahədə, taxılçılıq və heyvandarlıqla məşğul olma bir növ camaat uğrunda işləmə ibadət kimi qiymətləndirilir.

Çar Rusiyası molokanlara qarşı sərt tədbirlərə əl atırdı. Yuxarıda qeyd etdiyimiz kimi, saqqallarını, bığlarını qırxır, onları hərbi xidmətə getməyə məcbur edirdilər. Etiqadlarına zidd olan bu işgəncələrə boyun əyməyərək onlar müxtəlif yerlərə, o cümlədən Azərbaycana köçürüldülər.

XVIII əsrdə meydana gələn molokanizm, eyni zamanda Qərbdə yaranan protestantlıqla da az da olsa, əlaqələri vardır. Belə ki, XVIII əsr artıq Rusiyanın qərbləşmə prosesinə başladığı dövrdür. Bu proses rus kəndlisinə də öz təsirini göstəririrdi. Bu mənada Çar Rusiyası müqəddəsləşdirən pravoslav kilsəsi ilə rus kəndlisi arasında uçurum genişlənirdi. Bu səbəblə də molokanlar iqtisadi və dini dünya görüşlərinin fərqliliklərinə istinad edərək Rus pravoslav kilsəsinə və çar üsul-idarəsinə qarşı çıxdılar.

Molokanlar başqa protestant cərəyanlarının təsirinə düşməyiblər, daha mötədildirlər və yeni təriqətlərin ardıcılları ilə müqayisədə öz təlimlərinin təbliğatına az meyillidirlər. Hal-

buki müasir dövrdə baptizmə məzmun və mahiyyətcə yaxın olmaları səbəbilə molokan gəncləri bu təriqətə daxil olmağa meyllidirlər. Bu meyilin arxasında da baptistlərin varlı və dünya miqyasında geniş əlaqələrə malik olmaları durur.

Molokanlar işləməyi ibadət olaraq görürlər. Onlar müştərək işləməyi və bütün icmanın bu istiqamətdə hərəkət etmələrini dini əmr sayırlar.

Məşhur rus yazıçısı Lev Tolstoy molokanların saf və təmiz olduqlarını deyərək onlara kitablarından aldığı müəlliflik qonorarından köməklik göstərirdi.

Molokanlar sürgün olunmalarını yəhudilərin sürgününə bənzədərək bunun Tanrının istəyi və iradəsi kimi qəbul edirlər. Hətta, bu sürgünlə bağlı molokanların folkloru da yaranmışdır. Məhz pravoslav kilsəsindən ayrılmalarını da Həzrət İsanın yaşantısı ilə bir tutaraq izah edirlər.

## Azərbaycan molokanları

Azərbaycanda molokanlar, əsasən Bakı, Sumqayıt, Şamaxı, İsmayıllı, Gədəbəy və Qubada yaşayırlar. İlk molokan icmaları Azərbaycanda XVIII əsrin ortalarında meydana gəlmişdir. Onları ölkəmizə Rusiyadan kafirliyə və pravoslav kilsəsinin əleyhinə çıxdıqlarına görə sürgün etmişlər.

Ümumiyyətlə, molokanların Azərbaycan ərazisinə ilk köçü 1832-ci ilə təsadüf edir. Tarixi mənbələrə görə, onlar Rusiyadan Qarabağın Qızılqışlaq yaşayış məntəqəsinə "kilsə və pravoslav etiqadına zidd getdiklərinə görə" sürgün olunublar. 26 kişi və 30 qadından ibarət ilk dəstədən sonra növbəti illərdə molokanların Zaqafqaziya axını artır. Molokanların köçürüldüyü ərazilər sırasına müsəlmanların üstünlük təşkil etdiyi Borçalı və İrəvan bölgələri də daxil idi. Onlar özlərinin zəhmətsevərliyi və düzgünlükləri ilə tez bir zamanda yerli sakinlərin rəğbətini qazanırlar. Məsələn, Don torpaqlarından sürgün olunmuş mo-

lokanlar haqqında çar idarəsinə göndərilən hesabatda yazılmışdı: "Sürgün olunmuş molokanlar yerli əhali ilə mehriban münasibətdədirlər. Onların arasında demək olar ki, əyyaşlıq halları qeydə alınmayıb. İşgüzar və zəhmətsevərdilər. Əsasən heyvandarlıq və əkinçiliklə məşğuldurlar".

XIX əsrin ortalarında Azərbaycanda 5282, 1870-ci ildə isə 16008 molakan yaşamışdır. Bunlardan 10844-ü Bakıda, 5164-ü isə Yelizavetpol (Gəncə) quberniyasında yaşayırdı.[1]

Molokanların "ümumi molokanlar" (obşie molokanı) adlandırılan qolu 1855-ci ildə Rusiyanın Saratov əyalətindən Lənkəranın Qızılağaç kəndinə sürgün edilmiş və onlar burada qardaşlıq birliyi (bratskiy soyuz) quraraq yaşamışlar.[2]

Hazırda Azərbaycanda molokanların bir neçə dini icması fəaliyyət göstərir. Onlardan ən böyükləri Bakıda (150 nəfərə yaxın) və Sumqayıtda (100 nəfərə yaxın) yerləşir. Üzvlərinin sayı 10 nəfərdən çox olmayan qalan icmalar Şamaxı, Qaradağ, Xızı, İsmayıllı rayonlarında fəaliyyət göstərir.

Bütün icmalarda əsasən yaşlı üzvlərin qeydiyyatı aparılır. Gənclər və uşaqlar adətən icmaya üzv olmurlar. İcmanın üzvləri yalnız rus millətinə mənsubdurlar. Onlar missionerliklə məşğul olmurlar, icmanın üzvlərinin sayı isə ildən-ilə azalır. İcmada qanunvericilik hallarının pozuntusu müşahidə edilmir.

Onların dini mərkəzləri yoxdur və hər bir icma müstəqil şəkildə fəaliyyət göstərir. Bununla bərabər, Bakı icması ilə Stavropol diyarının molokan icmaları arasında sıx əlaqələr vardır. Maliyyə gəlirləri icma üzvlərinə maddi yardım göstərməyə, ibadət evlərinin saxlanılmasına sərf olunur.

Ümumiyyətlə, Azərbaycanda iyirmi iki molokan icması vardır. Bakıda bir, Şamaxıda yeddi, Cəlilabadda dörd, Gədəbəydə iki, Qubada iki, İsmayıllıda bir, Abşeronda bir, Qazaxda bir, Masallıda bir, Sumqayıtda bir və Lənkəranda bir icma olmaqla

---

[1] Х.Й. Вердиева, Переселенческая политика Российской империи в северном Азербайджане, Баку, 1999, s. 181; 178-179.

[2] Н. Дингелщдедт, Закавказские сектанти, С-Петерсбург, 1885, s. 54.

Azərbaycanın üç şəhər və səkkiz rayonunda məskunlaşmışlar. Tədqiqatçı Koritinə görə, 1987-ci ildə bu icmalarda 3665 molokan yaşayırdı. Onların çoxu mənşəcə rus və ukraynalı olub yalnız Bakı icması üzvlərindən biri azərbaycanlıdır.[1]

Molokanizmin bir qolu olan priqunlar icra etdikləri ayinlərindəki hoppanma (prıqat) ilə fərqlənirlər. Priqunlar molokanlar kimi ayini icra etdikdən sonra Müqəddəs Ruhun hər hansı bir icma üzvündə təcəlli etdiyini düşünərək hoppanmaqla rəqs edirlər. Ayin axşam saat 5 də başlayıb, 10 da qurtarır. Priqunların "Obryad" (ayin) adlı qədim slavyanca yazılmış kitabları var. Bu kitab dualardan ibarətdir.[2]

1961-ci ildə Azərbaycandakı priqun icmasında olan tədqiqatçılar P.A.Qladkov və G.Y.Korıtin Gədəbəy rayonunun Novosaratovka kəndindəki priqunların ayinlərində iştirak etmişlər. Onların yazdıqlarına görə, ayin zamanı priqunlar saf tutaraq alınlarını yerə qoyaraq dua edirlər. Burada hər kəs yalnız özü üçün dua edir.[3]

Ümumi molokanlar (molokane obşiye) adlandırılan sekta Lənkəranda fəaliyyət göstərir və liderləri Mixail Popovu məsih olaraq görürlər.[4]

Qeyd edək ki, hazırda Gədəbəy rayonunda 350-dək molokan yaşayır. Onlar rayonun Novo-Saratovka, Slavyanka və İvanovka kəndlərində məskunlaşıblar.

Azərbaycanda bir neçə məşhur molokan kəndi vardır. Bunlardan biri də Kalinovka kəndidir. Kalinovka Azərbaycanda ən qədim molokan kəndlərindəndir. Kənd Bolşevik inqilabçı Kalinin şərəfinə belə adlandırılır. 1828-ci ildə İranla Rusiya arasında bağlanmış "Türkmənçay" müqaviləsindən sonra Zaqafqaziyada rus əsgərləri məskunlaşdı. Həmin ərazi Xəzər dənizi sahilində,

---

1 Г.Й. Коритин, Что такаое секти, Баку,1987. 1987, s. 59-60.

2 Н. Дингелшдедт, Закавказские сектанти, s. 6-15.

3 П.А.Гладков и Г.Й. Коритин, Христианские секти в Азербайджане, Баку, 1961, s. 38-41.

4 Н. Дингелшдедт, Закавказские сектанти, s. 46.

poçt yolu kənarında olması güman edilir və Şamaxıdan 1833-cü ildə köçüb gəlmiş otuz molokan burada məskunlaşır. 1837-ci ildə çarın fərmanı ilə Azərbaycandakı rus kəndlərinin salınması prosesi başlayır. 1838-ci ildə Mixail Akinfeyeviç Popovun tərəfdarları Lənkəran qəzasının Qızılağac kəndi yaxınlığında poçt yolu ətrafında yerləşirlər. Yaşayış ərazisi hərtərəfli yararlı bir məkan idi. 1840-cı ildə Popovun həmfikirlərinin yeni dəstəsi Rusiyadan sürgün edilir və otuz iki molokan bu ərazidə yerləşdirilir. Yeni salınmış ərazi Mixail Popovun şərəfinə Mixaylovka adlandırılır. Sonralar bu ad Nikolayevka ilə əvəz edilir. Molokanlar bu adla barışaraq onu qəbul edirlər. Sürgün edilən molokanlar əsasən Rusiyanın mərkəzindən, Volqa boyundan gətirilmişlərdir. Onların hamısına Popov rəhbərlik edirdi. Molokanlar əsasən heyvandarlıq və əkinçiliklə məşğul olurdular. Sonrakı illər buraya yeni-yeni dəstələr, Popovun tərəfdarları axıb gəlirlər. Molokan icmasına qocalar və ya seçilmiş şəxslər başçılıq edir. Sovet hakimiyyətinin qələbəsindən sonra bu kəndin adı dəyişdirilərək Kalinovka adlandırıldı.

Tarixi mənbələr qeyd edir ki, Masallı rayonunda ilk təhsil ocağı (məktəb) 1861- ci ildə Kalinovkada açılmışdır. Təməli hələ 19-cu əsrin birinci yarısında qoyulmuş məktəb indi də rayonun təhsil sahəsində qabaqcıl yerlərdən birini tutur.

Digər bir məşhur molokan kəndi İvanovkadır. İsmayıllı rayonunun məşhur İvanovka kəndində vaxtilə Rusiyadan bu diyara köçüb gəlmiş molokan nəslinin davamçıları yaşayırlar.

İvanovkada təxminən 3000 əhali yaşayır. 10 fevral 1828-ci ildə imzalanan "Türkmənçay" müqaviləsindən sonra molokanlar və duxoborlar başda olmaqla bir çox rus kəndlisi Azərbaycan torpaqlarında yerləşdirildi. Daha sonra Rusiyanın Tambov, Voronej, Rostov və Stavropol şəhərlərindən sürgün edilən molokanların yerləşməsi ilə 1834-cü ildə İvanovka kəndi salınmışdır. Kənddə hazırda 2500-ə yaxın xristian molokan, 500-ə yaxın isə müsəlman yaşayır.

Azərbaycandakı molokan icmalarından yalnız üçü - Bakı şəhəri "Molokan ruhani-xristian", Sumqayıt şəhəri "Molokan ruhani-xristian" və Qobustan rayonu Hilmilli kəndi "Molokan ruhani-xristian" dini icmaları Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmişdir.[1]

Hazırda Azərbaycanda yeganə kolxoz məhz İvanovkada fəaliyyət göstərir. Dini dünya görüşlərinə görə, kollektiv işləməyi ibadət qəbul edən ivanovkalı molokanlar kolxozun özəlləşdirlməsini istəmədilər. Azərbaycan hökuməti də molokanların istəyini tolerantlıq çərçivəsində qiymətləndirərək onlara bu imkanı verdi. İvanovkanın unikal mikroiqlimi var. Orada əldə olunan balın müalicəvi faydası və təkrarolunmaz dadı da bundan qaynaqlanır.[2]

Digər tərəfdən İvanovka özünün süd məhsulları ilə də məşhurdur. Bakıda müxtəlif yerlərdə "İvanovka" adlı mağazalarda süd və süd məhsulları satılır. Eyni zamanda İvanovka şərabı və südü artıq Azərbaycan və post-sovet məkanında məşhur ticarət markası olaraq tanınır.

Mehriban icma halında yaşayan İvanovkada 1931-ci ildə kolxoz qurulmuş və bu status indiyədək, artıq müstəqil dövlət olan Azərbaycanda da saxlanılır. Təsərrüfatın nizamnaməsini saxlamağa kolxozun o vaxtkı sədri Nikolay Nikitinə Ümummilli Lider Heydər Əliyev ötən əsrin 90-cı illərinin əvvəllərində şəxsən özü icazə vermişdir. Bu diqqət və qayğı Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti dəfələrlə İvanovkada olmuş, onların problemləri ilə maraqlanmış, həmişəki kimi yaşamaları və çalışmaları üçün lazımi şərait yaratmışdır. Hazırda kolxozun adını daşıdığı Nikolay Nikitin təsərrüfata 41 il başçılıq etmişdir. Sədrin vəfatından sonra onun işini özlərini məhz "nikitinçilər" adlandıran şagirdləri davam etdirməkdədir. Kolxozun indi-

---

[1] Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi internet saytı, www.scwra.gov.az

[2] http://gun.az/social/102149

ki, sayca 13-cü sədri Aleksey Timofeyeviç Kozlovtsov uzun müddət özünün əfsanəvi sələfi və müəllimi ilə çiyin-çiyinə təsərrüfatın baş mühəndisi işləmişdir.

Azərbaycan molokanlarının yaşadığı kəndlərdə və rayonlarda iki qəbiristanlıq mövcuddur. Biri müsəlman, digəri xristian qəbiristanlığı. Molokan, baptist və digər Məsih təriqətlərinin üzvləri xristian qəbiristanlığında dəf edilirlər. Ancaq molokan qəbirlərində xaç simvolundan istifadə olunmur. Məhz molokan kəndlərindəki xristian qəbiristanlığına daxil olduqda rahat şəkildə molokan qəbirlərini müəyyən etmək mümkündür.

Ümumiyyətlə, məşhur alman sosioloqu Maks Veberin "İcmalarda dini əxlaq və əmirlər iqtisadi fəaliyyətlər üzərində olduqca təsiredici qüvvəyə malikdir" şəklindəki ifadəsini Azərbaycanda yaşayan molokanların həyatlarında görmək mümkündür. Məsələn, türk tədqiqatçı İvanovkada 2006-cı ildə apardığı sosioloji sorğu və müşahidələrin nəticəsi olaraq qeyd edir ki, kənddə çayxana yoxdur. Bu onunla izah edilir ki, kənddə yaşayan molokanlar bütün günü işdə olduqlarına görə vaxt tapıb çayxanaya gedə bilmirlər. Onlar işlədikləri yerlərdə çay içirlər. Buna görə də İvanovkada çayxananın olmaması qəribə qarşılanmır.[1] Məhz belə bir tendensiyanın molokanlar arasında olması onların dini düşüncələrinə uyğun olaraq iş əxlaqını da formalaşdıran əsas səbəblərdəndir.

Azərbaycanda molokanların Bakıda, Sumqayıtda, İsmayıllıda və digər rayon və kəndlərdə dua evi (dom malitvı) adlandırdıqları məbədləri mövcuddur. Dua evlərinin divarlarında heç bir şəkil, ikona və xaç işarəsi yoxdur. Onlar hər bazar günü səhər tezdən bu dua evlərinin qarşısında toplanır, qadın və kişilər ayrı yerlərdə oturaraq öz ayinlərini icra edirlər. Dualar oxunub qurtardıqda molokanlar bir yerdə amin deyirlər. Bəzi dualar isə xor şəklində oxunur. Molokanlar dua edərkən ortada bir xalça olur. Presviter adlandırılan din lider xalçaya yaxın-

[1] Çakır Ceyhan Suvari, Malakanlar, Ütopya nəşr, İstanbul, 2013, s. 100-101.

laşaraq dua oxuyur və hər dua qurtaranda camaatla birlikdə səcdə edirlər və bu, doqquz dəfə təkrarlanır.

Əslən İvanovka kəndindən olan ancaq hazırda Bakıda yaşayan Azərbaycan vətəndaşı Vasili Borisov ilə görüşümüz zamanı o, molokanlara məxsus toy ənənəsini bu şəkildə təsvir etdi:

"Molokanlarda oğlan atasına gedib bir molokan qızından xoşu gəldiyini deyər və ata da gedib o qızı valideynlərindən istəyər. Bizdə toy üç gün davam edir. Birinci gün qızın evinə gedirik. O gün bəy qızı görmür. Paltar və hədiyyələr verilir. Qızın evindən gəldikdən sonra bəyin dostları pul toplayıb yeni qurulacaq evin bəzi ehtiyaclarını qarşılayır. İkinci gün bəy evinə qonaqlar gəlir, ancaq gəlin gəlməz. O gün yeyilib-içilir və bu günə "iş qurtardı" deyilir. Üçüncü gün qızı gətirməyə gedərlər və gəlin yeni evinə gəldiyində ona orada presviteri (molokan din adamı) dualar oxuyar. Axşamadək məclis qurular, yeyilər-içilər və nəhayət hər kəs evinə qayıdar. Bəy və gəlin də öz yeni evində qalar".

Vasili Borisovun həyat yoldaşı Tatyana xanım da bu görüşümüzdə maraqlı bir məqama toxundu. O, əvvəllər daha çox yaşanılan "proqulka" ənənəsindən bəhs etdi:

"İvanovkada gənclər bazar günləri məktəbin arxasındakı böyük bir tarla ərazisinə gedər, qarmonlar çalınar, rəqslər edilər və cavanlar bir-birləri ilə tanış olarmış. Hazırda bunun yerini müasir diskoteka tendensiyası almışdır".

Azərbaycandakı molokanlar yaşadıqları kənd və rayonlarda çox etnikliliyin bir hissəsini təşkil edir. Bu, daha böyük mənada Azərbaycanda müxtəlif xalq və qrupların yaşaması ilə mozaik şəklində multikultural mədəniyyətin və tolerantlığın yaranmasına səbəb olur. Əlbəttə ki, bu tendensiyanın tarixi kökləri vardır. Müasir dövrdə də bu tarixi kökləri ilə olan əlaqəsini qoruyaraq reallığı əks etdirir. Məhz Azərbaycanda yaşayan molokanlar da tarix və müasirlik qovşağında tolerantlıq nümunəsi olaraq ölkəmizə öz töhfələrini verirlər.

Azərbaycanda yaşayan molokanların tolerantlıq kontekstində ən mühüm cəhətlərindən biri də odur ki, onlar yaşadıqları kənd və rayonlarda öz tarixi adət-ənənələrinə uyğun olaraq səliqəli evlər tikir, gül-çiçəkli bağçalar salır və evlərinin önündə oturmaları üçün skamyalar düzəldirlər. Bütün bunlar hardasa köçüb gəldikləri Saratov, Voronej və digər şəhərlərin tipik mənzərəsini əks etdirir. Məhz Azərbaycanın səfalı yerlərində molokanların kəndlər salması, eyni zamanda öz tarixləri və həyat anlayışlarına uyğun yaşama şəraitlərinə də təsir göstərir.

Digər tərəfdən Azərbaycanda yaşayan molokanlar dini etiqadlarına görə, silahdan istifadə etmək, qan tökmək, dava salmaq kimi hərəkətlərdən uzaqdururlar. Məhz molokanların bu dini etiqadlarının xüsusiliyi onların tolerantlığa necə də meylli olduğunu göstərir.

Azərbaycan Respublikasının təhsil sistemində molokanlar üçün xüsusi diqqət göstərilir. Belə ki, 2007-ci ildən dövlət başçısı İlham Əliyevin təlimatı ilə molokanların yaşadıqları rayon və kəndlərdəki məktəblərdə həftədə bir neçə saat "Molokan tarixi" adlı dərs keçirilir.

Molokanlar müasir dünyadakı digər insanlar kimi yeni şərt və şəraitlərə uyğun həm iqtisadi, həm də sosial inkişaf nəticəsində öz kimliklərini yenidən qurmağa çalışırlar. Məhz ölkəmizdə molokanların tolerantlıq və dini plüralizm kontekstində öz dini etiqadlarına uyğun həyat sürmələri Azərbaycan Respublikasının Konstitusiyası və "Dini etiqad azadlığı haqqında" Qanunla da qarantiya altına alınmışdır.

Digər tərəfdən artıq 200 ildən çoxdur ki, molokanlar Azərbaycanın yerli sakinləri olaraq qəbul edilir. Belə ki, bu 200 illik tarixdə Azərbaycan xalqı ilə molokan xalqı çox səmimi şəkildə münasibətlər qurmuş, bir-birlərinə qarşı daima hörmət və ehtiram göstərmişlər. Əgər belə olmasaydı, hazırda tolerantlıq kontekstində azərbaycanlı molokanlardan bəhs edə bilməzdik. Məhz Azərbaycanın bu uğurlu tolerant mədəniyyəti və siyasəti

nəticəsində həqiqətən də ölkəmiz sivilizasiyalararası dialoq və tolerantlıq mövzularında qlobal arenada böyük nüfuza malikdir.

## Nəticə

Molokanların Rus pravoslav kilsəsindən ayrılmalarında iqtisadi və dini səbəblər rol oynamışdır. Molokanizm meydana gəldiyi ilk günlərdən etibarən təzyiq və təqiblərə məruz qalmışdır. Bu təzyiq və təqiblər nəticəsində molokanlar öz doğma diyarlarından köçmüş və sürgün edilmişlər. Bütün bunlar molokan etnik kimliyinin yaranmasında əsas faktor rolunu oynamışdır.

Tarixi mənbələrdən məlum olur ki, molokanlar Çar Rusiyası dövründə Azərbaycan ərazisinə köçürülərək müxtəlif rayon və kəndlərdə yerləşdirilmişdir. Keçmiş Sovetlər birliyi dövründə də molokanlara xüsusi diqqət göstərilmişdir.

Yenidən müstəqillik qazandıqdan sonra Azərbaycanda molokanlara dövlət tərəfindən xüsusi qayğı göstərilir. Məhz molokan icmalarının dövlət qeydiyyatına alınması, onlara yaşadıqları regionlarda dövlət tərəfindən hər cür şəraitin yaradılması bunun bariz nümunəsidir. Bu baxımdan Azərbaycan müxtəlif dini və etnik qrupların yaşadığı bir ölkə olaraq dünyaya öz tolerantlıq modelini təqdim etmişdir.

Dini dünya görüşlərinə görə, işləməyi ibadət sayan molokanlar tez bir zamanda Azərbaycan xalqı ilə ünsiyyət quraraq müasir dövrədək tolerantlıq nümunəsini əyani şəkildə göstərmişlər. Bu tolerantlığın nəticəsidir ki, ölkəmizdə molokanlarla bağlı müxtəlif kitablar, məqalələr yazılmış və 2004-cü ildə "Saf ruh" adlı sənədli film də çəkilmişdir.

Ölkəmizdə yaşayan molokanlar dini etiqad azadlığı və tolerantlıq çərçivəsində öz vətəndaşlıq hüquqlarından yararlanaraq Azərbaycanda dini və etnik qrupların qarşılıqlı şəkildə yaşamalarını da real şəkildə əks etdirirlər.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Breyfogle Nicholas B., ``Prayer and the Politics of Place: Molokan Church Bulding, Tsarist Law and the Quest for a Public Sphere in Late Imperial Russia``, Religion and Spirituality in Modern Russia, ed. M.D.Steinberg və H.J. Coleman, Indiana, Indiana Uni.Press, 2007.
2. Buss, Andreas, The Russian Orthodox Tradition and Modernity, Boston, Brill, 2003.
3. Вердиева, Х.Й., Переселенческая политика Российской империи в северном Азербайджане, Баку, 1999, s. 181; 178-179.
4. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi internet saytı, www.scwra.gov.az
5. Дингелщдедт, Н, Закавказские сектанти, С-Петерсбург, 1885.
6. Гладков П.А. и Коритин Г.Й., Христианские секти в Азербайджане, Баку,1961, s. 38-41.
7. Fındıkoğlu, Z.F, Türkiye`de İslav Muhacirleri, İstanbul, Fakülteler nəşr, 1996.
8. Karagöz Erkan, Kars ve Çevresinde Aydınlanma Hareketleri ve Sol Geleneğin . Tarihsel Kökenleri 1878-1922, İstanbul, Asya Şafak nəşr, 2005.
9. Коритин, Г.Й., Что такаое секти, Баку,1987.
10. Lunkin Roman & Anton Prokofyev, "Molokans and Dukhobors: Living Sources of Russian Protestantism", Religion, State and Society, Vol.28, No: 1, 2000.
11. Малахова , И.А., О современных молоканах. М., 1968.
12. Морозов И., Молокане, М.-Л., 1931 1931.
13. Muaranaka Therese Adams, The Russian Molokan Colony at Guadalupe, Baja California: Continuity and Change in a Sectrarian Community, A Dissertation Submitted of the

Faculty of the Department of Anthropology, The University of Arizona, 1992.
14. Türkdoğan Orhan, Malakanları`ın Toplumsal Yapısı, Erzurum, Atatürk Üniversitetsi nəşr, 1971.
15 ................................, Kars`ta Bir Etnik Grup-Malakanlar`ın Toplumsal Yapısı, İstanbul, İQ nəşr, 2005.
16. Suvari, Çakır Ceyhan, Malakanlar, Ütopya nəşr, İstanbul, 2013, s. 100-101.
17. http://gun.az/social/102149



*Azərbaycan SSR Kommunist Partiyasının birinci katibi Heydər Əliyev İvanovka kolxozunun sədri Nikolay Nikitinlə birgə kənd sakinlərilə görüşür*



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva İvanovka kəndində*



*İvanovka kəndinin müasir vəziyyəti*



*Molokanlar Dua evində*

# LÜTFİ ZADƏ MƏNTİQİ AZƏRBAYCAN TOLERANTLIQ MODELİNİN FƏLSƏFİ ƏSASI KİMİ

**Elmin ƏLİYEV**[1]

## Giriş

Azərbaycan düşüncə tarixinə nəzər salsaq, dünya elm və mədəniyyət xəzinəsinə töhfə vermiş, hətta yeni sistem/paradiqma inşa edərək bəşəri təxəyyülün hüdudlarını genişləndirmiş onlarla mütəfəkkirin adını çəkə bilərik. Aristotelin düşüncə sistemi əsasında formalaşdırılmış məşşai fəlsəfənin inkişafında əvəzsiz rolu olan Bəhmənyar İbn Mərzuban (XI əsr), işraqilik adlı yeni fəlsəfi cərəyanın qurucusu sayılan Sührəverdi (XII əsr), vəhdəti-vücud konsepsiyasının banilərindən hesab edilən Eynəlqüzat Miyanəçi (XII əsr), Osmanlı elm həyatında dərin izlər qoyan Məhəmməd ibn Əli əl-Qarabaği (XVI əsr), Anadoluda riyaziyyat, astronomiya və coğrafiya elmlərinin qurucularından sayılan Fəthullah Şirvani (XV əsr), məntiq və tibbdə məşhurlaşmış Əfzələddin Xunəci (XIII əsr), tanınmış kəlam və fiqh alimi Müqəddəs Ərdəbili (XVI əsr) məhz belə şəxsiyyətlərdəndir.[2]

Sıralarını daha da genişləndirə biləcəyimiz bu dahi insanlar tarixin müxtəlif mərhələlərində ya mövcud düşüncə sistemlərini təkminləşdirmiş, ya da yeni bir sistemin qurulmasında yaxından iştirak etmişdir. Əlbəttə, klassik İslam sivilizasiyasının məhək daşlarından sayılan bu elm xadimlərinin düşüncə dünyalarını bir neçə səhifədə tam təfsilatı ilə təhlil etmək mümkün deyil. Sadəcə onu qeyd etməklə kifayətlənirik ki, bu şəxsiyyətlərin ortaya çıxmasında Azərbaycan xalqının elm və təfəkkürə olan rəğbəti, habelə fərqli inanc və düşüncə tərzlərinə qarşı qərəzsiz yanaşması böyük rol oynamışdır. Bu-

[1] Ankara Universitetinin doktorantı.

[2] Elmin Əliyev, "Azərbaycanda irfan mütəfəkkirləri", Azərbaycan və Əhli-beyt irsi, Bakı, 2013, s.130-131.

radakı əsas məqsədimizə gəldikdə isə ilk növbədə XXI əsrin elm və texnologiya həyatında yeni iz açmış Azərbaycan alimi Lütfi Ələsgərzadənin məntiq nəzəriyyəsinə əsasən bəzi dini məsələlərin izahının, beləliklə də, Azərbaycan xalqına məxsus tolerantlıq və multikulturalizm düşüncəsinin bu məntiq nəzəriyyəsi ilə əsaslandırılmasının mümkün olub-olmadığına diqqət yönəltməkdən ibarətdir.

Fəlsəfə düşüncə tarixinin heç bir mərhələsində XX əsrdə olduğu qədər dərin problemlərlə üzləşməmiş və diqqət mərkəzində olmamışdır. Dünyanın sözün əsl mənasında kiçilməsini ifadə edən qloballaşma, sürətlə inkişaf edən elm və texnologiya daha qarışıq mədəniyyət və həyat tərzlərinin ortaya çıxmasına səbəb olmuşdur. Bu isə öz növbəsində yeni fəlsəfi problemləri və bu problemlər qarşısında formalaşdırılan düşüncə sistemlərini bərabərində gətirmişdir. Qeyri-səlis məntiq nəzəriyyəsini biz bu nöqteyi-nəzərlə ələ alaraq, müasir fəlsəfi problemlərin tələbi ilə bir qaçış yolu olaraq ortaya çıxan bu yeni nəzəriyyənin köhnə problemlərin həllinə hansı ölçüdə kömək edə biləcəyini araşdıracağıq.

## Lütfi Ələsgərzadə və qeyri-səlis məntiq nəzəriyyəsi

Lütfi Rəhim oğlu Ələsgərzadə 1921-ci il fevralın 4-də Bakıda anadan olub. Əslən Cənubi Azərbaycandan olan atası Rəhim Ələsgərzadə ticarət məqsədi ilə Bakıya gələrək bir müddət sonra Bakı Dövlət Universitetində şərqşünaslıq ixtisası üzrə təhsil alır. Bakıda anadan olan Lütfi Zadə təxminən 10 il burada yaşayır. Sovet hakimiyyətinin 1932-ci ildə İran vətəndaşları olan azərbaycanlılarla bağlı qəbul etdiyi yeni qərardan sonra isə ailəsi İrana geri dönmək məcburiyyətində qalır.

Təhsilini İranda davam etdirən Lütfi Zadə Tehrandakı Amerika kollecini və Tehran Universitetinin elektrotexnika

fakültəsini müvəffəqiyyətlə başa vurur. 1944-cü ildə ABŞ-a köçən gənc alim 1946-cı ildə Massaçusets Texnologiya İnstitutunda elektrotexnika ixtisası üzrə magistratura diplomuna yiyələnir. 1949-cu ildə Kolumbiya Universitetində doktorluq elmi dərəcəsi alan tədqiqatçı 1957-ci ildə professorluğa yüksəlir.

Qısa müddət ərzində bir neçə fundamental tədqiqat ilə məşhurlaşan alim 1965-ci ildə "Information and Control" jurnalında qeyri-səlis çoxluqlara aid məqaləsini çap etdirir. Zaman keçdikcə bütün dünyada böyük rezonans doğuracaq elmdə yeni bir istiqamətə təkan verəcək qeyri-səlis məntiq (fuzzy logic) nəzəriyyəsi ilk vaxtlar tədqiqatçılar tərəfindən ehtiyatla, hətta istehza ilə qarşılanır. Bütün şübhələrə baxmayaraq, Lütfi Zadənin qeyri-səlis çoxluqlar və qeyri-səlis məntiq nəzəriyyəsi elm xadimləri tərəfindən qəbul edilmir və son 20 ildə məişət texnikalarından tutmuş mürəkkəb texnoloji proseslərin tətbiqinə qədər ən müxtəlif sahələrdə öz əksini tapır. Lütfi Zadə, eyni zamanda təəssüratlar, sistemlər, sözlə işləyən kompüter, optimal süzgəclər kimi 6 mühüm nəzəriyyələrin müəllifidir.[1]

Lütfi Zadə tərəfindən sistemləşdirilən qeyri-səlis məntiq nəzəriyyəsinin əsasını klassik məntiqin və riyazi təsəvvürün qəbul etdiyi ikili çoxluq anlayışının qeyri-səlis çoxluq ilə əvəz olunması təşkil edir. Belə ki, Aristotelin binar məntiq sistemi ilə yürüdülən mühakiməyə görə bir şeyin ağ və ya qara olması labüddür, üçüncü ehtimal bu nəzəriyyəyə əsasən mümkün deyil. Digər bir ifadə ilə bir şey doğru və ya yanlış, uzun və ya qısa şəklində iki dəyərdən hər hansı birinə sahib olmalıdır. Qeyri-səlis məntiq nəzəriyyəsi isə ağ və qara, doğru və yanlış, uzun və qısa ilə yanaşı, onların müxtəlif çalarlarının mövcudluğunu da qəbul edir. Qeyd olunan dəyərlərdən hər birinin arasında kəsilməz dəyərlər silsiləsi vardır ki, bu da sözügedən

---

[1] Geniş məlumat üçün bax: Möhbəddin Səməd, Dünya dahilərsiz yaşaya bilmir, Bakı, Azərbaycan Milli Ensiklopediyası, 2000.

nəzəriyyəyə real həyatı daha yaxşı əks etdirmək imkanı verir. Məhz bu nöqteyi-nəzərlə qeyri-səlis məntiqi yanaşma müasir dünyada fərqliliklərin vəhdətinin, eləcə də müxtəlif inanc və mədəniyyət mənsublarının birgəyaşayışının təmin olunmasında, binar sistemlə izahı çətin olan dini məsələlərin ictimai problemlər doğurmasının qarşısının alınmasında təsirli ola bilər. Bir insanı dost və ya düşmən şəklində xarakterizə edən binar məntiqin əksinə ona yaxın dost, uzaq dost, tanış və s. şəklində fərqli dəyərlər də yükləyən qeyri-səlis məntiq anlayışı başqaları ilə münasibətlərin qurulmasında, tolerantlıq və multikulturalizm prinsiplərinin yayılmasında böyük əhəmiyyət kəsb edir.

## Formal məntiq nəzəriyyəsinin İslam düşüncə tarixindəki yeri

İslam aləmində sistematik məntiq araşdırmaları məşhur yunan filosofu Aristotelin əsərlərinin ərəb dilinə tərcümə edilməsi ilə başlamışdır. Bu tərcümə fəaliyyətlərinin yüksələn xətt üzrə inkişaf edərək X əsrdə zirvə nöqtəyə çatmasında və beləliklə də, yunan düşüncəsinin islamlaşdırılması baxımından əsas vasitə olaraq istifadə edilməsində bir neçə faktor böyük rol oynamışdır:

1. İslam dininin yayıldığı bölgələrdəki Xristian, Yəhudi, eləcə də digər din mənsubları öz inanclarını əsasən yunanlardan aldıqları məntiqi təfəkkür ilə müdafiə edirdilər. Buna görə də müsəlmanlar öz dini arqumentlərini əsaslandırmaq üçün Aristotel məntiqinin öyrənilməsi zərurəti ilə qarşılaşmışdırlar. Digər tərəfdən sözügedən dövrdə Cəfər əl-Mənsur kimi Abbasi xəlifələrinin elmi tədqiqatlara verdiyi xüsusi dəstək tibb, fəlsəfə və məntiq əsərlərinin ərəb dilinə tərcüməsində böyük rol oynamışdır.

2. Müsəlmanlar üçün əsas və dəyişməz qaynaq mahiyyəti daşıyan Qurani-Kərimdə doğru biliklərə yiyələnmə, tədqiq etmə, araşdırma, ibrət alma, təfəkkür və idraketmə məfhumlarının vurğulandığı və müsəlmanların bu tərz fəaliyyətlərə şövq edildiyi bir çox ayə mövcuddur. Eyni şəkildə Həzrət Məhəmmədin hədislərində də əqli mühakimənin xoş qarşılandığına dair ifadələrin mövcud olması müsəlmanları məntiq elmini öyrənməyə ruhlandırmışdır.

3. Müsəlmanların Aristotel məntiqini öyrənib inkişaf etdirməyə sövq edən bir digər amil isə dini və etiqadi məsələlərin aydınlaşdırılması ilə yanaşı, məntiqi mühakiməni həyatın bütün sahələrinə tətbiq etmə ehtiyacı olmuşdur.[1]

Bütün bunlarla yanaşı, müsəlman dilçi və kəlam alimlərindən bir qismi aşağıdakı səbəblərə görə məntiq araşdırmalarına etiraz etmişdir:

1. İslam düşüncəsini xarici təsirlərdən qoruma təşəbbüsü;
2. Dini elmlərin ikinci plana atılacağı qorxusu;
3. Məntiq elminin İslam aləminə giriş yollarının, eləcə də məfhum və mövzularının ilk baxışda İslama yad faktor kimi dəyərləndirilməsi;
4. Bəzi məntiq prinsiplərinin ənənəvi kəlam metodları ilə ziddiyyət təşkil etməsi;
5. Elmi fəaliyyətin məntiq metodları ilə əsaslandırılmasının zəruri olmadığı anlayışı;
6. Məntiqin insan təfəkkürünün hüdudlarını daraltması düşüncəsi;
7. Doqmatik düşüncə və digər emosional təmayüllər.[2]

Qeyd edilən təmayüllərə baxmayaraq, Fərabi və İbn Sina başda olmaqla müsəlman filosofların intellektual fəaliyyətləri, eyni zamanda əşari alimlərindən Əbu Həmid əl-Qəzalinin İbn

---

[1] İbrahim Emiroğlu, Ana hatlarıyla klasik mantık, Bursa, 1999, s. 47-50, İbrahim Emiroğlu, "Mantık", DİA, c. 28, s. 20.

[2] İbrahim Emiroğlu, Ana hatlarıyla klasik mantık, Bursa, 1999, s. 51-52.

Teymiyyə tərəfindən kəskin tənqid atəşinə tutulan elmi-sxolastik və ideoloji yanaşması nəticəsində İslam alimləri Aristotel məntiqinə dini elmlərin öyrənilməsində açar rolu yüklənmişdir. Məntiqi müstəqil bir elm kimi qəbul edib-etməməsindən asılı olmayaraq klassik dövr müsəlman mütəfəkkirləri öz fikirlərini formal məntiqin prinsipləri fonunda izah etməyə çalışmışdırlar.

## Formal məntiq ilə izahı mübahisə doğuran dini mövzulara nümunələr

**Bərzəx:** lüğəvi mənada "iki şey arasındakı maneə" anlamını verən bu termin kəlam və təsəvvüf leksikonunda fərqli çalarlarla öz əksini tapmışdır. Buna baxmayaraq, ümumilikdə dini termin olaraq ölümdən sonra yenidən dirilişə qədərki ara mərhələni, dünya və axirət arasındakı aləmi və qəbir həyatını ifadə etmək üçün istifadə olunur.

İslam dininin etiqadi və hüquqi məsələləri üçün əsas qaynaq təşkil edən Qurani-Kərimdə "bərzəx" kəlməsi üç yerdə işlədilmişdir:

1. **«Birinin suyu çox şirin, digərininki isə olduqca şor (acı) olan iki dənizi qovuşduran, aralarında (bir-birinə qarışmamaq üçün) maneə və keçilməz sədd qoyan Odur!"**[1]

2. **"(Suları şirin və acı olan) iki dənizi O qovuşdurdu (bir-birinə qovuşmaq üçün açıb buraxdı). Amma onların arasında maneə vardır, bir-birinə qatışmazlar (özləri üçün müəyyən edilmiş həddi aşmazlar)"**.[2]

3. **«Nəhayət, (müşriklərdən) birinin ölümü gəlib çatdığı zaman o belə deyər: "Ey Rəbbim! Məni geri (dünyaya) qaytar! Bəlkə, (indiyə qədər) zay etdiyim ömrüm müqabilində yaxşı bir iş görüm! (Yaxud, bu günə qədər tərk etdiyim imana qayıdıb saleh bir əməl edim!) Xeyr, bu onun dediyi boş (faydasız) bir söz-**

[1] Furqan 25/53.
[2] Rəhman 55/19-20.

**dür. Onların önündə dirilib (haqq-hesab üçün Allahın hüzurunda) duracaqları günə (qiyamət gününə) qədər maneə (öldükdən sonra qiyamətədək qalacaqları bərzəx aləmi) vardır”**.[1]

Göründüyü kimi, ilk iki ayədə “bərzəx” sözü şor və şirin sulu iki dənizi bir-birindən ayıran maneə mənasında işlədilmişdir. Üçüncü ayədə isə insanların ölümlərindən etibarən başlayıb yenidən dirilmələrinədək davam edəcək mərhələni ifadə edir. Kəlam elmində bərzəx termini məhz bu mənada işlədilmiş və hər bir insanın mütləq surətdə bərzəx dövrünü yaşayacağı qəbul edilmişdir.

Təsəvvüf ədəbiyyatında da bərzəx termininə verilən mənaların mahiyyət etibarilə eyni olduğunu qeyd edə bilərik. Təsəvvüfi düşüncəyə əsasən, bərzəx maddi aləm ilə mənəvi aləm arasında körpü vəzifəsini icra edən keçid mərhələ kimi qəbul edilir. Maddi aləm ağıl və duyğu orqanları ilə idrak edilən, mənəvi aləm, yəni qeyb aləmi isə bunlarla idrak edilməyən aləmdir.[2]

**“Əl-Mənzilə beynəl-mənziləteyn”:** ərəb dilindən tərcümədə “iki mövqe (məkan, dərəcə) arasındakı mövqe” mənasını verən bu ifadə Abbasilər dövrünün hakim məzhəblərindən olmuş mötəzilənin beş əsasından biri hesab edilir. Bu anlayışa əsasən, böyük günahlardan hər hansı birini edən şəxs imandan çıxmış sayılır, ancaq iman əsaslarını inkar etmədiyinə görə kafirlik deyil, fasiqlik mərtəbəsində qərarlaşır. Ölənə qədər tövbə etmədiyi təqdirdə isə kafir kimi cəhənnəmə girəcəkdir.[3]

Mötəzilə əqaid alimlərinin bu yanaşması böyük günah edən şəxsi kafir elan edən xaricilik ilə mömin qəbul edən mürciə məzhəblərindən fərqli bir anlayışın məhsulu olaraq qarşımıza çıxır. Əslində bir çox alimlərin fikrincə, məzhəbin adı bilavasitə bu prinsipin mübahisəsi nəticəsində meydana gəlmişdir. Belə ki, bu fikri ilk dəfə ortaya atan Vasil ibn Əta, eyni zamanda

---

[1] Muminun 23/99-100.

[2] Cüneyt Gökçe, “Berzah”, DİA, İstanbul, 1989, c.1, s. 525.

[3] İlyas Çelebi, “Menzile beyne`l-menzileteyn”, DİA, İstanbul, 2004, c. 29, s. 161.

mötəzilə məzhəbinin banisi hesab olunur. O, elmi diskusiya əsnasında böyük günah edəni münafiq adlandıran Həsən əl-Bəsriyə etiraz etmiş və nəticədə mötəzilə məzhəbinin əsasını qoymuşdur. Bütün dini düşüncəsini sözügedən müddəa ətrafında formalaşdıran Vasil ibn Əta öz fikirlərini siyasi müstəviyə də daşımışdır. O, Həzrət Əli və Müaviyə arasında baş vermiş müharibədə hansı tərəfin günahkar olduğunun yalnız Allah tərəfindən bilinəcəyi fikrini müdafiə edərək bu məsələdə xaricilik, mürciə və şiəlik arasında orta mövqe tutmuşdur. Belə ki, xaricilər hər iki tərəfi kafir, mürciələr mömin, şiələr isə sadəcə Həzrət Əliyə qarşı çıxanları fasiq adlandırırdı.

Mötəzilənin yaranmasında və sistematik məzhəb kimi formalaşmasında aparıcı məfhumlardan biri qəbul edilən "əl-mənzilə beynəl-mənziləteyn" termini paralel olaraq mömin və kafir məfhumlarının əhatə dairələrinin yenidən müzakirə edilməsinə də səbəb olmuşdur. Bu barədəki elmi diskussiyaların, müzakirə, mübahisə və münaqişələrin necə dərin müstəvidə cərəyan etdiyini və məsələnin o dövrdəki məntiqi təfəkkür ilə idrak edilməsinin çətinliyini Qazi Əbdülcəbbarın bu yanaşmasından da başa düşmək mümkündür. Məzhəbin başlıca alimlərindən sayılan Qazi Əbdülcəbbar "əl-mənzilə beynəl-mənzilәteyn" prinsipinə dair məsələlərin ağıl, daha doğrusu dövrün məntiqi təfəkkürü ilə başa düşülməsinin qeyri-mümkünlüyünü bildirir. Bunu bəzi günahların və ya savabların əvəzində daha çox cəza və ya mükafat verilməsi reallığı ilə müqayisə edən alim öz fikrini dəstəkləmək üçün belə bir misal verir: "Bizə qalsaydı, hökm verərdik ki, yoxsula bir dirhəm pul verilməsinin müqabilində kəliməyi-şəhadətdən daha çox savab, içki içilməsinin müqabilində də ona icazə verilməsindən daha çox cəza tətbiq olunsun".[1]

**Allahın zatı və ilahi sifətlər mövzusu:** klassik əqaid elmində Allahın varlığından daha çox sifətləri (xüsusiyyətləri) ilə bağlı

[1] Qazi Əbdulcabbar, Şərhul-usulil-xəmsə, Qahirə, Məktəbətu Vəhbə, 1988, s. 137-140.

məsələlər müzakirə edilmişdir. Bu təmayülü istər sünni, istərsə də şiə məzhəbindən olan əqaid alimlərinin əsərlərinə şamil etmək mümkündür. İslam əqaidinə dair müəyyən əsərlər qələmə alan müsəlman mütəfəkkirlər Allahın varlığını isbat etmək üçün bənzər dəlillər ortaya qoymuş və nəticə etibarilə eyni mövqedən çıxış etmişdir. Allahın varlığının dəlilləri mövzusunda müşahidə edilən bu həmfikirlik sifətlər (xüsusiyyətlər) mövzusunda reallaşmamış və əqaid məktəbləri arasındakı fərqli yanaşmalar formalaşmışdır. Belə ki, Quranın yaradılıb yaradılmaması, Allahın axirətdə görülməsi kimi bir çox əqaid problemləri məhz Allahın sifətləri mövzusundakı fikirayrılıqlarından qaynaqlanmaqdadır.

Sözügedən yanaşmalardan iki dəyərli məntiq sisteminə əsasən, izahı ən çox mübahisə doğuran, heç şübhəsiz ki, əşərilik məzhəbinin ortaya qoyduğu fikirdir. Qısa şəkildə ifadə etsək, Əbul-Həsən əl-Əşəri və davamçılarının fikrincə, ilahi sifətlər Allahın varlığı ilə nə eyni şey, nə də ondan başqa şeydir. Burada qeyd etmək lazımdır ki, ilahi sifətlər haqqında bu yanaşma mötəzilə tərəfindən ortaya atılan fikrə alternativ olaraq formalaşdırılmışdır. Mötəzilə məzhəbinin alimlərinə görə, ilahi sifətlər Allahın zatı ilə eyniyyət təşkil edir. Elm sifətini misal versək, mötəzilə alimlərinin qənaətini "Allah zatı ilə alimdir" şəklində xülasə edə bilərik. Bu fikrə qarşı müdafiə edilən yanaşma isə "Allah alimdir" şəklində ifadə olunmuşdur.

Belə olduğu təqdirdə ortaya çıxan problem Allahın zatından ayrı olduğu düşünülən sifətlərin zat ilə münasibətinin qurulmasıdır. İlahi sifətlərin Allahın zatı ilə eyni olmadığını müdafiə edən Əşəri Onun zatından tamamilə ayrı olmadığını da qeyd etmiş və bunu özünəməxsus şəkildə izah etməyə çalışmışdır. Nəticədə, ilahi sifətlərin Allahın zatı ilə münasibəti mövzusunda iki dəyərli məntiq sistemi ilə izah edilməsi çətin olan paradoksal əşəri nəzəriyyə təşəkkül etmişdir.[1]

---

[1] Bax: Əbul-Həsən əl-Əşəri, Məqalatül-islamiyyin və ixtilaful-musallin, thq: Muhamməd Mühyiddin Əbdülhəmid, Beyrut, 1990, c. 2, s. 225-226.

## Nəticə

Lütfi Zadənin məntiq nəzəriyyəsini XXI əsr çərçivəsində dəyərləndirmək lazımdır. O, sadəcə kibernetika, riyaziyyat və məntiq mütəxəssisi deyil, yeni bir paradiqma inşa etmiş filosof olaraq qəbul edilməlidir. Bu nəzəriyyə XXI əsrdə sürətlə inkişaf edən sənaye, elm və texnologiya sahələrinə dərindən nüfuz etməklə yanaşı, həyatın bütün yönlərini əhatə edən sosial-dini məsələlərə dair yeni yanaşmaların formalaşmasında da böyük təsirə malikdir. Digər bir ifadə ilə Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsini humanitar elmlər, iqtisadiyyat, psixologiya, politologiya, sosiologiya və ilahiyyat kimi bir çox sahələrə tətbiq etmək mümkündür.[1]

Yuxarıda nümunə olaraq təyin etdiyimiz və İslam məzhəbləri arasında bəzən dərin fikirayrılıqlarının doğmasına səbəb olmuş bu mövzuların Aristotelin iki dəyərli formal məntiqi ilə tam izahını vermək olduqca çətindir. Məsələ, sadəcə intellektual mübahisələrdən ibarət olduğu müddət ərzində əslində o qədər də qorxulu deyil. Ancaq çox təəssüf ki, imanın artıb-azalması, böyük günah edənin dindən çıxıb-çıxmaması, insanın öz əməllərinə görə məsuliyyət daşıyıb daşımaması kimi dini məsələlər sosial, siyasi və hərbi münaqişələrə gətirib çıxardır. Müxtəlif radikal qruplaşmalar tərəfindən şişirdilərək siyasi məqsədlər üçün istifadə edilən bu problemlərin məntiqi izahı verilmədiyi təqdirdə geniş xalq kütləsinin, xüsusilə də gənclərin din anlayışında dərin boşluqlar yaranacaq.

Ancaq unudulmamalıdır ki, klassik məntiqin olduğu kimi, qeyri-səlis məntiqin də müəyyən əhatə dairəsi, hüdudları vardır. Onu klassik məntiqdən ayıran nüans bu hüdudların daha elastik olmasıdır. Məhz bu elastiklik sayəsində qeyri-səlis məntiq tətbiq edildiyi hər sahədə daha həssas nəticələr doğurur. Bu baxımdan sözügedən nəzəriyyəni mütləq həqiqət olaraq qəbul etmək və

---

[1] Mehmet Emin Arı, Stabilization of an Inverted Pendulum By Using A Fuzzy Controller, (Master thesis), Middle East Technical University, Ankara, 1995, s. 8.

dini-normativ hökmləri məhz bu prizmadan dəyərləndirmək müəyyən problemlərin yaranmasına gətirib çıxarda bilər.

Qeyri-səlis məntiq nəzəriyyəsi elmi bir nəzəriyyədir və digər elmi nəzəriyyələr kimi daim yenilənməyə, nə qədər qəribə səslənirsə səslənsin, öz iddialarının doğruluğunu yoxlamağa, öz hüdudlarını aşmağa məhkumdur. Dini prizmadan baxıldıqda isə Allahın varlığı və bu kimi digər məsələlər haqqında qeyri-səlis məntiqi yanaşma ilə hökm vermək mümkün görünməməkdədir.

Eyni şəkildə qeyri-səlis məntiq nəzəriyyəsinin qeyd-şərtsiz yeganə doğru təfəkkür tərzi olaraq qəbul edilməsinin çoxlu dəyərlər sistemi əsasında dəyərsizlik düşüncəsinin yayılmasına da səbəb olması təhlükəsi mövcuddur. Yəni doğru və yanlış arasında çoxlu sayda ara dəyərlərin olması faktının önə çəkilməsi müəyyən müddətdən sonra mütləq doğru və mütləq yanlış fikrinin ortadan qalxmasına gətirib çıxardacaqdır.

Xüsusilə dini və əxlaqi prinsiplər baxımından qeyri-səlis məntiq anlayışı fərqli mədəniyyətlərdən və inanc/məzhəb sistemlərindən olan insanların birgəyaşayının təmin edilməsi üçün problemlərin praktiki izahının verilməsində istifadə edilməlidir. Fərqliliklərin eyni səviyyədə dəyərə malik olduğunu sübut üçün müraciət edildiyi təqdirdə isə bu nəzəriyyə mövcud vəziyyəti daha da mürəkkəbləşdirməkdən başqa bir nəticə doğurmayacaqdır. Qısacası, ilahi dinlər arasında yaxınlaşmanı təmin etmək və klassik dövrlərdə səsləndirilmiş radikal fikirlərin praktiki izahını vermək üçün qeyri-səlis məntiqi yanaşmadan istifadə edərək qloballaşma tələbləri ilə ayaqlaşan teist bir anlayış inşa etmək mümkündür. Ancaq bir müsəlmana yəhudi ilə, bir xristiana müsəlman ilə, bir yəhudiyə xristian ilə eyni dəyəri ifadə etdiyini qəbul etdirməyə çalışmaq ən yaxşı ehtimalda deist və ya aqnostik fikirlərin yayılmasına gətirib çıxaracaqdır. Eyni şəkildə qlobal əxlaqi prinsiplər yaratmaq üçün lokal əxlaqi normaların bərabərsəviyyəli bir dəyər ifadə etdiyini müdafiə etmək nəzəriyyədə vəhdətin yaranmasına xidmət etsə də, praktik həyatda dəyərlərindən məhrum kütlələrin yaranmasına səbəb olacaqdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Arı Mehmet Emin, Stabilization of an Inverted Pendulum By Using A Fuzzy Controller, (Master thesis), Middle East Technical University, Ankara, 1995.
2. Çelebi İlyas, "Menzile beyne`l-menzileteyn", DİA, İstanbul, 2004, c. 29, s.161.
3. Emiroğlu İbrahim Emiroğlu, Ana hatlarıyla klasik mantık, Bursa, 1999.
4. Emiroğlu İbrahim, "Mantık", DİA, c. 28, s. 20.
5. Emiroğlu İbrahim, Ana hatlarıyla klasik mantık, Bursa, 1999.
6. Əbul-Həsən əl-Əşəri, Məqalatül-islamiyyin və ixtilaful-musallin, thq: Muhamməd Mühyiddin Əbdülhəmid, Beyrut, 1990.
7. Əliyev Elmin, "Azərbaycanda irfan mütəfəkkirləri", Azərbaycan və Əhli-beyt irsi, Bakı, 2013.
8. Gökçe Cüneyt, "Berzah", DİA, İstanbul, 1989, c.1, s. 525.
9. Qazi Əbdulcabbar, Şərhul-usulil-xəmsə, Qahirə, Məktəbətu Vəhbə, 1988.
10. Səməd Möhbəddin, Dünya dahilərsiz yaşaya bilmir, Bakı, Azərbaycan Milli Ensiklopediyası, 2000.

# MÜNDƏRİCAT

Ön söz ............................................................................. 3
Seyid ocaqlarının Azərbaycandakı tarixi ..................................... 8
Qarabağ seyidləri ........................................................................ 9
Seyid Həmzə Nigarinin fəaliyyətləri ........................................... 9
Nigari məktəbi ............................................................................ 13
Seyid Nigari məktəbinin ictimai həyatdakı
təzahürü: Hacı Qaraman ocağı ................................................... 13

**DİNİ DÖZÜMLÜLÜK, YOXSA FƏRQLİLİKLƏRİN VƏHDƏTİ: AZƏRBAYCANIN TOLERANTLIQ MODELİNİN ƏSAS GÖSTƏRİCİLƏRİ**

Azərbaycanın tolerantlıq modelinin əhəmiyyəti ......................... 30
Beynəlxalq aləmdə Azərbaycanın tolerantlıq
modeli ........................................................................................ 30
Dövlət-din münasibətlərinin tənzimlənməsi ............................... 32
Azərbaycanın dini tolerantlıq modelində
İslam faktorunun rolu ................................................................ 35
Azərbaycanda İslamaqədərki dini müxtəliflik ............................ 42
İslamda birlikdə yaşama təcrübəsi ............................................ 43
Tolerantlığın əsaslarından peyğəmbərlərə
və müqəddəs kitablara inanc ...................................................... 44

Əvəzolunmaz milli-mənəvi dəyər kimi qonaqpərvərlik ....... 46

Qəlblərə yol tapan milli dəyər kimi hədiyyələşmək............... 47

Tolerantlıq tarixinin canlı şahidləri kimi xiyabanlar .............. 48

**AZƏRBAYCANIN CƏNUBUNDA**
**DİNİ TOLERANTLIQ VƏ YA**
**BİRLİKDƏ YAŞAMA MƏDƏNİYYƏTİ**

Giriş ........................................................................ 52

Azərbaycanda İslamın yayılması və
digər dinlərə qarşı münasibət ................................................. 55

Azərbaycanın cənubunda dini tolerantlıq................................ 58

Cənub bölgəsində fərqli dinlərə qarşı tolerantlıq ................... 59

Cənub bölgəsində fərqli məzhəblərə qarşı
tolerantlıq ..................................................................... 60

Cənub bölgəsində mövcud tolerantlığın əsas səbəbləri......... 64

Bölgədəki tolerantlığı təhdid edən ünsürlər............................ 70

**AZƏRBAYCANDA**
**BƏHAİLİYİN TARİXİ VƏ BU GÜNÜ**

Giriş ........................................................................ 76

Bəhailiyin doğuşu ...................................................................... 80

Bəhailiyin əsas prinsipləri........................................................ 87

Bəhailiyin Azərbaycana gəlişi .................................................. 88

## QAFQAZ ALBANİYASININ MİRASI: TATCA DANIŞAN DAĞ YƏHUDİLƏRİ


Giriş ........................................................................ 100

Sinaqoqlar, dini rituallar və bayramlar................................. 108

Dağ yəhudiləri bu gün ........................................................ 116


## TARİX VƏ MÜASİRLİYİN QOVŞAĞINDA TOLERANTLIQ NÜMUNƏSİ OLARAQ AZƏRBAYCAN MOLOKANLARI


Giriş ........................................................................ 122

Molokanların tarixi ............................................................ 123

Molokan etiqadının məzmun və mahiyyəti............................ 126

Azərbaycan molokanları....................................................... 130


## LÜTFİ ZADƏ MƏNTİQİ AZƏRBAYCAN TOLERANTLIQ MODELİNİN FƏLSƏFİ ƏSASI KİMİ


Giriş ........................................................................ 144

Lütfi Ələsgərzadə və qeyri-səlis məntiq nəzəriyyəsi............ 145

Formal məntiq nəzəriyyəsinin
İslam düşüncə tarixindəki yeri.............................................. 147

Formal məntiq ilə izahı mübahisə doğuran
dini mövzulara nümunələr.................................................... 149

# Qeyd üçün

**Kitab "Digitals Media" MMC-nin sifarişi ilə nəşr edilib.**

# Azərbaycanda tolerantlıq ənənəsi


| | |
|---|---|
| Texniki redaktor: | Elnur ƏHMƏDOV |
| Bədii redaktor: | Fəxri VƏLİYEV |
| Səhifələyici: | Sədaqət KƏRİMOVA |

Yığılmağa verilmişdir: 30.11.2015.
Çapa imzalanmışdır: 16.12.2015.
Nəşrin ölçüsü: 60x90 1/16.
Fiziki çap vərəqi: 10.
Sifariş: 178/15 Sayı: 2000 ədəd.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ
Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com